Hər kəs ədalətli olacaq

ƏDALƏT

## "Ermənilərin BMT-də bu təxribatlarına son qoyulacaq"



**"BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi 25 il bir masa üzərində qaldı, onların həyata keçirilməsi təmin edilmədi. Azərbaycan torpaqları işğal altında olanda BMT Təhlükəsizlik Şurası bir dəfə də olsun Qarabağ mövzusu haqqında danışmadı. İndi isə ermənilərin manipulyasiyası, dezinformasiyası əsasında BMT Təhlükəsizlik Şurasının bir toplantısı keçirilə bilər və Azərbaycanın orada deyəcəyi çox sözlər var".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üzvləri və hərbi nümayəndələrin Ağdama səfəri çərçivəsində jurnalistlərə açıqlamasında deyib.

Prezidentin köməkçisi qeyd edib ki, qardaş Türkiyə də bu toplantıya qatılacaq. "Azərbaycan və Türkiyə bir daha haqlı mövqelərini ortaya qoyacaqlar. Yəni, bu mövzuda qardaş Türkiyənin dəstəyini çox yüksək qiymətləndiririk. Ümid edirik ki, ermənilərin bu təxribatlarına və manipulyativ addımlarına da son qoyulacaq", - deyə H.Hacıyev əlavə edib.

## *ATƏT sədrinə cavab:* "Heç bir yerdə sərhəddən "sərbəst keçid" anlayışı yoxdur"



**Laçın sərhəd-keçid məntəqəsindən hər gün hər iki istiqamətdə onlarla erməni əsilli Azərbaycan sakini keçir.**

Adalet.az xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Şimali Makedoniya Respublikasının xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmani Tvitter paylaşımına cavab verib."Cənab nazir, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da sərhəddən keçid yaxşı tənzimlənir və heç yerdə "sərbəst keçid" anlayışı yoxdur. Bölgəyə böyük həcmdə yüklərin tədarükünə gəlincə, Azərbaycan bu məqsədlər üçün Ağdam-Xankəndi yolunu ayırıb ki, əgər 10 gün əvvəl ermənilər tərəfindən razılaşmanın şərtləri pozulmasaydı, bundan istifadə edə bilərdilər", - deyə Hacızadə qeyd edib.

Xatırladaq ki, Buyar Osmani Tvitter paylaşımında qeyd etmişdi ki, yerlərdəki vəziyyətlə tanış olmaq üçün şəxsi nümayəndəsinə Laçın rayonuna getmək tapşırığı verib.

Osmani, həmçinin, Laçın dəhlizindən sərbəst keçidin təmin edilməsinə çağırış edib, bununla yanaşı, digər marşrutların paralel olaraq açılmasının vacibliyini vurğulayıb.

## DTX xüsusi əməliyyat keçirdi

Bax:səh-3

## TDT ölkələrinin səhiyyə nazirlərinin növbəti iclası Şuşada keçiriləcək



**Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə nazirlərinin növbəti iclası Şuşada keçiriləcək.**

Adalet.az xəbər verir ki, Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin iclasında yekun sənəd - Birgə Bəyannamə qəbul edilib.

Sənəddə türkdilli dövlətlərin Farmakopeyasının və Qaydalarının tətbiqi sahəsində əməkdaşlığın gücləndirilməsi, habelə fövqəladə hallar zamanı humanitar və tibbi yardımın göstərilməsi öz əksini tapıb.

Həmçinin yoluxucu xəstəliklərlə mübarizə üzrə TDT-nin birgə Fəaliyyət Planı layihəsinin hazırlanması, Təşkilat çərçivəsində dərman vasitələrinin və tibbi texnikanın birgə istehsalı imkanlarının nəzərdən keçirilməsi, eyni zamanda Türk Dövlətləri Təşkilatına üzv ölkələr tərəfindən tibb sahəsində verilmiş diplomların qarşılıqlı tanınması daxil edilib.

Bundan əlavə, Bəyannamə TDT-yə üzv və müşahidəçi dövlətlərin iştirakı ilə sağlamlıq turizmi sahəsində birgə şəbəkənin yaradılması, Vahid Tibb Məlumat Lüğətinin hazırlanması və digər məsələləri də əhatə edir.

Həmçinin Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə nazirlərinin növbəti iclasının keçiriləcəyi məkanla bağlı bir sıra təkliflər daxil olub. Baş katib Kubanıçbek Ömüralıyev Səmərqənd Bəyannaməsinə əsasən TDT-yə üzv ölkələrin səhiyyə nazirlərinin növbəti iclasının Azərbaycanın Şuşa şəhərində keçiriləcəyini elan edib. Kubanıçbek Ömüralıyev tədbirin 2023-cü il üçün Türk Dünyasının Mədəniyyət paytaxtı olan Şuşada uğurla keçiriləcəyinə əminliyini də bildirib.

## NƏ MAZARAT ADAMDI BU BOLŞEVİKLƏR





**- Nə mazarat adamdır bu bolşeviklər. Deyirsən, çörək yoxdur, deyirlər davay vayevat. Deyirsən, güllə yoxdur, deyirlər davay vayevat. Deyirsən davay anqliçan, deyirlər olmaz, olmaz, davay vayevat.**

İndi nə mazarat adamdılar bu hökumət üzvləri. Gecə yatmırlar, otururlar fikirləşirlər ki, görək bu xalqı iqtidardan necə küsdürə bilərik. İşıq pulunu artırırlar və deyirlər davay vayevat. Su pulunu artırırlar, deyirlər davay vayevat. Qaz pulunu artırırlar deyirlər davay vayevat. Taksinin qiymətini artırırlar, deyirlər davay vayevat.

İndi də "Wolt"u ləğv elədilər, həm minlərlə evinə bu yolla bir tikə çörək pulu aparan kasıb təbəqənin çörəyini kəsdilər, həm ictimai iaşəyə böyük zərbə vurdular, həm də adamların rahatlığını pozdular. Və dedilər ki, davay vayevat.

Yazırlar ki, Qida Təhlükəsizlik Agentliyi ləğv elətdirib. Qida Təhlükəsizlik Agentliyinin vəzifəsi adından görünür, o "Wolt"un sürücüləri evlərə zəhər-zəhrimar daşımırdılar ki? Yeməkxanada, restoranda bişən ərzağı daşıyırdılar.

**Nə isə, Allah insaf versin hökumətə. Görək sabah-birisi gün nə fikirləşəcəklər bu xalqı küsdürmək üçün.**

*İradə TUNCAY*

## Fransızlar mənfurlar kimidi...



**Özüm görmüşdüm İsveçrədə. Burda əməlli etnik problemlər yaşanır. Fransızdilli İsveçrədə kimsəyə almanca cavab vermirlər. İtalyanca da həmçinin. Hələ üstəlik almanları hədələyirlər ki, Fransaya birləşəcəyik. Almanlar da parlamentdə barmaq silkələyən kimi hamısı mısıb oturub. Amma höcətlik qalır. Almanca danışmırlar ve yazmırlar. Dövlət içində dövlət. Çətindü. Fransızlar mənfurlar kimidi, nə ingilislə yola gedirlər, nə almanla...**

Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 31 (6024) 18 avqust 2023-cü il | Qiyməti 40 qəpik

# Ermənilərə BMT-də tort "qonaqlığı"



Bax:səh-2

## FÜZULİLİLƏRİN SAĞ ƏLİ AĞDAMLILARIN BAŞINA



**Füzuli şəhəri sürətlə tikilir. Əgər belə davam etsə beşcə ilə Füzuli əvvəlkindən də gözəl, səliqəli bir şəhərə çevriləcək.**

Avqustun 18-də Füzuliyə Böyük Qayıdış başlayır və təxminən 200 ailə öz doğma yurd-yuvalarına qayıdırlar. Hamısını təbrik edir, bağrımıza basırıq.

**Və deyirik, sağ əliniz ağdamlıların başına!**

## Kəlbəcərdə erməni diversant ələ keçirildi



**Avqustun 16-da saat 11:15 radələrində Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu terror-təxribat əməliyyatları həyata keçirmək məqsədilə Ordumuzun Kəlbəcər rayonu İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən döyüş mövqelərinin arasındakı boşluqlardan istifadə edərək Azərbaycan ərazisinə sızmağa cəhd edib.**

Adalet.az xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumata görə, bölmələrimizin sayıqlığı nəticəsində atəş vasitələrimizin dəstəyi ilə erməni hərbçilərin təxribatının qarşısı alınıb. Nəticədə diversiya qrupunun bir üzvü yaralanmış vəziyyətdə hərbi qulluqçularımız tərəfindən saxlanılıb.

Kəşfiyyat-diversiya qrupunun digər üvləri geri çəkilməyə məcbur edilib.

Hazırda qrupun saxlanılan üzvü haqqında məlumatlar dəqiqləşdirilir. İctimaiyyətə əlavə məlumat veriləcək.

## QARABAĞDAKI ERMƏNİLƏRİN ƏRZAQ QITLIĞI ÇƏKMƏSİ MÜMKÜN DEYİL

**Qarabağda 30-40 min erməni yaşayır, bura Ermənistan silahlı qüvvələrinin Qarabağdakı əsgərlərini də əlavə etsək, qudursun olsun 50-55 min. Yəni Azərbaycanın bir kiçik rayonunun əhalisi qədər. Qarabağda yaşayanlar yaxşı bilir, ermənilər zəhmətkeş xalqdı, əkirdilər, becərirdilər: kartof əkirdilər, lobya, kələm, kök, xiyar, pomidor. Tərəvəz əkirdilər, mal-heyvan saxlayırdılar, donuz saxlayırdılar, həyətləri də toyuq-cücəylə dolu olardı. Meşələrdən də alma, armud, zoğal, böyürtkan, moruq , çiyələk yığardılar, əkib-becərdikləri özlərinə bəs edəndən sonra qalanını da gətirib Ağdam və Füzuli bazarlarında satardılar. Eləcə də bazara pendir, şor, xiyar, pomidor, kələm turşusu çıxarardılar.**

Bir sözlə, şənbə-bazar eşşəkli ermənilərin əlindən Ağdam bazarına girmək olmurdu.

Hələ mən taxılı, üzümü demirəm.

Yəni Qarabağda ermənilər heç vaxt ərzaq qıtlığı çəkə bilməz. Hələ indi Ağdam və Füzuli bazarlarına da ərzaq çıxara bilmədiklərindən yəqin ki, qalıb çürüyür. Ya da sülhməramlılara sırıyırlar. Bircə dava-dərmandan korluq çəkə bilərlər, bir ağır yüklü tırın da gətirdiyi dava-dərman bir ay bəsləridi.

Buyursunlar, müraciət etsinlər , elə biz Ağdamdan bir tır dava-dərman göndərə bilərik.

## A YORDU, YORDU, YORDU, GÖRƏK KİM KİMİ YORDU?..



**Bir ayına az qalıb ki, Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin 19 yük maşını Ermənistan-Azərbaycan sərhədində Laçın dəhlizinin girişində dayanıb gözləyirər. Təbii ki, Azərbaycan hökuməti bu maşınları haqlı olaraq Xankəndinə buraxmır və buraxmayacaq da.**

Bu adam balası olmayanlara adam balası kimi başa salmışıq ki, Xankəndinə yardım aparmaq istəyirlərsə, buyursunlar Ağdam-Xankəndi yoluyla və digər alternativ yollarla aparsınlar. Adam balası olmadıqlarından bu alterantiv yolları seçmək əvəzinə çığırıb-bağırırlar ki, Azərbaycan Qarabağ ermənilərini blokadada saxlayır.

35 ildi Ermənistan Naxçıvanı blokadada saxlayır, Avropada bir it küçüyü də səsini çıxarmayıb və 35 ildi biz buna dözürük.

Qoy indi Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti də, Ermənistan da 35 il gözləsin.

Bizdə gözəl bir mahnı var: "A yordu, yordu, yordu, görək kim kimi yordu?"

**35 il bizi yora bilməyiblərsə, indi də yora bilməyəcəklər.**

## KİM KİMİ DÖYƏR?

**Bu gün sosial şəbəkədə çox maraqlı bir status oxudum. Bir nəfər yazmışdı ki, AQTA-nın dayısı döyər, yoxsa "Volt"un dayısı?!**

Əlbəttə ki, AQTA-nın dayısı döyər. Yazsaydı ki, "Uber" - bu başqa məsələ, "Uber"in dalında Makron dayanır. O Makron ki ermənilərin başına ip salıb oynadır.

## *MAZANDARANDA EŞŞƏK AZ İDİ, BİR DƏSTƏSİ DƏ AVROPADAN GƏLDİ*

**Ermənilərin dalında duran az idi, indi bir dəstə də Fransa başda olmaqla, Avropa dövlətlərindən gəlib Azərbaycan-Ermənistan sərhədində elədən-belə gedir, belədən-elə, bütün günü sülənirlər.**

Və bu müşahidəçilərin süləndiyi ərazilərdən, məsələn, Basarkeçərdən Kəlbəcərdəki əsgərlərimiz fasiləsiz atəşə tutulur, amma sülənənlər görmür.

Və Ermənistan şivən qoparır ki, Azərbaycan ordusu Avropadan gələn müşahidəçiləri atəşə tutur. Müdafiə Nazirliyi də təkzib edir.

Ermənilər öz ərazilərindən bizim əsgərləri, yəni bizim əraziləri atəşə tutursa bizim də onların atəş nöqtələrini susdurmaq hüququmuz var. İstəyir arxalarında Makron yox, Kim Kardaşyan dursun.



## XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATINI ANLAMADIM



**Televizyonda XİN-in Qarabağdakı separatizmlə bağlı bir bəyanatını oxudular. Bəyanatı anlamağına anladım, amma orda qəribə bir cümlə vardı. Bildiyiniz kimi, separatçılar neçə vaxtdır Qarabağın ərazisində səngərlər qazır, istehkamlar qurur və Ermənistandan da silah-sursat daşıyırlar. Müraciətdə isə deyilir ki, Azərbaycan XİN-i Rusiya sülhməramlılarının nəzərinə çatdırıb ki, onlar bunun qarşısını almaq üçün Ermənistana müraciət etsin.**

Separatizmin qarşısını almaq, Qarabağı silahsızlaşdırmaq, Ermənistan silahlı qüvvələrinin Qarabağdan çıxarılması bilavasitə üçtərəfli Bəyannamədə (10 noyabr) Rusiya sülhməramlılarının vəzifə borcudur, bilavasitə borcudur. İndi biz kimdən kimə şikayət edirik?! Bax, mən bunu anlamadım. Özü də "Tarixi- Nadiri" də axıradək oxumuşam, Yunus Oğuzun "Nadir şah" romanını da iki dəfə oxumuşam, hələ hazırlaşıram üçüncü dəfə də oxuyum.

## *ERMƏNİLƏR ŞEYTANA PAPIŞ TİKİRLƏR VƏ TİKƏRLƏR*

**Yazıq şeytanın adı çıxıb. Dünyada hansı əclaflıqlar, namərdliklər baş verirsə yıxırlar şeytanın üstünə. İŞİD-i şeytanmı yaratdı? Ənvər Sadatı şeytanmı asdı? İraqı, Əfqanıstanı, Liviyanı şeytanmı dağıtdı? Rusiyayla Ukraynanı şeytanmı döyüşdürür?**

Dünyada şeytana papış tikənlər o qədər çoxalıb ki, yazıq şeytan baş götürüb qaçıb.

İndi də ermənilər şeytana papış tikirlər. Bir erməni Xankəndində tut arağından vurub yıxılıb ölüb, indi dünyaya car çəkirlər ki, guya acından ölüb. Özü də kartofun, kələmin, lobyanın, tərəvəzin bu bol vaxtı.

Yəqin Fransada matəm elan edəcəklər.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## ALLAH DA AKİF İSLAMZADƏYƏ QULAQ ASIR



*Akif İslamzadəyə qulaq asanda o dünyanı görüb gəlirəm. Və Akif İslamzadənin ilahi səsinin məni apardığı o dünya o qədər qeyri-adi, qələməgəlməz, təsvirəgəlməz və o qədər maraqlı bir dünyadır ki, elə hərdən bu dünyadan bezəndə (bu da tez-tez olur) Akifə qulaq asıb çıxıb gedirəm o dünyaya. Akifin səsi tutur qolumdan aparır o dünyada bir bulaq başına. Sonra əlini salır çəkir ürəyimi çıxarır,sıxır içində nə qədər zəhərlənmiş qan var hamısını axıdır, sonra bulağın gözündə təmiz-təmiz yuyur, qaytarıb qoyur sinəmə. Deyir, yazıqsan, get hələyaşa. Deyir, hələ yaşamağa dəyər bir az da. Deyir hələ Şuşaya gedəcəyik, bayraq sancacağıq, nə tələsirsən?*

*Eh, Akif İslamzadə, o nənəsi ölməli olan Sarı gəlinin nənəsinin günahı yox idi ey, özü maa gəlmədi. Sevdi məni, amma gəlmədi. Dedi, şairlər sevilmək üçündü, ərə getmək üçün deyil.Dedi, şairsən deyin gedib mən kirəkeş evlərdə canımı çürüdə bilmərəm. Dedim, ruhən varlıyam. Dedi, ruhunu yemək olmur, geymək olmur, içmək olmur, nə də ruhunun içində yaşamaq olmur. O ruhun, o sən, get kefini elə. Mən də o vaxtdan ruhumu götürüb kef eləyirəm. Heç indi onu qınamıram. Və hətta şeir də yazdım ki, lap Allahın özüylə də bu kirəkeş otaqlarda gül ömrünü çürütməyə dəyməzmiş. İndi şairləri sevib özgəsinə gedən qızları qınamıram, şairlər sevilmək üçündü. Məkkə torpağı tək öpülüb göz üstünə qoyulmaq üçündü. Elə Akif İslamzadə kimi.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

Zakir Fəxrini 15 sutka həbs edirlər. Kamera olanlardan biri soruşur ki, "səni nə üstə həbs ediblər?"

Zakir Fəxri:

**- Qu quşlarına çörək atdığıma görə.**

Kamera yoldaşı təəcüblə:

**- Quşlara çörək atmağa görə də adamı həbs edərlər?**

Zakir Fəxri:

**- Əşi mən Opera Balet teatrında "Qu gölü" baletindəki quşlara çörək atırdım.**

# İlham Əliyev sərhədçiləri təltif etdi



**Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları təltif edilib. Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.**

Sərəncamla Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ölkənin ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilirlər:

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Şirinzadə Firuz Böyükağa oğlu - general-leytenant
Mustafayev İlkin Aydın oğlu - polkovnik-leytenant
Səfərov Elvin Sərraf oğlu - polkovnik-leytenant
Quliyev Anar Sədi oğlu - kapitan

**2-ci dərəcəli "Rəşadət" ordeni ilə**

Yunisli Ziya Rauf oğlu - kapitan

**3-cü dərəcəli "Rəşadət" ordeni ilə**

Hüseynov Naseh İbrahim oğlu - polkovnik
Nağıyev Murad Tofiq oğlu - polkovnik

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

İbrahimov Elçin Zaur oğlu - general-leytenant
Abuzərli Natiq Zahid oğlu - general-mayor

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əliyev Rəsul Rasim oğlu - polkovnik
Nağıyev Məhəmməd Biladon oğlu - polkovnik
Rəhmanov Elşən Sabir oğlu - polkovnik
Abdullayev Anar Arif oğlu - polkovnik-leytenant
Səfiyev Mübariz Məhəmməd oğlu - mayor

**"Vətən uğrunda" medalı ilə**

Dünyamalıyev Ağamirzə Bəhman oğlu - polkovnik
Həbibov Elnur Arif oğlu - polkovnik
Mirzəyev Mirzə Adil oğlu - polkovnik
Baxşıyev Ravil Sabir oğlu - polkovnik-leytenant
Umudov Xəyyam Ehsan oğlu - 2-ci dərəcəli kapitan
Rzayev Emin Salam oğlu - kapitan

**"İgidliyə görə" medalı ilə**

Pirimov Ceyhun Ələkbər oğlu - tibb xidməti leytenantı

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Abbasov Aftandil Qabil oğlu - polkovnik-leytenant
Abdullayev Ruslan Mehman oğlu - polkovnik-leytenant
Əkbərov Yusif Mürsəl oğlu - polkovnik-leytenant
Əzimova Gülnar Bəhram qızı - polkovnik-leytenant
Quliyev Elməddin Çingiz oğlu - polkovnik-leytenant
Məmmədli Rəhman Bayram oğlu - polkovnik-leytenant
Nağıyev Yaşar Tofiq oğlu - polkovnik-leytenant
Sadıqov İsmayıl Rafael oğlu - polkovnik-leytenant
Əliyev Vəfadar Çingiz oğlu - mayor
Lazımzadə Azər Xudaverdi oğlu - mayor
Mirzəyev Elçin Cavanşir oğlu - mayor
Müslümov Elçin Qəşəm oğlu - mayor
Məmmədov Cavid Yusif oğlu - kapitan
Niftullayev Tural Calal oğlu - kapitan
Salahov Rəşad Maarif oğlu - kapitan
Səmədov Etibar İlqar oğlu - kapitan
Əliyev Əlizadə Eyyub oğlu - baş leytenant
Hüseynov Şamxal Əli oğlu - baş leytenant
Qarayev Toğrul Əhməd oğlu - baş leytenant
Quliyev Rəvan Əyar oğlu - baş leytenant
Nəcəfov Samir Əli oğlu - baş leytenant
Ramazanov Elvin Allahverdi oğlu - baş leytenant
Abdullayev Vüsal Fikrət oğlu - baş gizir
Cəlilova Dilşad Həsən qızı - baş gizir
Xanbutayeva Zabitə Firudin qızı - baş gizir
Mikayılova Şəlalə Elman qızı - baş gizir
İsaqzadə İlkin Yasin oğlu - gizir
Zeynalov Məqsəd Əsəd oğlu - kiçik gizir
Mənafov Emil Nazim oğlu - kiçik çavuş
Hüseynov Elnur Azər oğlu - əsgər
Hüseynov Ruslan Vidadi oğlu - əsgər
Novruzlu Nihad Elburus oğlu - əsgər.

# İlham Əliyevdən hərbi xidmətə çağırışla bağlı sərəncam

**Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, Sərəncama əsasən, 2005-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1988-2004-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2023-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2023-cü il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılırlar.

Nazirlər Kabinetinə bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görmək tapşırılıb.

# Ermənilərə BMT-də tort "qonaqlığı"

**Avqustun 16-da BMT Təhlükəsizlik Şurası ermənilərin yaşadığı Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın-Xankəndi yolunun guya ”bağlanmasından” sonra yaranmış ”humanitar böhranı”n müzakirəsi üçün təcili iclas keçirib.**

Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev iclasda çıxış edərək Ermənistanın davamlı dezinformasiyasından, beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün apardığı kampaniyadan danışıb, Azərbaycan dövlətinin bu məsələ ilə bağlı mövqeyi barədə məlumat verib.

Çıxışına Ermənistanın ölkəmizə qarşı təbliğ etdiyi ”blokada” və ya ”humanitar böhran” ilə bağlı bütün əsassız və sübutu olmayan iddiaları qətiyyətlə rədd edərək başlayan Y.Əliyev bildirib ki, Ermənistanın humanitar məsələ kimi təqdim etməyə çalışdığı əslində Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirmək üçün aparılan təxribat xarakterli və məsuliyyətsiz siyasi kampaniyadır.

Əgər Ermənistan yardım etmək istəyində səmimi olsaydı, bu, dərhal baş verərdi. Bu, həqiqətən də bu yaxınlarda - bir neçə gün əvvəl beynəlxalq aktorların, o cümlədən Təhlükəsizlik Şurasının bəzi üzvlərinin fəal iştirakı nəticəsində praktiki olaraq mümkün idi. Bu, təkcə Ermənistanın imtinası nəticəsində baş tutmadı.

Qeyd edilib ki, bir sıra intensiv məsləhətləşmələr və ”məkik diplomatiyası” səylərindən sonra, nəhayət, humanitar yüklərin müxtəlif marşrutlar vasitəsilə Qarabağ bölgəsinə çatdırılması, eləcə də mərkəzi hakimiyyətin xüsusi nümayəndələri ilə yerli erməni sakinləri arasında görüşün təşkilinə dair razılıq əldə olunmuşdu.

Birinci halda Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən humanitar yüklərin yerli sakinlərə çatdırılması üçün Ağdam-Xankəndi yolunda erməni tərəfinin quraşdırdığı beton bloklar və bütün digər fiziki maneələr aradan qaldırılmalı idi. Bunun ardınca 24 saat ərzində BQXK-nın Laçın yolundan istifadəsinin genişləndirilməsi nəzərdə tutulurdu. İştirak edən bütün tərəflər, o cümlədən Rusiya sülhməramlı kontingenti və BQXK bu razılığın praktiki olaraq bir saat ərzində həyata keçirilməsinə başlamağa hazır idi.

İkinci halda mərkəzi hakimiyyət nümayəndələri ilə yerli erməni sakinləri arasında görüşün Azərbaycanın yaxınlıqdakı Yevlax şəhərində keçirilməsi razılaşdırılmışdı.

Təəssüflər olsun ki, on gün əvvəl - avqustun 5-də Ermənistan qanunsuz qurulan rejimi vasitəsilə siyasi motivli və qeyri-qanuni ilkin şərtlər və müxtəlif bəhanələr irəli sürməklə hər iki razılaşmadan son anda geri çəkildi.

Şübhə yoxdur ki, vəziyyətdən çıxış yollarını tapmaq üçün Azərbaycanın Rusiya Federasiyası, ABŞ, Avropa İttifaqı və BQXK ilə sıx əməkdaşlıq etməsinə baxmayaraq, Ermənistan diplomatik səylərə qəsdən maneə törədir.

Bunun yalnız bir izahı var. Ermənistan məsələni həll etmək niyyətində deyil. Bunun əvəzində beynəlxalq səviyyədə manipulyasiya və çaşqınlıq səylərini davam etdirmək məqsədilə regionda gərginliyi süni şəkildə alovlandırır.

Avqustun 5-də BQXK vasitəsilə humanitar yüklərin çatdırılmasına dair razılaşmanın pozulması yeganə maneə deyil. Əslində bu, Ermənistanın Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə meydan oxumaqla və yerli etnik erməni sakinlərinin reinteqrasiyasına mane olmaqla bu humanitar təşkilatın ərazidə mövcudluğunu və fəaliyyətini siyasiləşdirməsinin, eləcə də humanitar məsələlərdən siyasi məqsədlər üçün istifadə etmək cəhdinin davamıdır.

Yaşar Əliyev çıxışında bəzi faktları iclas iştirakçılarının diqqətinə çatdıraraq deyib:”- 2020-ci ildə müharibə başa çatdıqdan dərhal sonra Azərbaycan yüklərin Qarabağ bölgəsinə çatdırılması üçün öz logistik imkanlarını və infrastrukturunu BQXK-ya təklif edib. 2021-ci ildə yüklər BQXK tərəfindən həmin əraziyə çatdırılmaq üçün Bərdəyə daşınıb. Erməni tərəfi yüklərdən imtina edərək BQXK-nın humanitar yardımın çatdırmasına mane olub.



- Laçın-Xankəndi yolunda ekofəalların etirazları başlayandan dərhal sonra Azərbaycan BQXK-dan yerli sakinlər üçün lazım olan malların siyahısını təqdim etməyi xahiş edib və onların çatdırılması üçün bütün maddi-texniki və infrastruktur dəstəyi göstərməyə hazır olduğunu bildirib. BQXK cavab verib ki, Ermənistan tərəfi Azərbaycan üzərindən hər hansı təchizat istəmir.

- Ermənistan BQXK-nın vasitəçiliyindən sui-istifadə etməklə Qarabağ bölgəsinə mikroçiplər kimi ikili təyinatlı texnologiyaları qaçaqmalçılıq yolu ilə keçirməyə cəhd göstərməklə, presendentsiz addım atıb. BQXK Komitənin humanitar mandatına və nüfuzuna ciddi zərbə vuran bu faktı etiraf etməyə məcbur olub.

- Ermənistan BQXK-nin Bakıda yerləşən beynəlxalq tibb işçilərinin Xankəndiyə göndərilməsini qəbul etməyib. Bu təklif BQXK-nin tibbi evakuasiyalarını asanlaşdırmaq və tibbi məsələlərin yerində həllinə kömək etmək çərçivəsində irəli sürülüb və Azərbaycan tərəfindən dəstəklənib.

”Laçın dəhlizi” adlanan yol Azərbaycanın suveren ərazisi daxilində, heç bir ekstraterritorial statusu olmayan, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, ilk növbədə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin daşınması üçün nəzərdə tutulmuş yoldur. Azərbaycan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərə sadiq qalaraq bu yolda hərəkətə icazə verib. Azərbaycan Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi təsis etdikdən sonra da bu olduğu kimi qalır.

Sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini qorumaq üzrə təməl hüququ çərçivəsində, Ermənistanın bu marşrutdan Azərbaycan ərazisində qeyri-qanuni dislokasiya olunmuş 10 minə yaxın hərbçinin rotasiyası, silah, sursat, mina və xarici terrorçuların daşınması, habelə bu ərazidən təbii sərvətlərin qanunsuz çıxarılması və daşınması kimi qeyri-qanuni hərbi və digər fəaliyyətlər üçün ardıcıl və açıq-aşkar sui-istifadə etməsinin qarşısını almaq məqsədilə yaradılıb.

Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli yekdil qərarı Ermənistanın nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbini rədd edərək, Ermənistanın ”Laçın” keçid məntəqəsinin qanunsuz olması ilə bağlı iddialarını qəti şəkildə təkzib edib.

Y.Əliyev sərhəd-buraxılış məntəqəsinin yaradılmasının mülki əhalinin Laçın yolu ilə gediş-gəlişinə mane olmadığını, 2023-cü il iyunun 15-dək bu cür hərəkətlərin sayının faktiki olaraq nəzərəçarpacaq dərəcədə artdığını diqqətə çatdıraraq deyib: ”Həmin tarixdə Ermənistanın davam edən təxribatının növbəti nümunəsi Ermənistan silahlı qüvvələrinin Azərbaycan sərhədçiləri və onları müşayiət edən Rusiya sülhməramlı qüvvələrinə hücumu zamanı baş verib. Bu hücum Azərbaycan sərhədçisinin ağır yaralanması ilə nəticələnib və eyni zamanda, BQXK-nın əməkdaşları və məntəqədən keçən mülki şəxslər üçün birbaşa təhlükə yaradıb. Bununla yanaşı, Ermənistan həqiqətən də bölgənin sadə sakinlərini düşünsəydi, heç vaxt Ağdam-Xankəndi yolundan Qarabağ bölgəsinə yüklərin çatdırılmasına etiraz etməzdi. Bu yol Azərbaycanın əsas nəqliyyat marşrutlarından birinə - ”İpək Yolu” və ya M2 avtomobil yolu kimi tanınan və beynəlxalq bazarlara etibarlı əlaqəni təmin edən magistral yolu ilə bağlıdır. Uzunluğu 59 kilometr olan, dağlıq və serpantinli ərazidən keçən Laçın-Xankəndi yolu ilə müqayisədə bu yol Ağdamla Xankəndi arasında cəmi 18 kilometrdir. Bu gün Ağdama səfərləri çərçivəsində Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun, o cümlədən BMT-nin Rezident Əlaqələndirici Ofisinin və BMT-nin digər qurumlarının nümayəndələri də yolun işləkliyinə və yüklərin daşınması üçün hazırlığına şahid olmaq imkanı əldə ediblər”.

Humanitar bəhanələrlə edilən bu cür manipulyasiyalar artan qanunsuz və təxribat xarakterli hərbi fəaliyyətlərlə eyni zamanda baş



verir. Ötən həftələr ərzində beynəlxalq hüququn, o cümlədən Azərbaycan, Rusiya Federasiyası və Ermənistan liderlərinin 10 noyabr tarixli üçtərəfli Bəyanatının 4-cü bəndi çərçivəsində Ermənistanın öhdəliyinin kobud pozuntusu olaraq, Azərbaycan ərazisində qeyri-qanuni qalan erməni silahlı qüvvələri hərbi-mühəndislik işlərini və digər hərbiləşmə işlərini daha da artırıb. Ermənistan rəhbərliyinin Azərbaycanın, Qarabağ regionu daxil olmaqla, suverenliyinin və ərazi bütövlüyünün tanınması ilə əlaqədar şifahi bəyanatları sülhün həqiqətən də əlçatan olması ilə bağlı ehtiyatlı nikbinliyə zəmin yaratdı. İndi Ermənistan bu bəyanatı real əmələ çevirməli və Azərbaycanın suverenliyini, o cümlədən Qarabağda yaşayan yerli erməni sakinlərinin ”humanitar ehtiyacları” bəhanəsi ilə şübhə altına almaqdan çəkinməlidir.

Son bir neçə ay ərzində beynəlxalq tərəfdaşların fəal iştirakı ilə normallaşma prosesinin intensivləşdirilməsi üzrə birgə səylər ümidverici nəticələr verib. Bu diplomatik dialoqlar davamlı sülhün və dövlətlərarası münasibətlərin qurulmasına yönəlmiş gələcək ikitərəfli sazişin bir sıra maddələri üzrə fikir ayrılıqlarının aradan qaldırılmasında və nəzərəçarpacaq irəliləyişin əldə edilməsində həlledici rol oynayıb”.

”Azərbaycan Qarabağ bölgəsinin etnik erməni sakinlərinin bərabərhüquqlu vətəndaşlar kimi reinteqrasiyası siyasətini həyata keçirir və Azərbaycan Konstitusiyasında və Azərbaycanın imza atdığı bütün müvafiq beynəlxalq insan hüquqları mexanizmlərində nəzərdə tutulmuş bütün hüquq və azadlıqlara zəmanət verir. BMT Nizamnaməsində və beynəlxalq hüquqda təsbit olunmuş bütün qanuni vasitələrlə suverenliyimizi və ərazi bütövlüyümüzü müdafiə etmək əzmində olduğumuz kimi, qeyd edilən hər iki yola sadiqliyimiz sarsılmazdır.Əminik ki, beynəlxalq ictimaiyyət və ilk növbədə, Təhlükəsizlik Şurası bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət edilməsi yolu ilə hər iki ölkənin legitim maraqlarına uyğun olaraq, bərabər və qarşılıqlı hörmətə əsaslanan bu yanaşmanı dəstəkləyəcək”, - deyə Y.Əliyev bildirib.

”Mənim BMT-nin Ali Məclisinə təqdim etmək istədiyim başqa bir məsələ də var” deyən Y.Əliyev bildirib ki, sosial şəbəkələr yerli ermənilərin müxtəlif yubileyləri, toyları, ad günlərini və digər xoş hadisələri qeyd edən müxtəlif videolarla doludur. ”Bu videolar onların orada aclıq çəkmələri və humanitar böhrandan əziyyət çəkmələri barədə deyilənləri qəti şəkildə təkzib edir. Mən ərazimizdəki etnik erməniləri nəzərdə tuturam. Gördüyünüz kimi, insanlar xoşbəxtdirlər, toylarda rəqs edirlər, ad günlərini qeyd edirlər. Budur çox dadlı tort və sair. Bu məlumatı mənim sağımda oturan həmkarımla bölüşməkdən məmnunam”- deyərək bu görüntüləri özündə əks etdirən fotoşəkilləri erməni həmkarına təqdim edib.

”Mayın əvvəlində ABŞ-də baş tutan sülh danışıqlarından sonra Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinin aktivləşməsini alqışlayırıq”- deyən Albaniyanın BMT-dəki daimi nümayəndəsi Fərid Xoca isə bildirib ki, ”Azərbaycan və Ermənistan liderləri 1991-ci il tarixli Almatı bəyannaməsinə sadiqliyini bir daha təsdiqləyiblər. Tərəflərin qonşuların suverenliyi, ərazi bütövlüyünə hörmət etməsi, mübahisələrin dinc yolla həllinə hazırlıqlı olması çox vacibdir. Hər iki tərəfin kompleksli sülh müqaviləsinə nail olmaq üçün uzunmüddətli danışıqlar planına sadiqliyini alqışlayırıq”.

Diplomatın sözlərinə görə, söhbət humanitar məsələdən gedirsə, digər variantların, xüsusən Xankəndi-Ağdam yolunun istifadəsi variantının nəzərdən keçirilməsi vacibdir: ”Humanitar tələbatlar siyasiləşdirilməməli və digər məsələlərin çözümü üçün sui-istifadə olunmamalıdır. Humanitar tələbatlar hər yerdə, həmçinin Qarabağ regionunda təmin olunmalıdır... Fikrimizcə, söhbət humanitar məsələdən gedirsə, mümkün olan hər şeyi, bütün variantları nəzərdən keçirmək lazımdır. Bura digər yollar, həmçinin təklif olunan Xankəndi - Ağdam yolu da daxildir”.

”Regionda sabitlik və təhlükəsizlikdə bilavəsitə maraqlı olan ölkə kimi, həmçinin təşəbbüslərdə aktiv iştirak edən Türkiyə Ermənistanın BMT Təhlükəsizlik Şurası kimi beynəlxalq meydandan Laçın dəhlizi mövzusu daxil olmaqla siyasi motivli ittihamları bəyan etmək üçün istifadə cəhdlərindən narahatdır”. Bu fikirləri isə Türkiyənin BMT-dəki daimi nümayəndəsi Sədat Önal bildirib. S.Önal bildirib ki, ”Problemi kontekstə uyğun həll etməliyik. İlk növbədə, Azərbaycanın qanuni maraqlarını nəzərə almaq lazımdır. Həmçinin Azərbaycanın suverenlik hüququna hörmət etmək lazımdır. Azərbaycan artıq Laçın dəhlizi, Laçın yolunun sui-istifadəsindən, o cümlədən qanunsuz silahlı birləşmələrin, silah-sursatın, piyada əleyhinə minaların daşınmasından narahatlığını bildirib. Lakin Azərbaycanın bu narahatlıqlar nəzərə alınmayıb”.

**Nicat Novruzoğlu**

# Hərbi ekspert: "Ermənilər istəyir ki, Azərbaycan Ordusu onlara zərbə endirsin..."

**”Müharibə təhlükəsi həmişə var. Amma hal-hazırda real genişmiqyaslı müharibəyə ermənilər hazır deyillər. Onlar uduzacaqlarını bilirlər”**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Azad İsazadə deyib. Hərbi ekspert bu təxribatlarla ermənilərin bizə təzyiq göstərmək niyyətində olduqlarını bildirib: ”Amma belə təxribatlarla bağlanacaq sülh müqaviləsinin şərtlərini bir az öz xeyirlərinə çevirmək istəyirlər. Bu təxribatlarla hardasa bizə qarşı təzyiq göstərirlər. Digər tərəfdən istəyirlər ki, Azərbaycan Ordusu onlara zərbə endirsin və ermənilər də hay-küy salıb desin ki, azərbaycanlılar erməniləri qırırlar. Bu isə hələ davam edəcək. Sabah sülh müqaviləsi bağlansa da, bu rəsmi İrəvanla bağlanacaq. Amma hansısa revanşist, təxribatçı qruplaşmalar bu təxribatları davam edə bilər”.



Qeyd edək ki, Müdafiə Nazirliyinin yaydığı məlumata görə Avqustun 16-da saat 11:15 radələrində Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu terror-təxribat əməliyyatları həyata keçirmək məqsədilə Ordumuzun Kəlbəcər rayonu İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən döyüş mövqelərinin arasındakı boşluqlardan istifadə edərək Azərbaycan ərazisinə sızmağa cəhd edib. ”Bölmələrimizin sayıqlığı nəticəsində atəş vasitələrimizin dəstəyi ilə erməni hərbçilərin təxribatının qarşısı alınıb. Nəticədə diversiya qrupunun bir üzvü yaralanmış vəziyyətdə hərbi qulluqçularımız tərəfindən saxlanılıb. Kəşfiyyat-diversiya qrupunun digər üvləri geri çəkilməyə məcbur edilib.

Hazırda qrupun saxlanılan üzvü haqqında məlumatlar dəqiqləşdirilir. İctimaiyyətə əlavə məlumat veriləcək”.

**Vasif Əlihüseyn**

*Aqil ABBAS*

# ALLAH DA AKİF İSLAMZADƏYƏ QULAQ ASIR

***Akif İslamzadəyə qulaq asanda o dünyanı görüb gəlirəm. Və Akif İslamzadənin ilahi səsinin məni apardığı o dünya o qədər qeyri-adi, qələməgəlməz, təsvirəgəlməz və o qədər maraqlı bir dünyadır ki, elə hərdən bu dünyadan bezəndə (bu da tez-tez olur) Akifə qulaq asıb çıxıb gedirəm o dünyaya. Akifin səsi tutur qolumdan aparır o dünyada bir bulaq başına. Sonra əlini salır çəkir ürəyimi çıxarır,sıxır içində nə qədər zəhərlənmiş qan var hamısını axıdır, sonra bulağın gözündə təmiz-təmiz yuyur, qaytarıb qoyur sinəmə. Deyir, yazıqsan, get hələyaşa. Deyir, hələ yaşamağa dəyər bir az da. Deyir hələ Şuşaya gedəcəyik, bayraq sancacağıq, nə tələsirsən?***

***Eh, Akif İslamzadə, o nənəsi ölməli olan Sarı gəlinin nənəsinin günahı yox idi ey, özü maa gəlmədi. Sevdi məni, amma gəlmədi. Dedi, şairlər sevilmək üçündü, ərə getmək üçün deyil.Dedi, şairsən deyin gedib mən kirəkeş evlərdə canımı çürüdə bilmərəm. Dedim, ruhən varlıyam. Dedi, ruhunu yemək olmur, geymək olmur, içmək olmur, nə də ruhunun içində yaşamaq olmur. O ruhun, o sən, get kefini elə. Mən də o vaxtdan ruhumu götürüb kef eləyirəm. Heç indi onu qınamıram. Və hətta şeir də yazdım ki, lap Allahın özüylə də bu kirəkeş otaqlarda gül ömrünü çürütməyə dəyməzmiş. İndi şairləri sevib özgəsinə gedən qızları qınamıram, şairlər sevilmək üçündü. Məkkə torpağı tək öpülüb göz üstünə qoyulmaq üçündü. Elə Akif İslamzadə kimi.***

***Məni sevib***
***özgəsinə gedən qız,***
***Heç nənən də ölməsin!***

***Akif İslamzadə, neçə illərdi ha istəyirəm sənin səsindən, səsiyin məni apardığı dünyadan nə isə yazım, yaza bilmirəm. Gücüm çatmır. Bəlkə də gücüm çatar ey, amma "burası Şuşa olmayan" dünya qoymur. "Burası Şuşa olmayan" dünyada o qədər dərd, kədər, ağrı, xəyanət, çirkab. Hansı ilə mübarizə aparasan? Ramiz Rövşən demiş:***

***Bilsək dünyaya gəlməzdik,***
***Analar aldatdı bizi.***

***Hər halda bizi aldadıb bu dünyaya gətirən ananın günahı bağışlanandır. Bəs bizi aldada-aldada öldürənlərin günahını hara yazaq? Bəs bizi çərlədə-çərlədə öldürənlərin günahını hara yazaq? Deyirəm, nə yaxşı sən varsan ey, Səttar Bəhlulzadə var, Füzuli var, Üzeyir bəy var, Qara Qarayev var, Bəxtiyar Vahabzadə var, dünyada Sara Qədimova qədər ilahi səsi olan başqa bir sənətkar tanımayan Məmməd Araz var, Alim Qasımov var, Qədir Rüstəmov var... Yoxsa çoxdan bezin qırağını qatlamışdıq. Deyirlər Allahın bizə yazığı gəlmir. Yalan sözdü, Allahın bizlərə yazığı gəlməsəydi, sizləri öz məkanından hərənizə bir 60, 70, 80 il, bəzən lap 25 il ömür verib bu dünyaya göndərməzdi.***

***Allah bu dünyanı təmiz yaratmışdı. Sonra murdarlandı, çirkaba batdı. 124 min peyğəmbər göndərdi dünyanı çirkabdan təmizləmək üçün. Və sizləri göndərdi. Və sizlər də olmasa, bu dünya Zimbabveyə dönər. Allahın bizlərə yazığı gəldiyindən sizlərin əlinizlə qoymur dünyanı Zimbabveyə dönməyə. Şükür, ilahinin qüdrətinə!***

***Hacı Arif bir toydaymış. Biri babat vurandan sonra gəlir durur Hacının qarşısında, deyir, məni tanımadın? Deyir, tanımadım. Necə ola bilər ki, məni tanımadın? Tanımadım də, qardaş. Axı, niyə tanımadın, yadına düşür 72-ci ildə Gədəbəydə Məmmədin toyunda sən oxuyurdun, mən də bəyin sağdışıydım. Hacı gülüb deyir:***

***- Bağışla, qardaş, mənim səhvim, böyük günahım, səni tanımadım.***

***İndi o Gədəbəydəki dostumuzun sözü olmasın, yadından çıxmayıbsa, 1981-ci ildə mənim toyumu da sən eləmişdin. Mən Qədiri istəyirdim, Məmməd Araz səni. Qorxdum, razılaşdım. Dedim birdən qızı verməz.***

***Akif İslamzadə, o ilahi səsiyin xeyir-duası19 ildi üstümdədi. O ilahi səsiyin xeyir-duasıdı ailə xoşbəxtliyim.***

***Akif İslamzadə, sənin səsin batmayıb. Sənin səsin Allaha o qədər xoş gəldi ki, götürüb apardı öz məkanına. Allahın da dərdi var, nə olar Allah olanda. Biz bəndələri Allaha dərd yaradır. Və onda sənin səsinə qulaq asır.Və bu dünyada heç kim bilmir ki, Akif İslamzadənin səsi olmasa, Allah bir gün əsəbiləşib dünyanı Zimbabveyə döndərər.***

***Akif İslamzadə, Qaçay Köçərli Qədir Rüstəmova deyir ki, səsini yaramın üstünə bağlayım. Şair qardaşımız Vətən yolunda qeyrətlə vuruşub qeyrətlə şəhid olan balasının təsəllisini Qədirin səsində tapır. Sizlərin səsinizi yaramızın üstünə bağlayırıq, Akif İslamzadə!***

***Cavanlıqda Səttar Bəhlulzadənin əsərlərinə baxandan sonra demişdim ki, bu əsərlər gözlə görünən musiqidi. Mən o əsərləri görmürəm, eşidirəm, hər rəngin, hər çaların səsini eşidirəm. Özü də vallah, dəli-filan deyiləm. Akif İslamzadə, mən sənin səsini eşitmirəm, görürəm. Min bir rəng görürəm sənin səsində, belə qaynayır. Amma su kimi qaynamır ey, od kimi qaynayır, dağın başında vulkan qaynayıb od püskürür ha, bax elə. Sonra bu od axır, belə çay kimi, vulkanın lavaları kimi. Vulkanın lavaları qarşısına nə keçsə, hamısını yandırıb kül eləyir, məhv eləyir. Sənin səsindən axan o od içimizdəki pislikləri məhv eləyir, fərqi budu.***

***Mən sənin səsini eşitmirəm (bağışla "sən" deyə müraciət edirəm), görürəm. Daşaltı çayında üzən pırıl-pırıl balıqlar kimi görürəm, Gülablı meşələrindəki bənövşələr kimi görürəm, Kirsin başındakı duman kimi görürəm. Qurban ola bilmədiyimiz Laçın kimi görürəm. Dəli dağda bir gündə beş dəfə açılıb-tutulan göy üzü kimi görürəm. Bəlkə də heç kəs inanmayacaq, durub "Quran"a and içəsi deyiləm ki!***

***Akif İslamzadə, çox istəyirəm sənin gördüyüm səsindən nə isə yazam, amma yuxarıda dediyim kimi, hələ yaza bilmirəm. Günlərin bir günü yazacam.***

***Dilxor olma, Akif İslamzadə, dilxor olma səsinin batmağına.Səsin Allahın məkanındadı. Və Allahı bəndələrinin dərdi götürəndə sənin səsinə qulaq asır. Günlərin bir günü sən də gedəcəksən Allahın məkanına (Allahın məkanına yalnız o məkandan Yer üzünə göndərilənlər qayıdır) və onda görəcəksən ki, səsin orda -Allahın yanındadı. Çox istərdim mən də Allahın məkanına gedəm, neçə ildi həsrətini çəkdiyim səsini görəm. Amma kimdi məni ora buraxan?***

***Mənimki uzaqbaşı Ağdamın Qarağacı qəbiristanlığıdı.***

***Sonda. Akif bəy, sizi ad gününüz münasibətilə öz adımdan və qəzetimizin oxucuları adından təbrik edirəm və sizə Allahın məsləhət bildiyi qədər ömür arzulayıram.***

***Avqust, 2000-ci il***

*(Ardı 3-cü səhifədə)*

# “Şuşada aşkar edilən məzarlıqlar düşünürəm ki, o əsirlərə aiddir”

**”Bizim Birinci Qarabağ savaşında girov götürülən dörd min nəfər əsirimiz var. Onlardan indiyə qədər də xəbər yoxdur. Bu gün Şuşada aşkar edilən məzarlıqlar düşünürəm ki, o əsirlərə aiddir”**

Bunu Adalet.az-a açıqlamasında Birinci Qarabağ müharibəsi veteranı, Şuşa sakini Şunası Babayev deyib. Ş.Babayev hazırda ailəsiylə birlikdə Şuşada olduqlarını bildirib: ”O əsirləri ermənilər Şuşa həbsxanasında saxlayıblar, evlərində işlədiblər, olmazın işgəncələrini veriblər. Həmin əsirlər xəstəlikdən, onlara verilən işgəncələrdən vəfat ediblər və həmin ərazilərdə də dəfn ediliblər. İndi torpaqlarımız işğaldan azad edildikdən sonra həmin o kütləvi məzarlıqlar aşkar edilir. Bir sözlə, ermənilərin soyqırımları təkcə Xocalı faciəsiylə bitmir. Hazırda ailəmlə Şuşadayam, artıq dördüncü dəfədir ki, bura səfər edirəm. Çox xoşbəxtdik ki, Allah bu günləri bizə nəsib etdi. Buna görə Ali Baş Komandana, şəhidlərimizə, qazilərimizə sonsuz minnətdarıq. Arzu edirəm ki, bir də Allah bizə belə ağrı yaşatmasın”. Qeyd edək ki, Şuşada kütləvi məzarlıq aşkar edilib.

**Vasif Əlihüseyn**



*Hidayət Elvüsal*

# MUZDLU MÜLKİ ƏSGƏRLƏR

***Adını çəkmək istəmədiyim, uzun müddət xarici radioların birində Azərbaycan proqramının əməkdaşından soruşdum:***

***- Belə bir radiosunda çalışdığınız ölkə sizə necə baxır, necə qiymətləndirir?***

***Həmyerlimiz xeyli fikirləşdi və dedi:***

***- Onlar bizə özlərinin muzdlu mülki əsgərləri kimi baxırlar.***

***Bu sözləri söyləyən elə-belə adam deyil. Əksər qələm sahiblərinin tanıdığı bir şəxsdir.***

***Bunu niyə indi xatırlatdım?***

***Özgə bir dövlətin muzdlu, mülki əsgərinin Azərbaycanın böyük sənət adamına verdiyi təxribatçı suallara görə. Qərbdəki ağalarının qabağında çöməlib, bizim qarşımızda özünü uyduran, geydirmə adı belə bu millətə yad olan bir parodaya görə.***

***Küyə getməyək. Bir qədər səbrli, diqqətli olaq.***

***Çox hadisələrin şahidi olacağıq.***



*Aqşin Yenisey*

# Daş atmaq Davuddan qalıb

**Yəhudilərin "Tanax"ından (Əhdi-Ətiq) Qurana keçən "Davud və Qalut" (Qolyat da deyilir) bir əfsanə var. Eyni kökdən gələn fələstinlilərlə israiloğulları bir gün vuruşmalı olur. İki qoşun üzə-üzə dayanır.**

**Fələstinlilərin içindən boyu dörd metr olan Qalut adlı bir peşəkar döyüşçü çıxıb israiloğullarına bağırır ki, aranızda bir kişi varsa, gəlsin döyüşək. Mən ölsəm, biz sizin köləniz olacağıq, sizin igid ölsə, siz bizim köləmiz olacaqsınız.**

**Qırx gün israiloğullarından səs çıxmır. Nəhəng Qalut meydanda hər gün bağırsa da, israiloğullarından kimsə onun qabağına çıxmağa cəsarət etmir.**

**Axırda əsgərlərə yemək daşıyan bapbalaca Davud adlı biri deyir ki, mən bu pəzəvəngi yenərəm. İsrailoğulları buna çox deyir, bu az eşidir. Nəhayət, cırtdan Davud meydana çıxır.**

**Peşəkar əsgər olan Qalut baxır ki, üstünə balaca, silahsız bir uşaq gəlir. Fikir vermir. Davud da sapandına bir daş qoyub atır. Daş dəyir Qalutun başına və Qalut yıxılır. Davud tez qaçıb onun başını kəsir.**

**Bu Davud sonradan İsrailoğullarının məşhur kralı olan Davuddur.**

**Mifin mənası bütün böyük, güclü şəxsiyyətlərin mütləq bir zəif yerinin olması ilə bağlıdır.**

**Balaca adamlar onları məhv etmək üçün mütləq o zəif yeri tapıb, ordan hücum etməlidirlər.**

**Keçən əsrin əvvəlində bolşeviklər Azərbaycanın Qalutlarını yox etdilər, meydanı bolşevik Davudlara verdilər. Şəxsiyyəti yoxetmə ənənəsi formalaşdı. Və günlərin birində bu bolşevik ənənənin əlinə söz və fikir azadlığı kimi daha məsuliyyətsiz bir meydan düşdü. Rusların özləri üçün yaratdıqları "sosial mücahidlər" bu gün ya pulunu alıb fərqli maraqlara xidmət edirlər, ya da başıozuq halda sosial şəbəkələrdə dolaşaraq daşlamağa adam axtarırlar.**

**Mən buna görə Azərbaycana idxal olunan demokratiyanın bolşevizmə xidmət etdiyini yazmaqdan çəkinmirəm.**

**Hər dəfə bunu yazanda da Yaponiya və Cənubi Koreya sualı düşür biletimə.**

**Yaponlar təslim olduqlarına qol çəkdikləri Missuri gəmisində öhdəlik götürdülər ki, orduya ayırdıqları pulu təhsilə ayıracaqlar. Gəmidən çıxıb bütün təhslili Qərb modeli üzərində qurdular. Eləcə də, Cənubi Koreya, Sinaqapur, Malaziya və s.**

**Yəni bu ölkələrdə demokratiya gücünü siyasi hakimiyyətdən almır, Qərb təhsil modelindən alır.**

**O modeli apar universiteti olmayan Ərəbistanda tətbiq et, iyirmi-otuz ildən sonra ərəblər dünyanın ən demokratik xalqı olmasalar, sənə qoşulub ələm uçurmasam adam deyiləm.**

**Azadlıq anlayışı cəmiyyətə universitetdən gəlmirsə, onun bolşevizmdən, mücahidlikdən heç bir fərqi yoxdur. Cəmiyyətin, ən azı, otuz faizi universitet mühitində yetişməyibsə, orada demokratiya insanın ən yırtıcı sifətlərinin inkişafına xidmət edəcək. Bu aksiomadır. Univesitet dedikdə, mən, Ərəbistanda sizə görə var olan universiteti nəzərdə tutmuram, ondan bizdə əlli dənəsi var...**

## *"Əsgərimizin sağlamlığına təhdid yaradan düşmən fəaliyyətlərinə qarşı..."*

**"İlk dəfə deyil ki, Qarabağdakı erməni separatçıları mülki əhalini silahlandırırlar. Biz bu hallarla daha əvvəllər də rastlaşmışıq. Hətta onların arasında azyaşlı uşaqların da yer aldığı hamıya məlumdur"**



Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Hərbi ekspert Azərbaycan Ordusunun artıq adekvat addımlar atmaq məcburiyyətində qaldığını bildirib:

"Görünən odur ki, Qarabağdakı separatçı qurum və həm də həmin ərazilərdən erməni silahlılarını çıxarmalı olan Rusiya kontingenti, Azərbaycanın rəsmi orqanları tərəfindən səsləndirilən bəyanatları ciddiyə almır. Belə olan halda Azərbaycan tərəfi əsgərimizin sağlamlığına təhdid yaradan düşmən fəaliyyətlərinə qarşı daha təsirli və adekvat addımlar atmaq məcburiyyətindədir. Mülki əhalinin döyüşlərə cəlb olunması isə əməliyyatlar zamanı onların arasında itkilərə gətirib çıxara bilər və bu itkilərə görə məsuliyyət tamamilə separatçı rejimin və Rusiya kontingentinin üzərinə düşür".

**Vasif Əlihüseyn**

## *MİT İraqda yeni əməliyyat keçirdi - PKK-nın "rəhbər şəxsi" məhv edildi*



**Türkiyə Milli Kəşfiyyat İdarəsi (MİT) İraqın Qara bölgəsində yeni əməliyyat keçirib.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə KİV-i məlumat yayıb. Bildirilib ki, əməliyyat nəticəsində PKK/KCK terror təşkilatının "rəhbər şəxsi" Cəlal Birdar məhv edilib.

Onun "mətbuat və arxiv işləri üzrə rəhbər şəxs" olduğu bildirilir.

# DTX xüsusi əməliyyat keçirdi

**Azərbaycan vətəndaşlığından məhrum edilən terrorçu Zülfüqarov Kamran Azər oğlu qeyri-leqal yolla ölkə ərazisinə keçib.**

Adalet.az xəbər verir ki, terrorçunun Azərbaycanda olması barədə məlumatlar Dövlət Təhlükəsizliyi Xidmətinin apardığı araşdırmalar nəticəsində yoxlanılaraq öz təsdiqini tapıb və gizləndiyi yer müəyyən edildikdən sonra həmin şəxs saxlanılıb.

Kamran Zülfüqarov barəsində aparılan cinayət işi üzrə Cinayət Məcəlləsinin 12.1, 279.1-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə) və digər maddələri ilə məsuliyyətə cəlb olunaraq məhkəmənin qərarı ilə həbs edilib.

İstintaq-əməliyyat tədbirləri nəticəsində Kamran Zülfüqarovun Suriya ərazisində İŞİD-in xüsusi hazırlıq düşərgəsində təlimlər keçərək, odlu silah və partlayıcı maddələrdən istifadə qaydalarını mənimsədiyi məlum olub. Kamran Züflüqarov dini radikalizm və dini düşmənçilik zəminində Suriyanın Haritan şəhərində "Xalid dayı" dini ləqəbli Bədəlov Rövşən Kitab oğlunun rəhbərlik etdiyi, bilavasitə kəş-



fiyyat aparan və terror hücumları törədən qanunsuz silahlı qruplaşmanın tərkibində döyüşlərdə və silahlı münaqişələrdə iştirakına dair dəlillər əldə edilib.

Kamran Zülfüqarov İŞİD-in tərkibində olduğu vaxt törətdikləri cinayətlərdən də danışıb.

Kamran Zülfüqarovun daxil olduğu cinayətkar dəstənin üzvlərinin öz şəxsiyyətlərini gizli saxlamaqla əks tərəfdə vahimə yaratmaq üçün ələ keçirdikləri şəxslərin başlarını kəsərək nümayiş etdirmələri və xüsusi qəddarlıqla törətdikləri digər əməllər barədə də sübutlar toplanıb.

Kamran Zülfüqarov istintaqa verdiyi ifadə zamanı Suriyadan qaçmağının təfərrüatlarını da danışıb. O, qanunsuz silahlı qruplaşmaya qoşulmağından və törətdiyi əməllərdən peşman olduğunu bildirib.

Qeyd edək ki, 14 dekabr 1983-cü ildə Salyan rayonunda anadan olan, Azərbaycan vətəndaşı Kamran Zülfüqarov 2013-cü ildə ölkə ərazisini tərk edərək Suriyada aparılan silahlı münaqişələrdə və terror əməllərinin törədilməsində iştirak edib. Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən toplanılmış materiallar əsasında və müvafiq qanunvericiliyə uyğun qaydada təhlükəli terrorçu kimi 2018-ci ildə məhkəmə qərarı ilə Azərbaycan vətəndaşlığından məhrum edilib, ölkəyə girişi qadağan olunmaqla Azərbaycana qayıtmaq hüququnu itirib.

# Azərbaycanda karantin tətbiq olunacaq?

**Bu ilin fevral ayında ilk dəfə aşkarlanmış koronavirusun omikron ştamının yeni alt tipi EG.5 ÜST tərəfindən maraq kəsb edən variant kimi dəyərləndirilib. Hazırda bu statusda olan daha iki variantdan XBB.1.5-in yayılma sayı azalmaqda, digəri isə XBB.1.16-nın səviyyəsi stabil qalmaqdadır.**



Adalet.az xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov deyib.

O bildirib ki, dünya əhalisinin əksər hissəsinin peyvənd olunması və infeksiyanın keçirməsi nəticəsində yaranan immunitet bu və ya digər dərəcədə onları qoruyur: "Virusun yeni ştamlarının əmələ gəlməsi onun mutasiyaları ilə əlaqədardır. Bu da təbii bir prosesdir və virusun təkamülünün bir mərhələsidir. Təcrübə göstərir ki, ən yeni ştam əvvəlkini yoluxdurma qabiliyyətinə və bununla bağlı yayılma sürətinə görə üstələsə də, ağır xəstəlik törətməsi qabiliyyəti xeyli zəifləyir. Omikronun EG.5 variantına maraq məhz son dövrdə bu ştam ilə yoluxma hallarının sayında olan artımlardır. Belə hal hələ ki, əsasən ABŞ, Avropada və Sakit Okeanın qərb hissəsində müşahidə olunur. ÜST rəsmiləri tərəfindən bu tendensiyanın davam edəcəyi və payızda pik həddinə çatacağı və onun dominant ştama çevriləcəyi proqnozlaşdırılır. Bununla yanaşı bildirilir ki, ümumi təhlükə səviyyəsi kiçikdir. Belə ki, bəzi ölkələrdə koronavirus səbəbindən hospitalizasiya hallarında cüzi artımlar olsa da, intensiv terapiya bölmələrində belə artımlar qeyd olunmur. Həmçinin COVID-19-dan ölüm halları azalmaqda davam edir. Beləliklə, yeni ştamın daha ağır xəstəliyə səbəb olmasının heç bir sübutu yoxdur. Daha geniş miqyaslı tədqiqatlarda EG.5 ştamının klinik nəticələrə təsirini öyrənmək tələb olunur. ÜST tərəfindən tövsiyə olunur ki, dövlətlər bu məsələdə sayıqlığı əldən verməməli, infeksiyanın artımları olan ərazilərdə əhalinin sıxlığı müşahidə edilən qapalı məkanlarda insanların maskadan istifadə etməsi, risk qrupuna daxil olan şəxslərin isə 4-cü buster doza ilə vaksin olunması məqsədəuyğundur. Lakin xüsusi, daha sərt karantin tədbirlərinin tətbiqinə ehtiyac yoxdur.

Onu da qeyd edək ki, Azərbaycanda bu məsələ Səhiyyə Nazirliyi və digər aidiyyatlı dövlət qurumlarının daim diqqət mərkəzindədir. Ölkəmizdəki mövcud testlər koronavirusu növündən asılı olmayaraq aşkarlamağa imkan verir. Operativ Qərargahın statistik məlumatlarına əsasən, hazırda epidemioloji vəziyyət stabil qalmaqdadır, infeksiyanın yayılma səviyyəsi çox aşağıdır".

# Baş Prokurorluq və DGK-dan birgə əməliyyat: Vəzifəli şəxslər rüşvət alarkən yaxalandılar

**Gömrük rəsmiləşdirilməsi müqabilində rüşvət almaqda təqsirləndirilən vəzifəli şəxslər həbs edilib.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycanın Baş Prokurorluğu və Dövlət Gömrük Komitəsinin birgə məlumatında bildirilib.

Belə ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Dövlət Gömrük Komitəsi tərəfindən birgə keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə ölkəyə idxal edilmiş məhsulların gömrük rəsmiləşdirilməsi prosesində süni maneələr yaradaraq sonradan gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsi müqabilində vətəndaşdan rüşvət alan bir qrup vəzifəli şəxs cinayət başında yaxalanıb.

DGK-nın Bakı Baş Gömrük İdarəsinin Gömrük dəyərləndirilməsi şöbəsinin inspektoru Məzahir İsmayılovun qeyd edilən qanunsuz əməllərin törədilməsi üçün ona vasitəçilik edən ƏƏSMN-in tabeliyindəki Sosial Xidmətlər Agentliyinin Quba-Xaçmaz Regional filialının müdiri Elşan Abdullayev və "ƏR TRANSPORT" MMC-nin faktiki rəhbəri Ədalət Quliyevlə əlbir olub vətəndaşa məxsus şirkətin hesabına idxal edilmiş avtomobil ehtiyyat hissələrinin gömrük



rəsmiləşdirilməsində süründürməçilik hallarına yol verməsi, daha sonra səthi baxış keçirməklə malların gömrük nəzarətindən sürətli şəkildə buraxılmasına görə həmin şəxsdən 8 min manat məbləğində rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

Qeyd edilən vəzifəli şəxslərin xidməti otaqlarında aparılmış axtarışlar zamanı iş üçün əhəmiyyət kəsb edən sübutlar aşkar edilərək götürülmüşdür.

Göstərilən faktlar üzrə başlanmış cinayət işi üzrə Məzahir İsmayılov Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.3 (külli miqdarda rüşvət alma), Elşan Abdullayev və Ədalət Quliyev isə 32.5, 308.2, 32.5, 311.3.3-cü (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə və külli miqdarda rüşvət almaqda köməkçilik) maddələrilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilib.

İş üzrə tam, hərtərəfli və obyektiv istintaq aparılmaqla təqsirli şəxslərin dairəsinin müəyyən edilərək məsuliyyətə cəlb olunması təmin ediləcək.

# «Antiterror əməliyyatlarını mərhələli şəkildə həyata keçirərək...»

**"Mənə belə gəlir Rusiya hər şeyini sərf edir ki, həm sülh yaratmaq prosesi dayansın, həm də sülh yaratma prosesinə Qərb, Avropa Birliyi deyil, məhz özü rəhbərlik etsin"**

Bunu Adalet.az-a açıqlamasında politoloq Qabil Hüseynli Qarabağın erməni vətəndaşlarının Yevlax görüşündən imtina etməsinə münasibət bildirərkən deyib. Politoloq bu görüşün baş tutmamasında da Rusiya izi olduğunu bildirib:

"O sülh yaratmaq istəmir, əksinə bölgədə qarşıdurmanı dərinləşdirir, separatçılara hər zaman dəstək verir və beləliklə bölgəni qançanağına çevirmək istəyir. Zənnimcə, necə ki, Rusiyanın təsiri orda zəifləməyib bu təxribatlar və siyasi dəllaların Qarabağın ermənilər yaşayan hissəsində "at oynatması" davam edəcək. Ona görə də biz ya Rusiya sülhməramlılarının bölgədən çıxmasını tələb etməliyik, yaxud da ki, antiterror əməliyyatlarını mərhələli şəkildə həyata keçirərək ərazilərimiz üzərində suverenliyimizi bərpa etməliyik".

Qeyd edək ki, avqustun 11-i saat 21:10-dan 21:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Bəzirxana və Zəylik yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub. Ardıyca avqustun 11-də Xankəndi-Kərkicahan-Xəlfəli yolunda Rusiya sülhməramlılarının zirehli maşınının müşayiəti ilə qanunsuz erməni silahlı dəstələrinin hərbi yük daşımaları qeydə alınıb.



**Vasif Əlihüseyn**

*Aqil ABBAS*

# AKİF İSLAMZADƏ, MƏNİ AD GÜNÜMƏ BAĞIŞLA!

## (Siz doğrudanmı Tanrı səsini eşitmisiniz?)

**(əvvəli 2-ci səhifədə)**

**Deyirlər dünyada ilk dəfə "Söz" olub və dünya "Söz"dən yaranıb. Yəni Tanrı "Ol" deyib və insanların yüz min illərdi, nə bilim milyon illərdi dağıtmaq istədiyi, amma dağıda bilmədiyi dünya olub. Dünya Sözdən yaranmayıb, dünya Səsdən yaranıb. Tanrı "Ol" sözünü yazmayıb ha, deyib.**

**Oxuduqlarımıza inansaq Tanrı bircə Musa peyğəmbərlə söhbət edib, başqa peyğəmbərlərlə mələkləri vasitəsilə əlaqə saxlayıb. Yəni dünyada yalnız Musa peyğəmbər yeganə şəxsdir ki, Tanrının səsini eşidib. Və dünyanın ən xoşbəxt, olub-keçən adamıdı.**

**Bəs Tanrının səsi necə olub? Hansı rəngdə olub, hansı boyda, hansı buxunda olub, hansı şirinlikdə, hansı dadda olub? Musa peyğəmbər o səsi eşidəndə hansı hala düşüb, hansı hisslər keçirib?**

**Kim istəyir inansın, kim istəyir inanmasın, o qədər yalandan and içmişəm ki, indi and içməyə də həvəsim yoxdu, mən də Tanrının səsini eşitmişəm və eşidirəm. Bu səsin içində doğulmuşam və düz 57 ildi bu səsin içində yaşayıram. Və düz 57 ildir ki, bu səsə qovuşmaq istəyirəm, amma qovuşa bilmirəm. Haçansa qovuşacağıma inanıram. Düz 57 ildir bu səs məni alıb ağuşuna, yaşadır.**

**Əslində bütün insanlar Tanrının səsini eşidirlər. Sadəcə olaraq Tanrıdan çox uzaq olduqlarına görə bu səsin Tanrının səsi olduğunu anlaya bilmirlər. Milyardlarla murdar səsin içindən Tanrının səsini ayırmaq hər insanın qismətinə yazılmayıb.**

**İsa Muğanna deyir ki, Tanrı ilə danışır. Səmimi desək, insanlar artıq ona normal adam kimi baxmırlar. Bu yaxınlarda Mirşahin onunla bir saat söhbət elədi və mən də gördüm ki, İsa Muğanna düz deyir, Tanrı ilə danışır. Və doğrudan da necə ola bilər ki, Musa peyğəmbər Tanrı ilə danışa bilər, İsa Muğanna danışa bilməz?! Və tarix boyu da Tanrıya yaxın insanları normal insanlar kimi qəbul eləməyiblər. Nə həzrəti Davudu, nə həzrəti İsanı, nə həzrəti Musanı, nə həzrəti Məhəmmədi! Dəli deyiblər, daşlayıblar. Çünki milyonlarla dəlinin içində ağıllı olmaq təbii ki, dəlilikdi. İndi İsa Muğannaya da dəli deyənlər həmin o milyonlardılar.**

**Tanrı "Ol" deyəndə o Səs dünyada yaratdığı nə varsa hamısına hopub. Daşına da, dağına da, çayına da, suyuna da, havasına da, ağacına da, çiçəyinə də, gülünə də, işığına da, qaranlığına da, insanına da, heyvanına da Bu dünyada nə varsa, hamısına. Və bu dünyada nə görürsüzsə, nə görmürsüzsə hamısı Tanrının səsi ilə danışır. Bax, indi dünya yenidən doğulur, rənglər bir-birinə qarışır, ağaclar tumurcuqlayır, dünya yaşıllaşır. O tumurcuğun səsini eşidirsiniz? Eşitmirsənsə, sən karsan, buna Tanrı neyləsin? Bulaqlar qaynayır, o qaynamanın səsi Tanrının səsidi. Sən onu anlamırsansa Tanrı buna neyləsin? Tərtər çayı Dəlidağdan qaynamalardan kökünü götürüb şırıl-şırıl şırıldayır. Tanrının səsidir, anlamırsan, buna Tanrı neyləsin? Tərtər olmasın, Nil olsun, Missuri olsun, Yenisey olsun. Kol dibində bənövşə qıvrıla-qıvrıla puçurlayır, Tanrının səsidir. Sən anlamırsan, buna Tanrı neyləsin? Sərçənin, sığırçının, qaratoyuğun səsi Tanrının səsidir. Sən bunun Tanrı səsi olduğunu anlamırsan, buna Tanrı neyləsin?**

**Bu əslində bir povestə, bir romana yığılacaq bir mövzu deyil, onda ki, hansısa bir məqaləyə bunu sığışdıra bilim.**

**Mən sadəcə olaraq Akif İslamzadədən məni bağışlamasını istəyən bir yazı yazmaq istədim. Amma belə başladım. "Xəzər TV"də Nərgiz Cəlilovanın hər həftənin ikinci günü çox maraqlı və çox isti bir "Pəncərə" adlı verilişi gedir. Hamı dördüncü gün "Kurtlar vadisi"ni gözləyəndə mən ikinci gün "Pəncərə"ni gözləyirəm. Demirəm ey, "Kurtlar vadisi"nə baxmıram, sadəcə olaraq "Pəncərə"ni gözləyirəm ki, görək bu dəfə Nərgiz xanımın qonağı kim olacaq? Lap Mirşahinin "Milli metr" verilişini gözlədiyim kimi gözləyirəm.**

**Son verilişdə Akif İslamzadə qonağı idi.**

**Təxminən iki ildi Akif İslamzadənin qarşısında elədiyim bir günaha bəraət qazanmaq istəyirəm, qazana bilmirəm və heç qazana da bilməyəcəm.**

**Mən əvvəldə dedim axı, Tanrı Musa peyğəmbərlə danışanda səsinin rəngi necə olub, boy-buxunu necə olub və sair və ilaxır, yuxarıda yazmışam.**

**Və sonra da yazdım ki, mən də Tanrının səsini eşitmişəm və eşidirəm, bu səsin içində doğulmuşam, böyümüşəm və bu səsin içində yaşayıram və bu səsə qovuşmaq istəyirəm.**

**Bir neçə il əvvəl bir müxbirimə tapşırdım ki, Akif İslamzadə haqqında nəsə yazsın. Yazdı gətirdi, oxuyub hirsləndim, cırıb atdım. Və adama da bərk hirsləndim. Və sonra da fikirləşdim ki, bu bədbəxtin nə günahı var, o ki Tanrının səsini eşitməyib, Akif İslamzadə haqqında nə yaza bilər?! Və özüm oturdum Mehriban xanımın önündə, Akif İslamzadə haqqında çox kiçik bir yazı yazdım. Yazı da böyük əks-səda doğurdu. O yazıya qayıtmaq istəmirəm. Arxivdən tapıb yenidən çap edəcəm.**

**Mən o yazıda Tanrının səsi ilə bağlı fikirlərimi yazmışdım. Yəni mənim üçün Tanrının səsi Aydın Qaradağlının səsi idi, Soltan Nəcəfovun səsi idi, Hacı Sabirin səsi idi, Bülbülün səsi idi, Məhluqə Sadıqovanın səsi idi, Qədir Rüstəmovun səsi idi, Arif Babayevin səsi idi, Akif İslamzadənin səsi idi.**

**Tanrı Musa peyğəmbərlə bax, bu adamların səsi ilə danışmışdı. Tanrının mələkləri də başqa peyğəmbərlərlə bu səslərlə danışmışdı.**

**Mən əvvəldə dedim axı, Tanrının səsi bütün dünyaya hopub: rənglərə, dağlara, daşlara, çaylara, bulaqlara, quşlara, havaya, torpağa, işığa, qaranlığa. Və adını çəkdiyim və çəkmədiyim qeyri-adi insanların səsində də dağların, daşların, bulağın, çayın, rənglərin, işığın, torpağın, qaranlığın, havanın, heyvanların, insanların, gülün, çiçəyin səsi cəmləşib.**

**Kimsə mənimlə mübahisə edə bilər ki, filankəsin səsində də belə bir möcüzə var. Ola bilər, onunla mübahisə edə bilmərəm, o da o səsi qəbul edir. Mən dünyanın böyük Tanrı səsli sənətkarlarını tanıyıram və sevirəm. Həqiqətən də Demis Russosun, Pavarottinin, Müslüm Maqomayevin səsi də Tanrı səsidir. Yəni dünyada Tanrı səsli insanlar şükürlər olsun ki, az deyil. Amma dəhşət budur ki, Tanrı səsli insanları dinləyənlər hamısı bir yerdə Maykl Ceksonu dinləyənlərdən azdı. Bax, faciə budu.**

**Söhbəti uzatmayaq. Mən Akif İslamzadə haqqında yazanda demişdim ki, Akif, Tanrı sənin səsini o qədər çox sevirdi ki, bədənindən soyub apardı öz yanına. Və Tanrı indi bütün günü sənə qulaq asır. Və Tanrı sənə qulaq asdığına görə və sənin səsin onun ruhunu oxşadığına görə bu dünyanı məhv eləmir. Sənin səsindi bu dünyanı qoruyan.**

**Və onu da yazmışdım ki, sən xoşbəxt adamsan. Bir gün Tanrıya qovuşacaqsan və gedib öz səsini Tanrının dərgahında görəcəksən! Bizlər bədbəxtik ki, bir daha sənin səsini görə bilməyəcəyik.**

**Səsi görmək! Lap cavan yaşlarımda bir yazı yazmışdım. Yazmışdım ki, mən gözəl rəsm əsərlərinə baxanda ordakı rənglərin səsini eşidirəm. Məsələn, Səttar Bəhlulzadənin "Kəpəzin göz yaşları" və ya Salvador Dalinin "Vətəndaş müharibəsini öncədən görmə" əsərlərini. Burda rənglərin danışığını yazmağa qələmin qüdrəti çatmaz, çünki Tanrı burda rənglərin dili ilə danışır, Tanrının danışığını da yazmaq üçün ən azı Üzeyir Hacıbəyov olmalısan, Qara Qarayev olmalısan, Şopen olmalısan və sair və ilaxır.**

**Bəs bu yazını niyə yazdım? Əslində bu gün mənim ad günümdü. "Dünyanın ən xoşbəxt adamı" adlı povestimdə belə bir yer var. Qəhrəman, yəni özüm, heç vaxt ad günü keçirməyi xoşlamır. Və belə fikirləşir ki, o nə Məhəmməd peyğəmbərin nəslindəndi, nə də Eynşteynin. Yəni onun doğulması dünyada insan artımından başqa maraqlı bir şey deyil. Yəni mənim də Tanrının səsini eşitmək qabiliyyətindən başqa doğulmağım elə də bir önəmli hadisə deyil.**

**Akif İslamzadə Nərgiz xanımla söhbətində dedi ki, o, səsləri görür. Təxminən 20-23 il bundan əvvəl mən bir yazı yazmışdım və orda demişdim ki, mən rənglərin səsini eşidirəm, rəssamlıq gözlə görünən musiqidir. Və onu da yazmışdım ki, mən səsləri görürəm, musiqi də, səslər də gözlə görünən rəssamlıqdı, sənət əsəridi. O vaxt bunu mənə nöqsan tutanlar da olmuşdu.**

**Və gördüm ki, bu dünyada dəli təkcə mən deyiləm, Akif İslamzadə də dəlidi.**

**Bəs Akif İslamzadəyə niyə üz tutub deyirəm məni bağışlasın?**

**Mən "Dolu" romanını yazanda orda müəyyən nüanslar var. Tanrı mələklərini yer üzünə göndərir ki, insanlar yollarını azıblar. Gedin bir insan tapın, ona peyğəmbərlik əta eləyim və o, yenidən insanları düz yola, haqq yola çağırsın. Mələklər gəlirlər bitdə-bitdə insanları arayıb-axtarırlar, amma Tanrının dediyi insanı tapa bilmirlər. Və əliboş geri qayıtmaq məcburiyyətində olurlar.**

**Qorxurlar ki, Tanrının əmrini yerinə yetirə bilmədiklərinə görə Tanrı onları cəzalandıracaq. Və birdən bir insanın çıxartdığı Tanrı səsini eşidirlər. Və bu səsi həmin insandan soyub çıxarırlar və aparırlar Tanrıya. Tanrı bu səsə qulaq asır, çox xoşuna gəlir və hər dəfə insanlığa əsəbləşəndə bu səsə qulaq asır və insanları bağışlayır. Və mənim əsərimdə bu, Qədir Rüstəmovun səsi kimi göstərilib.**

**Əslində isə mən 7-8 il əvvəl belə bir yazı yazmışdım, bu səsin Akif İslamzadənin səsi olduğunu göstərmişdim. Romanda isə bu səs Qədir Rüstəmovun səsi kimi gedib. Əslində isə romanın əlyazmasında bu səsin Akif İslamzadənin səsi olduğu yazılıb - əvvəldən sonadək. Amma əsər çapa gedərkən Akif İslamzadəyə xəyanət elədim həmin obrazı Qədir Rüstəmov kimi təqdim elədim.**

**Qədir Rüstəmovun da səsi ilahi səsdi. Bəs niyə Akifin adını çıxarıb Qədirin adını yazdım? Niyə Akifə xəyanət elədim, əslində Tanrının səsinə xəyanət elədim?**

**Roman Qarabağ müharibəsindən, Qarabağdakı faciələrdən və sair və ilaxırlardan danışılırdı. Və Qarabağda da Qədir Rüstəmovun səsi Qarabağın daşı, torpağı, suyu, havası kimi, qəbiristanlığı kimi əziz və doğmadı. Düzdür, qarabağlılar Akif İslamzadəni də qarabağlı kimi qəbul edirlər, amma Qədir onlar üçün başqa bir məna daşıyır.**

**Və məhz buna görə də roman çapa gedərkən Akif İslamzadənin adını əsərdən çıxarıb yerinə Qədir Rüstəmovun adını yazdım.**

**Yəni həm Akifə, həm də özümün qəbul etdiyim meyarlara bir xəyanət elədim. Və iki ildi həmişə Akif İslamzadəyə bir məktub yazmaq istəmişəm ki, məni bağışlasın.**

**Və onu da bilirəm ki, Akif İslamzadə belə şeylərin farkında deyil, çünki çox yüksəkdə dayanır. Bir adamın ki səsi Tanrı dərgahında ola, bir adamın ki səsini hər gün Tanrı dinləyə və bu səsə görə biz günahkar insanları bağışlaya, yəqin ki, Akif İslamzadə də məni bağışlayar.**

**35 il əvvəl Tanrı mələklərinin Akif İslamzadədən soyub Tanrıya apardıqları səsi mələklər bizim içimizdən, qanımızdan, ruhumuzdan, bu torpaqdan, bu çaylardan, bu sulardan, bu bulaqlardan, bu işıqdan, bu qaranlıqdan, bu havadan soyub apara bilmədilər.**

**Milyardlarla insanların Tanrının səsini bu dünyada batırmağa gücləri çatmadığı kimi, Tanrı mələklərinin də gücü Akif İslamzadənin səsini bu dünyadan qoparmağa gücləri çatmadı!**

**2010, aprel**



*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*

# Keçinin buynuzu...

**Dünyanın ən güclü əsgəri Azərbaycan əsgəri!**

**O,öz gücünü 44 günlük İkinci Qarabağ savaşında göstərdi. Və gücü nəinki ermənilər bütün dünya gördü. Bütün dünya gördu ki, 30 il BMT-nin çıxardığı dörd qətnamə havada qaldı və icra olunmadı.**

**Və o qətnaməni Azərbaycan Ordusu, Azərbaycan əsgəri həyata keçirdi! Ali Baş Komandan, Prezident İlham Əliyev və Azərbaycan Ordusu göstərdi ki, biz öz gücümüzlə hər işi həll edə bilirik, heç bir ölkə məmləkətimizə yuxarıdan aşağı baxan bilməz! Ermənilər və onun havadarları Azərbaycan Ordusunun gücünə yaxşı bələddir! Çünki ordumuz 44 günlük savaşdakından da qat-qat güclüdür.**

**Sadəcə bəzən havadarlarına arxayın olub, küçə itləri kimi ağız-ağıza verib hürürlər. Bir neçə dəfə başları əzilib, bax onda da quyruq bulayıblar. Deyirlər ki, keçinin buynuzu geyişəndə çobanın çomağına sürtər! Bax indi də onların deyəsən , buynuzları geyişir. Hərçənd ki, onların buynuzları 44 günlük savaşda sındırılıb! Ordusu olmayan, on mindən çox fərarisi olan bir ölkənin hansı döyüs yolundan danışmaq olar?!İndi yenə sərhəddə və Qarabağda tez-tez atəşkəsi pozurlar! Amma darıxmayın , elə həmin anda da payların alırlar.**

**Çünki Azərbaycan Ordusu , Azərbaycan əsgəri ilə heç kim zarafat eləyə bilməz! Bütün dünya ermənilərin arxasında dayanıb! Azərbaycan Prezidenti İlham Əliyevin və Azərbayan Ordusunun arxasında isə Allah durub! İndi görək kim güclüdür- ermənilər, yoxsa, biz?!**

## *İrlandiyada bankomatların qarşısında izdiham - Pulu olmayanlar pul çıxarıblar*



**İrlandiyada "Bank of Ireland"ın bəzi bankomatları daha kiçik məbləğləri çıxarmaq istəyənlərə daha yüksək məbləğlər verib. Hətta hesabında pulu olmayan müştərilərə də bankomatdan pul çıxara biliblər.**

Bu səbəbdən bankomatların qarşısında uzun növbələr yaranıb. Polis rəsmiləri tərəfindən verilən açıqlamada 40 fərqli nöqtədə "qeyri-adi insan fəaliyyəti və səs-küy"ün qeydə alındığı, polislərin bu məntəqələrə göndərildiyi bildirilib.

İrlandiya Bankının əvvəllər Twitter adlanan X sosial media platformasında verdiyi açıqlamada bankomat və bank mobil tətbiqində texniki problem olduğu bildirilmiş və bunlar qeyd edilmişdir: "Müştərilərimizə xatırlatmaq istərdik ki, pul köçürmələri, nağd pul çıxarma və normal limitdən yuxarı ödəniş əməliyyatları onların hesablarında əks etdiriləcək. Müştərilərimizin balanslarına nəzarət edə bilməyəcəyini bilirik, lakin siz heç bir əlavə pul çıxarma və ya köçürmə etməməlisiniz". Daha sonra bank texniki problemin aradan qaldırıldığını və həm bankomatların, həm də mobil tətbiqin normal işləməyə başladığını açıqlayıb.

**Emin**

# Professor: "Bölgələrdə təhsil müəssisəsinin olması yeni, mədəni təhsil mühitinin formalaşmasına..."

**"Mənə elə gəlir ki, ölkə Prezidentinin rayonlara səfəri çərçivəsində Qazaxda məşhur Qazax müəllimlər Seminariyasının binasında olması, onun fəaliyyətiylə tanış olması, bir tərəfdən tamaşaçılar üçün böyük bir informasiya xətti açdı, digər tərəfdən həmin seminariyanın mövcudluğu barədə məlumatı olmayanlara ətraflı məlumat verdi"**



Bunu Adalet.az-a açıqlamasında prosessfor Qulu Məhərrəmli deyib. Q.Məhərrəmli paytaxtdakı universitetlərin bölgələrdə filiallarının olmasının yeni təhsil mühitinin formalaşmasına töhfə verdiyini bildirib və bunun vacib olduğunu vurğulayıb:

"Qazax Müəllimlər Seminariyası iki səbəbdən bizim üçün qiymətlidir. Birincisi ona görə ki, o Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır. Çünki 1917-18-ci illərdə Qafqazda ciddi problemlər baş qaldıranda Qori Müəllimlər Seminariyası da fəaliyyətini dayandırdı və Cümhuriyyət qurulandan bir neçə ay sonra onun liderləri Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Qazaxa köçürülməsi haqda qərar qəbul etdilər. Hesab edirəm ki, bu bir tətəfdən ənənə, təhsil, xalqımızın tarixində çox önəmli rol oynamış maarifçilik işinə verilən dəyər idi. İkinci bir tərəfdən bilirsiniz ki, o dövrdə məktəblər var idi, amma sayca çox az idi. O məktəblərdə də hər kəsin oxumaq imkanı yox idi. Ona görə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Qazaxa köçürülməsi çox ciddi hadisə idi. Bu işdə əlbəttə, bizim böyük maarifçimiz, Azərbaycan ədəbiyyatının tədqiqatçılarından biri, uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, dil məsələlərində fəal iştirak edən Firudin bəy Köçərli Seminariyanın təşklində çox böyük rol oynadı. Orda imkanlı adamlar ortaya çıxdı, Seminariya üçün bina alınmasında, vəsait toplanmasında Qazax əhalisinin öndə gedən imkanlı adamları çox ciddi rol oynadılar. Əlbəttə ki, maarifçilik işində Firudin bəy Köçərlinin ömür-gün yoldaşı Badisəba xanımın da tarix üçün çox böyük xidmətlərindən biri o oldu ki, seminariyanın təşkilində, uşaqların tədrisə cəlb olunmasında böyük tərəqqi iş gördü.

Bu dünənki tarixdir, amma bu gün o seminariya ADA Universitetinin, bizim şəxsən hörmətli rektor Hafiz Paşayev seminariyanın bərpa olunması üzərində çox ciddi iş aparandan sonra ora fəaliyyət göstərir. Orda əsasən ibtidai sinif müəllimləri hazırlanır və o müəllimlər bizim düşündüyümüz, gördüyümüz klassik mənada dərsə girən, şablon müəllimlərdən deyil. Onlar ingilis dilinə yiyələnən, pedaqoji təcrübələrini Amerika Birləşmiş Ştatlarında keçən, çox müasir təhsil texnologiyalarına yiyələnən insanlardır.

Ona görə bu seminariyanın dəyəri ondadır ki, həm tarixi missiyasını davam elətdirir, həm də onu yeni texnologiyalarla zənginləşdirir.

Qazax rayonunda təhsillə bağlı çox ciddi addımlar atılır və biz bunu təqdir edirik. Yəni bu onu göstərir ki, bizim bölgələrdə təhsil şəbəkəsi düzgün qurulmalıdır. Universitetlərin filialları fəaliyyət göstərməlidir. Bu gün bizdə bir neçə rayonda ciddi təhsil müəssisələri fəaliyyət göstərir. Vaxtilə Lənkəran Universiteti yaranmışdı və indi də normal fəaliyyətini davam etdirir. Onun fəaliyyəti diqqət mərkəzindədir, çünki yeni kadrlarla zənginləşdirilir. O universitetin işi təqdirəlayiqdir. Təbii ki, nöqsanlar hər yerdə var. Onları aradan qaldırmaq çox önəmlidir.

Bakı Dövlət Universitinin Qazaxda filialı fəaliyyət göstərir və bu çox müsbətdir. İqtisad Universiteti indi bizdə fərqli ali məktəblərdən biridir. Onun Zaqatalada fəaliyyəti var. Azərbaycan Dövlət Pedaqoji Universitetinin çox zəngin tədris ənənəsi var. Qubada, Ağcabədidə, Gəncədə və bir çox rayonlarımızda bunların filialları var və bunu təqdir etmək lazımdır.

Çünki əvvəla tələbələrin, gənclərin şəhərə axınını nisbətən azaldır. Həm də o yerlərdə təhsil müəssisəsinin olması yeni, mədəni təhsil mühitinin formalaşmasına ciddi şəkildə təsir edir. Orta məktəblərin fəaliyyətinə müsbət təsir edir. Universitetlər işlərini yaxşı quranda yüksək ixtisaslı müəllimlər də gedib orda fəaliyyətlərini davam etdirirlər.

Ona görə bu xətt davam etməlidir. Bizim digər ali məktəblərimizin də bölgələrdə fəaliyyəti olmalıdır və davamlı olaraq fikir mübadiləsi aparılmalıdır".

**Vasif Əlihüseyn**

# Hafiz Hacıyev: "Biz ermənilərin nazıyla oynadıqca onlar elə bilirlər ki..."

**"Biz bunu dəfələrlə demişik və yenə o məsələyə qayıdaq. Qarabağda işğaldan azad etdiyimiz torpaqlarımızı ətrafımızda və içimizdə olan müəyyən qüvvələr çalışırlar ki, yenidən ermənilərə qaytarsınlar. Biz Qarabağda qələbə qazandıqdan sonra Ermənistan bizə yalvarırdı, amma aradan ötən üç illik bir fasilədən sonra onlar deyəsən özlərinə gəliblər. Ermənistana bir çox dövlətlər silah verirlər, dəstək olurlar, bir sözlə əllərindən gələni edirlər"**



Bunu Adalet.az-a açıqlamasında Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev deyib.

H.Hacıyev Rusiya sülhməramlılarının ərazilərimizi öz nəzarətində saxlamaq istədiyini deyib:

"O cümlədən Qarabağa sülhməramlı adıyla gələn işğalçı rus ordusu Qarabağı öz təsiri altında saxlamaq istəyir. Hətta belə məlumat var ki, Xankəndində və digər ərazilərdə yaşayan ermənilərə rus pasprotu verib, gələcəkdə Xankəndini Rusiyanın bir vilayəti kimi təqdim etsinlər. Ona görə ermənilərin Xocalıda və digər ərazilərimizdə soyqırım törədən rəhbərlikləri çalışırlar ki, həm İrəvanda, həm də Xankəndində vəziyyəti gərginləşdirsinlər. Yevlaxda görüşdən və bu günə qədər bütün danışıqlardan imtina ediblər. Ona görə düşünürəm ki, çox ciddi şəkildə tədbir görülməlidir. Biz bunların nazıyla deyəsən çox oynadıq və bunlar da biz onların nazıyla oynadıqca, elə bilirlər istədiklərini edə bilərlər. Ərazi, torpaq bizimdir, heç kimin ixtiyarı yoxdur ərazilərimizdə "at oynatsın". Hesab edirəm ki, biz antiterror əməliyyatlarına başlamalıyıq. Xankəndində bayrağımız dalğalanmalıdır və orda bizim səlahiyyətli nümayəndəmiz olmalıdır. Biz Xankəndində görüş keçirməliyik. Cənab Prezidentin dediyi kimi orda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Bizim vətəndaşlarımız isə qanunlarımıza tabe olub bizim pasportu daşımalıdırlar. Orda da bizim valyutamız dövriyyəyə buraxılmalıdır".

**Vasif Əlihüseyn**

*Əntiqə KƏRİMZADƏ*

# Xoruzu qoltuğuna verilənlər



***Bu ifadəni ən çox rəhmətlik nənəmdən eşidirdim: "xoruzunu qoltuğuna verdim, getdi", yaxud da "elə edin ki, xoruzunuzu qoltuğunuza verməsinlər" v.s. Belə misallar nənəmin gündəlik lüğətində olurdu. Biz də balaca uşaqlar idik. Onun belə misallarına qəh-qəhə ilə gülürdük. Nə biləydik ki, bu cəmiyyət, bu toplum çoxlarının " xoruzunu qoltuğuna verəcək" Çətindir, daha doğrusu çox çətindir***

***Bu kimi misallar uşaqlıq illərində mənə elə qəribə gəlirdi ki Əlbəttə, zamanın çirkabına bulaşmayan bir uşaq üçün belə sözlər həm qəribə, həm də gülməli idi Zaman o qəribəlik adlı mifi də dağıtdı, gülməlini də bizim üçün sözün əsl mənasında "dərs"ə çevirdi. Sonra da dedi ki, indi gül, nə qədər gülə bilirsən***

***Zaman- zaman anladım ki,bu misal bir az da taleyin sınağından alnıaçıq- üzüağ çıxmağa işarədir .***

***Uzun bir zaman idi ki, bu misalı eşitmirdim. Ancaq son üç-dörd gündür ətrafımdakı insanlardan bu ifadəni eşidirdim. Düzü, yadıma nənəm düşdü. Nənəm bu misalı çox çəksə də, bunun hardan qaynaqlandığını, hansı hadisədən belə bir misalın yarandığını heç vaxt deməmişdi. Bəlkə də heç bilmirdi***

***Bunun qaynağını öyrənməyə başladım. "Xoruzu qoltuğuna verilmək "nə deməkdir? Bu ifadə necə yaranıb ? Nəyə misaldır? Öyrəndikcə keçmiş adətlərə də baş vururdum. Demək ,keçmişdə oğlan evi qız evinə gedəndə özləri ilə şirniyyat, qənd, xoruz apararmışlar. Qız evi elçiləri qarşılayarmış. Lakin onların gətirdiyi sovqatı saxlayarmış. Buna el arasında bir- birini tanıma müddəti deyirlər. Belə ki, qız evi oğlan evini tanışdan, qonşudan maraqlanarmış. Əgər oğlan evi qız evinin xoşuna gələrmişsə, elçiləri dəvət edib, xoruzu kəsib bişirib, oğlan evi ilə birlikdə yeyərmişlər.***

***Qız evindən razılıq olmayanda isə heç xoruzun ayaqlarını da açmırmışlar. Yəni xoruzu da gələn elçilərlə qaytarırmışlar. Dost, tanış, qohumlar da məsələnin nə yerdə olduğunu soruşanda isə qız evinin cavabı belə olarmış:- "Xoruzlarını verdik qoltuqlarına".***

***Real olaraq xoruzu da elçilərlə geri göndərsələr də, bu misal zaman- zaman məcazi məna almağa başlayıb.***

***Bu ifadə "başqasını məğlub etmək", "üstün olmaq", "qalib gəlmək" mənasında işlənir. Bəzən kimisə bir toplumdan uzaqlaşdıranda, işinə müsbət cavab verilməyəndə də bu misal yerinə düşür.***

***Elə yaşamalı və elə çalışmalıyıq ki, xoruzu qoltuğuna verilənlərdən olmayaq...***

## *Bayden ABŞ-ın iki müttəfiqini barışdırır*

**ABŞ Prezidenti Co Bayden müttəfiqləri Yaponiya və Cənubi Koreyanı barışdırmağın yolunu tapıb.**

Bu barədə "Assoşeyted Press" məlumat yayıb. Məlumata görə, görüş Kemp Deviddəki iqamətgahda keçiriləcək.

Bildirilib ki, Bayden qeyri-rəsmi tədbirin Yaponiyanın Baş naziri Fumio Kişida ilə Cənubi Koreya Prezidenti Yun Sok Yol arasında münasibətləri yaxşılaşdıracağına ümid edir.

Agentlik görüşün Kemp Deviddə keçirilməsinin xüsusi önəmi olduğunu vurğulayıb.

1978-ci ildə o vaxtkı ABŞ prezidenti Cimmi Karterin vasitəçiliyi ilə Kemp Deviddə Misirlə İsrail arasında sülh müqaviləsi imzalanmışdı.

## *Avtobusda istidən boğulurlar*

**Dörd-beş gündür Bakıda yayın ən isti günlərini yaşayırıq. Təbii ki, bu isti günlərdə işə, bazar-dükana gedən çoxlu sayda insanlar var.**

Onlar mənzil başına getmək üçün ya metrodan , ya da digər nəqliyyat vasitələrindən istifadə edirlər. Bu mənada Yeni Günəşlidə



yaşayanların avtobus sarıdan bəxtləri gətirməyib. 64 nömrəli marşrut istisna olmaqla 50, 36,104 nömrəli avtobuslarda bu isti günlərdə harasa, getmək cəhənnəmi görmək deməkdir.

Çünki adını çəkdiyimiz bu marşrutun heç birində kondinsioner yoxdu. İndi siz təsəvvür edin görün müsbət 42 dərəcə istidə bu avtobuslarda gedənlər nələr çəkir.Avqustun 12-də günorta saatlarında 50 nömrəli marşrutda olarkən sərnişinlərin nələr çəkdiyinin şahidi olduq. Biri deyirdi istidən ürəyim sıxılır, bir deyirdi ki, havam catışmır, bir də başını tutub qalmışdı. Bax bu usti günlərdə günəşli camaatının nələr çəkdiyini bir özləri, bir də Allah bilir. Və bir də bizim yazığımız o avtobusları idarə edən sürücülərə gəlir.

Biz o avtobuslarda uzaqbaşı 40 dəqiqə oluruq, onlar isə 16 saat sükan arxasında əyləşirlər. Amma bu sürücülərə və sərnişinlərə marşrut sahiblərinin yazıgı gəlmir. Yazığı gəlsəydi, köhnə avtobusları yeni, kondinsionerli maşınlarla əvəz edərdilər!

## *Atmosferə normadan artıq zərərli qazlar atılır*

**Heç kimi sirr deyil ki, bu gün Bakıda ekoloji durum bir o qədər də ürəkaçan deyildir. Ən azından ona görə ki, müxtəlif is-**




**tehsalat sahələrindən,nəqliyyat vasitələrindən, tikinti meydancalarından hər gün atmosferə tonlarla zərərli qazlar atılır.**

Buna qarşı hər il Ekologiya və Təbii Sərvətlər Nazirliyi DİN-in Baş Dövlət Yol Polisi ilə birgə "Təmiz hava" aylığı keçirir. Bu tədbirlər zamanı çoxlu sayda nəqliyyat vasitələrindən atmosferə zərərli qazların atılması faktları aşkarlanır və sürücülər 50 manat civarında cərimə olunurlar. Xüsusən də dizellə işləyən maşınlardan atmosferə daha çox zərərli qazlar atılır. Aydındır ki , bu zərərli qazlar müxtəlif sağalmaz xəstəliklərin yayılmasına münbit şərait yaradır.

"Təmiz hava" aylığında Baş Dövlət Yol Polisi İdarəsinin Ekoloji Nəzarət Bölüyü yetərincə mübarizə aparır. Adı iş günlərində isə bu mübarizə zəif təşkil olunur. Onlar əsas məsələni unudub digər qayda pozuntularına qarşı mübarizə aparırlar.

Hansı ki , onların əsas vəzifəsi atmosferə normadan artıq qaz atan avtomobillərə qarşi mübarizədir. Bu g?n də dizellə işləyən avtobus, mikroavtobus, "Kamaz", "Kraz"', "Şadman" markalı yük maşınlarından atmosferə zərərli qazlar atılır. Ona görə də Ekoloji Nəzarət üzrə Yol Patrul Bölüyü belə sürücülərə qarşı mübarizəni güclədirilməlidir. Çünki yol polisi həmişə öz işinin öhdəsindən bacarıqla gəlib!

## *İtlərin nə çox qohum-əqrəbası varmış*



**Yeni Günəşlidə çoxlu sayda sahibsiz itlər var. Və onlar barəsində vaxtaşırı olaraq Sahibsiz Heyvanlarla Mübarizə İdarəsinə məlumat verilir.**

Belə məlumatların birini də Yeni Günəşlidəki 13 nömrəli binan sədri Fərman Kazımov catdırıb. Onun fasiləsiz zənglərindən sonra məlum idarənin əməkdaşları həmin ünvanda olub, 12 sahibsiz iti tutub, maşına yığaraq aparıblar.

Bu vaxt bəzi sakinlər itlərin tutulmasına narazılıq eləyib, işə maneçilik törədiblər. İtləri yığıb aparan əməkdaşlar onların hərəkətinə məəttəl qalıblar və deyiblər ki, bu itlərin nə çox qohum-əqrəbası varmış.İmkanınız var kasıbkusublara kömək edin!

Onlar məlum idarəyə və Fərman Kazımova təşəkkür etmək əvəzinə, əksinə bu xeyirxah işə əngəl törədirlər. Min təəssüf!!!

## *Əlavə oturacaqlar*

**Yəqin ki, bəzələrinizin yolu metronun "20 yanvar" stansiyasının yaxınlığından Sumqayıta gedən avtobus və mikroavtobuslara düşməmiş deyil. Bunlar hamısı çox normaldır.**

Normal olmayan odur ki, bu sərnişin daşıyan avtomobillərin bəzilərində əlavə otura-



caqlar quraşdıdırılır. Belə vəziyyət birmənalı olaraq qanun pozuntusu və təhlükə deməkdir. Nəqliyyat vasitəsinin orta yerində oturacağın quraşdırılması sıxlıq yaratmaqla yanaşı, sərnişinlər arasında əsəbilik və gərginlik də yaradır. Hər dəfə sərnişinlər narazılıqlarını sürücülərə bildirəndə onlar bu qulağından alıb, o biri qulağından buraxırlar.

Bəzi sürücülər isə bu irada belə münasibət bildirirlər:" Xoşunuz gəlmir, gedin başqa maşına minin!" Ona ğörə də Sumqayıta işləyən avtobus və mikroavtobuslara tezliklə qayda-qanun yaradılmalı, əlavə oturacaqlar yığışdırılmalıdır! Ancaq bu yolla məsələnin müsbət həllinə Nail olmaq mümkündür!

## *Dərinliyə getməyin...*

Son bir həftədir ki, respublikamızda havalar çox isti keçir.

Hətta temperatur bəzi yerlərdə müsbət 44 dərəcəyə çatır. Bakıda da havalar həddindən artıq istidir. Ona görə də əksər insanlar ya istirahət zonalarına, ya da dənizə, çimərliyə üz tuturlar. Əlbəttə, sərinləmək üçün bu, ən yaxşı çıxış yoludur. Ancaq gərək cimərliyə gedənlər də diqqətli olsunlar, çünki son vaxtlar dənizdə, çayda və göldə çimən neçə- neçə insan boğularaq ölüb. Deməli, hardasa, o adamlar diqqətsizliyin və məsuliyyətsizliyin qurbanı olublar. Ona görə də cımərliklərdə qoyulan tələblərə və qadağalara əməl etmək lazımdır.

Fövqəlada Hallar Nazirliyinin əməkdaşlarının tövsiyələrini qulaqardına vurmaq olmaz. Və bir də isti havada günün altında dayanmaq



və gəzmək özü də bir fəsad yaradır. Daha doğrusu, belə hallarda günvurması olur. Onda həmin insanlara təcili kömək edilməlidir ki, onların vəziyyəti ağırlaşmasın!

## *Parkı hamımız qorumalıyıq*

**Mən bir neçə xarici ölkələrdə olmuşam. Həmin məmləkətlərlərdə gözəl parklar görmüşəm və bizdən fərqli olaraq o ölkələrin vətəndaşları istirahət etdikləri parkları göz bəbəkləri kimi qoruyurlar.**

Təbii ki, bizim ölkəmizdəki parklar da heç də onlarınkından geri qalmır.Hətta bölgərimizdə, əyalətlərimizdə elə parklar və xiyabanlar var ki, adam baxdıqca , bir də baxmaq istəyir. Bakıda da belə gözəl parkların sayı-besabı yoxdu. Gözəl parklardan biri də Yeni Günəşlidə " Fatmeyi-Zəhra" məscidinin yanında salınmış unikal parkdır. Bir-birindən gözəl ağaclar, güllər, çiçəklər, yaşıl çəmənlik adama xoş ovqat bəxş eləyir. Səliqəli və təmiz oturacaqlar, hər oturacağın yanında zibil qabı... Səhər və axşam saatlarında burda adam əlindən tərpənmək olmur. Yəni bu məkan bir cənnəti xatırladır. Amma bəzi adamlar ağacların



budaqların sındırır, güllərin yarpaqların qoparır , hətta tullantıları, tumların qabığını,siqaretin kötüyünü yerə, yaxud da çəmənliyə atır. Bəzi analar uşaqlarına nəzarət eləyə bilmir.

Öyrəndik ki, parkın bağbanı Qarabağ qazisi Fikrət Hüseynovdur. O, Ağdam və Füzuli uğrunda gedən döyüşlərdə ermənilərə qarşı vuruşub. Bir sözlə, F.Hüseynov vətənpərvər və xalqını sevən mərd bir oğlandı. Hər səhər parkı təmizləyir, tullantıları daşiyır və gülləri, çiçəkləri, yaşıllıqları sulayır. Qardaşımız Fikrət də parka istirahətə gələn bəzi adamların məsuliyyətsizliyindən narazılıq elədi. O dedi ki, parka qulluq etmək bizim borcumuzdur, amma camaatımda borcu odur ki,tələb edilən qaydalara əməl eləsin. Amma ürək ağrısı ilə demək istəyirəm ki, bəzi insanlar ağacların yarpaqların qoparır, çəmənliyi tapdayır,yerə siqaret kötüyü , tüm qabıqlar atır.

**Belə olanda bizım ışımız artır, parka qulluq etmək əvəzinə, zibil təmizləyirik! Bu park bizim hamımızındır. Ona görə də hamı bu gözəlliyi qorumalıdır. Fikrət qardaşımız düz deyir. Əgər biz insanlar bu parkı qorumasaq, gördüyümüz gözəlliklər bir neçə ilin içində məhv olacaq! Gəlin, bu gözəllikləri birlikdə qoruyaq!!!**

**Emil FAİQOĞLU**

# Erməni diversantın dövlət sərhədini pozması ilə bağlı cinayət işi başlanılıb

**Kəlbəcərdə erməni diversantın dövlət sərhədini pozması ilə bağlı cinayət işi başlanılıb.**

Bu barədə Adalet.az-a Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib.

Avqustun 16-da Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu ərazisindən keçən hissəsində Ermənistan Silahlı Qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədinin pozulması faktı ilə bağlı Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsində araşdırma aparılıb.

Araşdırma zamanı Ermənistan silahlı birləşmələrinin üzvü və qeyrilərinin qabaqcadan əlbir olan bir qrup şəxs qismində birləşib avqustun 16-da, saat 11 radələrində Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini qanunsuz əldə edib daşıdıqları odlu silah və döyüş sursatları ilə birgə qanunsuz olaraq nəzarət-buraxılış məntəqələrindən və gömrük sərhədindən gömrük nəzarətindən kənar keçməklə ölkəmizdə ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyü ziddinə qərar qəbul edilməsinə təsir göstərmək və milli düşmənçilik salmaq məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması üçün Azərbaycan Respublikasının Kəlbəcər rayonunun İstisu kəndi ərazisində yerləşən N saylı hərbi hissənin hərbi qulluqçularına odlu silahla atəşlər açmaqla onlara qarşı zor tətbiq edib terror aktı törədəcəkləri ilə hədələmələrinə əsaslı şübhələr müəyyən edilib. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları tərəfindən təxribat-diversiya qrupunun üzvü saxlanılmaqla ondan cinayətin alət və vasitələri götürülüb.

Qeyd edilən faktlarla bağlı Baş Prokurorluqda Cinayət Məcəlləsinin 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silah və döyüş sur-



satının qaçaqmalçılığı), 214.2.1, 214.2.3 (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silahdan istifadə etməklə törədildikdə), 228.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah əldə etmə, daşıma, saxlama), 283.2.1 (zor tətbiq etməklə milli düşmənçiliyin salınmasına aşkar surətdə yönələn hərəkətlər etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən zor tətbiq etməklə Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

Hazırda cinayət işi üzrə yaradılmış istintaq qrupu tərəfindən təxirəsalınmaz zəruri istintaq tədbirləri davam edir.

**İstintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi təmin ediləcək.**

# 3 rus təyyarəsi NATO hava məkanına girdi

**Finlandiya və Estoniya ildırım səbəbindən üç Rusiya təyyarəsini hava məkanlarına buraxıb.**

Bu barədə "Rosaviasiya" məlumat yayıb. "Kalininqrad neytral suları üzərində uçuş həyata keçirən "Rusiya", "Ural hava yolları" və "Severnıy Veter" aviaşirkətlərinə məxsus 3 təyyarə çətin hava şəraiti səbəbindən Finlandiya və Estoniya hava məkanlarına daxil olmaöa məcbur olublar", - məlumatda qeyd olunub.

Məlumata görə, hər iki ölkənin aeronaviqasiya xidmətləri Hava Hərəkatı Təşkilatı ilə birlikdə rus təyyarələrinin təhlükəsiz hərəkətini təmin ediblər. "Rosaviasiya" Finlandiya və Estoniyanın səlahiyyətli orqanlarına təşəkkür edib və lazım gələrsə, xarici təyyarələrin Rusiya hava məkanında təhlükəsiz keçidini təmin etməyə hazır olduğunu bildirib.

Qeyd edək ki, Finlandiya və Estoniya NATO üzvü ölkələridir.

# Qəhrəmanlar unudulmur

**Azərbaycan xalqı hər zaman öz qəhrəmanları, cəsur, igid və vətənpərvər oğulları ilə fəxr edib. Dövlətlə yanaşı xalq da öz şəhidlərinə, onların ailə üzvlərinə, qazi və müharibə əlillərinə diqqət və qayğı göstərib. Bu ənənə bu gün də davam edir və bundan sonra da davam edəcək. Bu gün daha bir qəhrəmanımız haqqında söhbət açırıq. Haqqında söhbət açdığımız igid döyüşçümüz, bizə əsl vətənpərvər övladlar qoyub getmiş qəhrəman zabitlərimizdən biri kapitan Yusifov Yavər Əmrulla oğludur. Məhz bu gün onun anım günüdür və onu tanıyanlar, yaxınları, döyüş yoldaşları və ailəsi onu ehtiramla anırlar. Yavər Yusifov əslən Qubadlı rayonundan olsa da Sumqayıtda dünyaya göz açıb. Uşaqlıq illərindən hərb sənətinə xüsusi marağı olan Yavər bəlkə də düşünməzdi ki, bir gün gələcək ata-babasının doğma yurdu Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edəcək.**

Orta məktəbi bitirdikdən sonra Yavər Yusifov sevdiyi hərb sənətinə yiyələnmək üçün Rusiya Federasiyasında Simferopol Ali - Siyasi Hərbi Məktəbini bitirir. Hərb sənətinin sirlərinə yiyələnmiş zabit kimi keçmiş Sovetlər İttifaqının müxtəlif Respublikalarında xidmət edir. Y. Yusifov xidmət dövründə nümunəvi davranışına, hərb sənətinə sonsuz sevgisinə, hərbi biliklərə mükəmməl sahib olduguna görə gənc zabit kimi Komandanlığın diqqətini cəlb edir, xidmətdə fərqləndiyinə görə müxtəlif təltiflərlə mükafatlandırılır.

1987- ci ildə Gürcüstanın Kutaisi şəhərində yerləşən N saylı hərbi hissədə xidmət edən Yavəri öz dogma Vətəninə gətirən ciddi səbəblər vardı. Azərbaycana qarşı təxribat kimi hazırlanıb həyata keçirilən məlum Sumqayıt hadisələrinə Vətəndən kənarda olan digər soydaşlarımız kimi Yavər də biganə qala bilmədi. Ardınca Qarabağ və ətrafında baş verən hadisələr, erməni qəsbkarlarının Azərbaycan torpaqlarına xaincəsinə basqını Yavərin qəti qərar qəbul edib Vətənə dönməsinə səbəb oldu. Əsl Vətənpərvər və peşəkar zabit kimi müxtəlif hərbi hissələrdə öz hərbi bilik və təcrübəsini şəxsi heyyətə çatdıran Yavər Yusifov Qubadlı, Füzuli, Cəbrayıl və digər rayonlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edərək xüsusi ilə seçilir. Qorxmaz, qətiyyətli xarakteri ilə yanaşı tabeliyində olan hərbiçilərə xüsusi qayğı ilə yanaşması Qəhrəmanımızı şəxsi heyyət arasında böyük hörmət və nüfuz sahibi etmişdi. Uzun müddətli hərbi təcrübəsi, hərbi bilik və bacarığı, peşəkar zabit kimi Yavər Yusifovun uğurlarının sayını artırır, Komandanlığın rəğbətini qazandırırdı. Başqaları kimi onun da tək bir arzusu var idi. Yavər Yusifovun ən böyük arzusu o idi ki, torpaqlarımız mənfur düşmən tapdağından təmizlənsin, Vətən uğrunda şəhid olan döyüş yoldaşlarının ruhu şad olsun. Həm də ata yurdu doğma Qubadlının azadlığı onun üçün həyat kredosuna çevrilmişdi. Ancaq, zalım əcəl Qəhrəmanımızın ən müqəddəs, ülvü arzusunu gerçəkləşdirməyə macal vermədi. 2001-ci il avqustun 16-da xidməti vəzifə dövründə bu həyatla birdəfəlik vidalaşmalı oldu. Yaşasaydı bu gün canı - qanı qədər sevdiyi, namusu, qeyrəti saydığı torpaqlarımızın azad olunduğunun şahidi və əlbəttə ki, o döyüşlərin iştirakçısı olacaqdı.. Yaşasaydı bu gün doğma ata - baba yurdu Qubadlıda gəzəcəkdi Qəhrəman zabitimiz.. Bu gün yalnız Yavərlərin ruhu dolaşır o torpaqlarda, ancaq, həm azad, həm də Qalib Ordunun, Qalib döyüşçülərinin ruhu kimi. Allah rəhmət eləsin. Yuxarıda da qeyd etdiyimiz ki, Yavər bizə əsl vətənpərvər övlad qoyub gedib.



**Bu gün Yavərin qız övladı Vəfa Yusifova atasının yolunu uğurla davam etdirir. Onun qızı Vəfa xanım bu gün Azərbaycan Silahlı Qüvvələrinin hərbi hissəsilərinin birində rabitəçi kimi xidmət edir. Vəfa Yusifova əsl vətənpərvər əsgər kimi xidməti vəzifəsini şərəflə yerinə yetirir. Ruhu şaddır bu gün Yavər Yusifovun. Ata-baba yurdu, doğma Qubadlı düşmən tapdağından azad olunub. Qız övladı Vəfa isə əsl vətənpərvər kimi onun yolunu davam etdirir.**

**Əntiqə**

---

**Adalet.az-ın əməkdaşı 1905-1906-cı illərdə erməni-müsəlman davasıyla bağlı tarixi hadisələri silsilə şəklində oxuculara təqdim etməyə start verib. İlk yazı erməni Lalayevin Bakıda törətdiyi qətldən bəhs edir:**

# Lalayevin Bakıda törətdiyi hadisə və Tağıyevdən xilası üçün kömək istəməsi

### *Lalayevin Bakı şəhərində törətdiyi əhvalat*

Bakı şəhərində erməni milliyyətinə mənxub olan Lalayev soyadlı bir nəfər vardı, karxana sahibi idi. Bu erməni var-dövlətinin çoxluğundan özünü hədsiz dərəcədə qudurğan aparırdı. Belə ki, ermənilərin məclislərində və ya yığıncaqlarında müsəlman tayfasının adı çəkiləndə o, ermənərə müraciətində deyirdi ki, "sizə ar olsun, müsəlmanın adı gələndə titrəyirsiniz, müsəlman kimdir ki, onlardan belə qorxursunuz? Mən müsəlmanları bir milçək və qarışqa hesab edirəm. Onlar od olsalar da özlərini yandıra bilməzlər".

Sabunçulu Ağa Rəzi öldürüldükdən sonra Bakıda baş verən iğtişaş zamanı hər tərəfi tüfəng və tapança gurultusu və müsəlman igidlərini nə"rəsi və "ya Əli" sədası bürüyərkən həmin Lalayev qabaqcadan evində topladığı döyüş silahlarını işə saldı. Onun yaratmış olduğu 20-30 nəfərdən ibarət erməni quldur dəstəsini silahlandıraraq müsəlmanları qırmaq üçün onlara tərəf yönəltdi.

Lalayevin əmri ilə evinin ətrafında olan bütün qapı-darvazalar bağlandıqdan sonra həmin quldur dəstənin üzvləri evin pəncərə, qapı və bacaları arxasında mövqe tutaraq küçədən gəlib-keçən müsəlmanları atəşə tutdular. Bunun nəticəsində gediş-gəliş dayandı. Həmin gün bizim qarabağlı Tağı bəy Şirin bəy oğlunu qardaşı uşaqları evlərinə qonaq çağırmışdılar. Tağı bəy Şirin bəy oğlu faytonla həmin küçədən keçərkən Lalayevin evindən evindən həmin quldurlar tərəfindən atəşə tutularaq öldürülmüş, faytonçu isə ağır yaralanmışdı. Bu vaxt Bakı əhalisi arasında böyük şöhrət tapmış Ağakərim adlı bir nəfər mərd və igid oğlan öz silahlı dəstəsi ilə Bakının küçələrində cövlan edərək azərbaycanlıların həyatın qəsd edən erməni quldurlarını cəhənnəmə vasil edirdi.

Nəhayət, onlar gəlib Lalayevin evi yerləşən küçəyə çatdılar. Ağakərim öz dəstəsini iki yerə bölüb birinə divarlar arxasından Lalayevin evini gülləyə tutmasını əmr edir, digər hissəsinə isə külüng-balta və lomla evin darvazasını açma əmrini verdi. Üçüncü dəstə güllə yağışının altında divarların dibi ilə Lalayevin evinin darvazasına yaxınlaşıb, lom və külünglə darvazanı dağıtmağa başladılar. Onlar əllərindəki alətlərlə darvazanı parça-parça edib yerə saldılar. Ağakərim və onun dəstəsi qəzəblənmiş aslan kimi "ya Əli!" sədası altında hücum çəkib içəri doldular. Camaat tüfənglərin gurultusundan və igidlərin nərəsindən dəhşətə gəldi. Lalayevin evində olan quldurlar karıxıb mat qaldılar. Onlar tüfənglərini atıb qaçmaq istəyərkən Ağakərimin dəstəsi onları bir-bir qətlə yetirdi və evdə gizlənənləri də çıxarıb cəzalarına çatdırdılar. Bundan sonra Ağakərim bir neçə nəfərlə Lalayevin otağına daxil oldu.

Ağakərim irəli gəlib dedi:

- Allah saxlasın, keyfin necədir? O müsəlmanları ki, sən milçək və qarışqa hesab edirdin, indi onların hər biri şirinərə dönüb qulluğuna gəliblər.



Lalayev söyüd ağacının yarpağı kimi tir-tir titrəyərək dedi:

- Qələt eləmişəm, məni bağışlayın. Bu gün bəxşiş günüdür, öz zəhmətinizin əvəzində nə qədər pul lazımdır, götürün. Sandıqda kupon kağızları var. Götürün, aparın, xəzinə və bankdan pul alın. Uşaqların arasında bölün. Ağakərim dedi ki, biz buraya puldan ötrü gəlməmişik. Bu millət davasıdır. Milləti müdafiə etməkdən ötrü biz can qoymuşuq və bu məqsədlə də buraya gəlmişik. Millət yolunda biz pula satılanlardan deyilik.

Bu vaxt Lalayevin övrəti gəlib özünü ərinin üstünə saldı və ağlaya-ağlaya Ağakərimə kinnət elədi ki, siz gəlin bunu öldürməyin. Sizə nə qədər pul lazımdır, durum gətirim. Ağakərim övrətə dedi ki, bizə pul lazım deyil. Sənin bu kişin gərək öldürülə. Sənin kişin çox qürrələnib erməni məclislərində deyirmiş ki, müsəlmanlar mənim yanımda bir milçəkdir. Yarım milyon pul qoyub, onların hamısını məhv edərəm .

Əlavə: Belə deyirlər ki, bu halətdə Lalayev Zeynalabdin Tağıyevin yanına bir adam göndərib, özünün xilas edilməsini xahiş eləyir. Hacı isə buyuru ki, bu, mənə dəxli olmayan işdir. Baş verən hadisə isə millət məsələsidir, mən nə deyə bilərəm?

Xülasə Ağakərim nə qədər çalışdı ki, övrət Lalayevdən aralansın, mümkün olmadı. Qəflətən camaatın içərisindən naməlum bir şəxs övrəti güllə ilə vurub öldürdü. Ağakərim onu mzəmməd etdi. Sonra isə Lalayev bir neçə güllə vurub öldürdü.

Lalayev qətlə yetirildikdən sonra hamı evdən bayıra çıxdı. Evin hər yanından üstünə neft çiləyib, od vurdular. Ev böyük partlayışlarla yanmağa başladı. Bu da onu göstərdi ki, Lalayevin evinin zirzəmiləri yeşik-yeşik hərbi sursat və partlayıcı maddələrlə dolu imiş. Evdən qalxan gurultunun və partlayışın səsindən yaxında olan adamlar qulaqlarını tutaraq hərə bir tərəfə qaçırdı. Ev sursatlarla birlikdə yanıb külə döndü. Deyilənə görə, bir ay sərasər evdən tüstü kəsilmədi.

Belə deyirlər ki, Lalayevin xoşsifət gözəl bir qızı varmış. Həmin qıza heç kəs toxunmayıb, mehribamlıq göstərib və gətirib Hacı Zeynalabdinin qızlar məktəbində yaxşı əmin adamlara tapşırıblar".

**Mənbə: "Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni müsəlman davası" kitabı.**

**Ardı var...**

**Hazırladı:**
**Vasif Əlihüseyn**

---

*Elman Eldaroğlu*

# "Mən belə dünyanın nəyindən küsüm?"



***Məmməd Arazın 90 illiyinə həsr olunan tədbirlər niyə keçirilmir?..***

***"Bir taleyin oyununda cütlənmiş zərik,***
***Yüz il qoşa atılsaq da qoşa düşmərik.***
***Bir zərrənin işığına milyonlar şərik,***
***Dünya sənin,***
***Dünya mənim,***
***Dünya heç kimin...***
***Çevrəsindən çıxsa əgər sevda fırfıran,***
***Bir ümidin ətəyindən tutub da fırlan,***
***Eşidərsən: pıçıldayır yıxılan, duran,***
***Dünya sənin,***
***Dünya mənim,***
***Dünya heç kimin...***
***Bu get-gəllər bazarına dəvədi dünya,***
***Bu ömür-gün naxışına həvədi dünya.***
***Əbədiyə qəh-qəh çəkər əbədi dünya,***
***Dünya sənin,***
***Dünya mənim,***
***Dünya heç kimin...***
***Ayaq saxla, dövrənə bax ötəri belə,***
***Min illərdir Araz belə, Həkəri belə.***
***Axşamların, səhərlərin təkəri belə,***
***Dünya sənin,***
***Dünya mənim,***
***Dünya heç kimin...***
***Gülünclərə gülünc gələn bu ada güldüm,***
***Yüyəninə hər əl yetən bu ata güldüm,***
***Mən özümlə oynadığım şahmata güldüm...***
***Dünya sənin,***
***Dünya mənim,***
***Dünya heç kimin..."***



***Bəli, heç kimə qalmayan bu dünyada sözübütöv, mərd, əyilməz bir şair də var idi. Nə mükafat almaq üçün, nə vəzifə kürsüsünə qalxmaqdan ötrü heç vaxt ruhunu satmadı, əl açıb dilənmədi. Kişi kimi gəlmişdi, kişi kimi yaşadı və kişi kimi də getdi. Şəxsiyyəti ilə yaradıcılığı üst-üstə düşən nadir qələm adamlarından biriydi Məmməd Araz...***

***"1986-ci ildə xəstəxanada yatırdım. O vaxt filologiya elmlər doktoru Maarifə Hacıyeva məni ziyarətə gəlmişdi. Onunla ailəvi münasibətimiz vardı. Mənim Xalq Təsərrüfatı İnstitutunda təhsil almağımda o xanımın böyük rolu olub. Maarifə xanım gələndə bir qazan yemək və bir kitab gətirmişdi.***

***O gedəndən sonra kitabı vərəqlədim, gördüm, Məmməd Arazın kitabıdır, üstündə yazılmışdı ki, "Dünya sənin, dünya mənim, dünya heç kimin".***

***Bu şeiri oxuyanda isə kövrəldim. Onda vəziyyətim yaxşı deyildi. Dedim, ay Allah, uşaqlar körpədir, mən dünyamı dəyişsəm, onları kim saxlayacaq, kim onlara havadar olacaq? Bu, mənə çox pis təsir elədi, elə o nəğməni o xəstəxanada stolun üstündə çırtma vura-vura yazdım."- Bu kəlmələr xalq artisti Niyaməddin Musayevə məxsusdur...***

***...Sağlığında şairi bir sıra orden və medallarla, eləcə də fəxri adlarla mükafatlandıran Ulu öndər sonralar bu nəğməni dinləyərkən kövrəlmişdi...***

***2023-cü ilin oktyabr ayının 14-də Məmməd Arazın 90 illiyi tamam olur. Qəribədir, ya yeni təyin olunan mədəniyyət nazirinin bundan xəbəri yoxdur, ya da ki, müvafiq işçiləri onu məlumatlandırmayıblar.***

***Məlumatı olsaydı, yəqin ki, ötən bu səkkiz ayda böyük şairin yubileyinə belə laqeyd yanaşılamzdı, ilboyu müxtəlif tədbirlər həyata keçirilərdi...***

***..."Mən belə dünyanın nəyindən küsüm?"***

---

## *Professor: "Qarabağ ermənilərinin yarısından çoxu türkdür..."*



**"Qarabağda baş verənlər o qədər dolaşıqdır ki, onu çözmək üçün əvvəlindən başlayıb 1988-ci ilə qədər gəlib çıxmaq lazımdır ki, orda nələr baş verib, kimlər yaşayıb. İlk dəfə rusları Azərbaycana kimlər dəvət edib və orda yaşayan toplumun dini-inancı nə olub, hansı dildə danışıblar, Qarabağda tikilən kilsələr kim tərəfindən tikilib və onların bu günki ermənilərə aidiyyatı varmı?"**

Bunu Adalet.az-a açıqlamasında professor Firudin Cəlilov deyib. Professor Qarabağda yaşayan ermənilərin əslən türk olduğunu bildirib:

"Burda bizim tarixçilərin böyük günahı var. Gərək vaxtilə bu məsələləri araşdıraydılar. Qarabağ ermənilərinin yarısından çoxu türkdür və onlar vaxtilə xristianlığı qəbul ediblər. Sonra islamlaşma gedəndə onların xeyli hissəsi İslam dinini qəbul edib, amma bir hissəsi isə xristianlıqda qalıb. O xristianlıqda qalanlar isə erməniləşdi. Təsəvvür edin ki, iki əmioğlundan biri müsəlman, digəri isə xristian oldu. Zaman-zaman onların arasında dini müharibələr getdi və buna da erməni-müsəlman davası deyirlər. O erməniləşən Qarabağ türklərinə dönmə ermənilər deyirlər. Dönmə ermənilər isə bizə qarşı əsl ermənilərdən daha qəddardır. Bu gün Qarabağda yaşayanların çoxu o dönmə ermənilərdir. Onlarda tarixdən gələn bir nifrət, kin var. İrəvan erməniləri isə dönmə erməniləri qəbul etmir. Bu mənada bunları nəzərə almaq lazımdır".

## *"Azərbaycan öz mövqeyində israrlıdır, birmənalı olaraq..."*



**"Qarabağla Bakının münasibətlərinin kəskinləşməsi açıq-aşkar göz qabağındadır. Əlbəttə, bu istənilən halda hər hansı bir provakativ hərəkət nəticəsində münaqişənin yenidən qızışmasına səbəb ola bilər"**

Bunu Adalet.az-a açıqlamasında "Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev deyib. A.Əliyev bölgədə hərbi münaqişənin baş verə biləcəyini bildirib: "Burda söhbət hərbi münaqişədən gedir. İndiyə qədər bir neçə belə hadisələr olmuşdu və yenə də davam edə bilər. Burda məqsəd Azərbaycana təzyiqi artırmaqla, onun Xankəndiylə hər hansı bir beynəlxalq müstəvidə vasitəçilərin iştirakıyla danışıqlar aparılmasına nail olmaqdır. Azərbaycan isə öz mövqeyində israrlıdır, birmənalı olaraq reinteqrasiya prosesini müzakirə etmək istəyir".

Qeyd edək ki, Qarabağda yaşayan ermənilərin Yevlax görüşündən imtina etməsindən sonra erməni silahlı birləşmələrinin yenə də Qarabağa silah daşıması müşahidə olunur. Ardıyca isə demək olar ki, hər gün mövqelərimiz atəşə tutulur.

**Vasif Əlihüseyn**

---

**Azərbaycanda yeni doğulan körpələrin sayında qız uşaqlarının payı azalmaqda davam edir.**

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-iyun aylarında ölkə üzrə 53918 doğulan körpə qeydə alınıb. Doğulanlar arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,2 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,8 faiz olub.

Məsələ ilə bağlı açıqlama verən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aparıcı məsləhətçisi Sədaqət Rəhimova bildirib ki, Azərbaycan Respublikasının qanunvericiliyində cinsi mənsubiyyətinə görə ayrı-seçkilik yolverilməzdir.

"Təəssüflər olsun ki, ölkəmizdə ən geniş yayılmış cinsi mənsubiyyətə görə ayrı-seçkilik hallarından biri selektiv abortlardır. Belə ki, bir çox ailələrdə qadınların reproduktiv sağlamlıq hüquqları qorunmur, ailə üzvlərinin istəyinə əsasən qadın hamiləliyi süni şəkildə dayandırmağa məcbur edilir. Bəzən də qadın yalnız qız uşaqları dünyaya gətirdiyi üçün tərk edilir.

# Azərbaycanda qız uşaqlarının sayı niyə azalır?



Ümumiyyətlə, oğlan uşaqlarına üstünlüyün verilməsi ölkədə mövcud olan gender stereotipləri, oğlan uşaqlarına daha yüksək dəyər aşılayan patriarxal ailə strukturu və sosial normaların təzahürüdür, ölkədə gender əsaslı cins seçiminin kökündə dayanan əsas səbəbdir", - deyə o, qeyd edib.

S.Rəhimova vurğulayıb ki, bütün bu halların qarşısının alınması məqsədilə dövlət tərəfindən silsilə tədbirlər həyata keçirilir.

"Belə ki, "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər Planının əsas məqsədi uşaqların doğulanadək cins seçiminin qarşısının alınması və ailələrdə doğulan uşaqlar arasında qız uşağına nisbətən oğlan uşağına üstünlüyün azaldılması, bu üstünlüyün kökündə dayanan gender stereotiplərinin aradan qaldırılmasıdır.

Tədbirlər Planında əks olunan bəndlərlərlə bağlı aidiyyatı icraçı qurumlar tərəfindən müvafiq tədbirlər həyata keçirilir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən də mövzu ilə bağlı regionlarda silsilə maarifləndirici tədbirlər həyata keçirilir, bukletlər çap olunur, sosial çarxlar çəkilir.

BMT-nin Əhali Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə həyata keçirilən "Cənubi Qafqazda gender əsaslı cins seçimi və aidiyyəti zərərli təcrübələrin aradan qaldırılması" Qlobal Proqramı çərçivəsində bu sahədə işlər davam edir", - deyə Rəhimova əlavə edib.

---

## *Əhalinin nominal gəlirləri açıqlandı*

**İlkin məlumatlara görə, 2023-cü ilin yanvar-iyul aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 14,8 faiz artaraq 44 milyard 558,6 milyon manat və ya hər nəfərə orta hesabla 4 min 393,6 manat olub.**

Dövlət Statistika Komitəsindən bildirilib ki, əhalinin sərəncamında qalan gəlirləri 39 milyard 306,9 milyon manat təşkil edib.

---

## *Hərbçimizin ömürlük azadlıqdan məhrum edilməsi tələb olunur*



**Yolu azaraq Ermənistan ərazisinə keçən və saxlanılaraq qondarma qətl ittihamı ilə 20 il müddətinə həbs olunan Azərbaycan hərbçisinin ömürlük azadlıqdan məhrum edilməsi tələb olunur.**

Adalet.az bildirir ki, Azərbaycan hərbçisi Hüseyn Axundovun öldürdüyü iddia edilən şəxsin yaxınları ona verilən 20 illik həbs cəzasının yüngül olduğunu düşünürlər. Onlar məhkəmə qərarından şikayət verərək, Hüseyn Axundovun ömürlük azadlıqdan məhrum olunmasını tələb edirlər.

Qeyd edək ki, 2023-cü ilin aprelində Azərbaycan ordusunun əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu itkin düşüb.

Məlum olub ki, onlar Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən yolu azaraq Ermənistan ərazisində keçib. Az sonra hər iki hərbçi Ermənistan tərəfindən əsir götürülüb.

Aqşin Bəbirov və Hüseyn Axundov "Ermənistanın dövlət sərhədini qanunsuz keçməkdə, odlu silah və döyüş sursatı daşımaqda" ittiham olunublar. Hüseyn Axundov "Zəngəzur mis-molibden kombinatının gözətçisini qətlə yetirməkdə" də təqsirləndirilir.

Aqşin Bəbirov 11,5 il, Hüseyn Axundov 20 il müddətinə azadlıqdan məhrum olunub./apa

---

## *Politoloq: "Qarabağda hərbi toqquşma riski var..."*



**"Ermənistanın BMT Təhlükəsizlik Şurasında Azərbaycanla bağlı məsələni qaldırması, həmçinin şərti sərhəddə ordu birliklərini cəmləşdirməsi Brüssel və Vaşinqton formatının üstündən xətt çəkir"**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. Politoloq bildirib ki, bununla Ermənistan Azərbaycana beynəlxalq təzyiq etməyə çalışır:

"Ermənistan BMT Təhlükəsizlik Şurasına Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməniləri " blokada"da saxlaması və Laçın yolunun açılması üçün şikayəti müsbət nəticələnməyəcək.

Ermənistanın bu siyasəti Cənubi Qafqazda gərginliyi artırmaqla yanaşı, İrəvanın Azərbaycana beynəlxalq təzyiqin formalaşdırılmasının tərkib hissəsidir. Bununla da Azərbaycana hərbi hücum etməsini legitimləşdirməyi planlaya bilər.

Ermənistan iki istiqamətdə həm diplomatiyada, həm də şərti sərhəddə hücuma keçməyə çalışır. Fransa, İran prorsesdə Ermənistanı dəstəkləyir. Hərbi toqquşma riski var və Ermənistan tərəfi sülh müqaviləsinin bağlanmasından boyun qaçırıb".

**Vasif Əlihüseyn**

---

*Cəlil Cavanşir*

# Bu boyda şairi qan aparır...



**Səhər ədəb-ərkanla çıxdım evdən, uzun müddətdi geyinmədiyim ağ futbolkamı da keçirmişəm əynimə. Azca da başım ağrıyır, yüngülvari. Həyətə çıxanda hiss elədim ki, hardasa 90 dərəcə isti var.**

**Acığa bir siqaret yandırdım, üzümü səmaya tutub ərklə gileyləndim: "Nədən, Tanrım? Nə məcburdu?"**

**Səmadan cavab gəlmədiyinə görə qeyzlə yönəldim dayanacağa.**

**Dayanacaqda siqaretin birini də yandırdım. Artıq kürəyimdən sel kimi tər axır, bitab-bitab siqaret sümürürəm. Hiss elədim ki, alnımın da təri gəlib burnumun ucundan damcılayır. Acığa tərimi silmirəm.**

**Siqaret damağımda tıncıxa-tıncıxa zəmanədən şikayət ruhunda qəzəl düşünürdüm ki, hiss elədim burnumun ucundan axan tər bulaq kimi çağlayır. Əlimi atdım ki, siqareti damağımdan götürəm, gördüm siqaret qızarıb. Sən demə səhərdən burnumun ucundan damcılayan da tər yox, qan imiş. Ağ futbolkanın da sinəsi qıpqırmızı, Mançester Yunayted formasına dönüb.**

**Əvvəl fikirləşdim heç nə olmaz, yoldan futbolka alıb dəyişərəm. Amma baxdım sözün əsl mənasında qan-tərə batmışam. Dayanacaqdakı oxucularımdan biri də səsini çıxarmır. Heç bir reaksiya yoxdur.**

**Hərə bir tərəfdə tıncıxır. Qəfil 7-8 yaşında, nənəsinin əlindən tutan bir uşaq çığırdı:**

**- Ay nəəəəə, əmiyə bax, qanayır.**

**Nənə nə desə yaxşıdı?**

**-Gij-gij danışma a gədə. Qanamır, qanı axır.**

**Sonra da döndü mənə:**

**-Ay qardaş, bir az aralıda dayan, uşaq qandan qorxur.**

**Hiss elədim bir azda dayansam, yıxılacam. Əlimlə burnumu tutub qaçdım evə. Bir az da boğazıma qan getdi, dəmir tamı verir, azca da qızıləhməd alması.**

**Nə isə, gəldim evə. Sabah-sabah qanıma bələnib, dincəldim. İndi də uzanmışam divanda, dayanacaqdakı laqeyd oxucularımı fikirləşirəm. Bu boyda şairi qan aparır, bir oxucusu da istifini pozmur.**

**Nədən, Tanrım? Nə məcburdu?**

*Əbülfət MƏDƏTOĞLU*



# Çingiz Əlioğludan ÜRƏK xəbərdarlığı

## Bunun nədənini yazını oxuyanda biləcəksiniz...

**Bəri başdan deyim ki, bugünkü Azərbaycan ədəbi camiyəsinə bələd olduğum ilk gündən tanıdığım, oxuyub izlədiyim və həm də özümə böyük dost, doğma qardaş bildiyim imza sahibləri də var. Onların yaradıcılıqları kimi, şəxsiyyətləri də bütövdür. Yəni bu adamlar təkcə şair, nasir yox, həm də Azərbaycan İNSANI kimi də həmişə mənim üçün maraqlı olublar və onu da etiraf edim ki, hələ gəncliyimdə, tələbəlik illərimdə onların hər kəs tərəfindən görünən hərəkətlərini, jestlərini özümünküləşdirməyə, özümə köçürtməyə də çalışmışam. Bu gün onlardan biri, özümün, ailəmin doğması olan Çingiz Əlioğlundan danışmaq istəyirəm.**

**Çingiz Əlioğlu yaradıcılığı mənim üçün ədəbiyyatımızda ayrıca bir səhifədi. Bu yaradıcılıqda bir ağayanalıq, bir özünəməxsusluq, bir kişi köynöylüyü, yəni sözü olduğu kim təqdim etmək məharəti var. Çingiz müəllim hər bir şeirində öz kübarlığını, öz zənginliyini ifadə etməyi bacaran Azərbaycan şairidi və mən də onunla olan dostluq münasibətindən ailəvi bağlılıqdan həmişə qürur duymuşam. Elə bu yazını yazmağa başlayanda ilk ağlıma gələn uzaq gəncliyimin gözəl xatirələri. Rəhmətlik Nüsrət Kəsəmənli, Sabir Rüstəmxanlı və Çingiz Əlioğlu "üçlüyü" oldu. Necə deyərlər, həyatın mükəmməl bir dostluq nümunəsi... Nə isə.**

**Bəli, Çingiz müəllimin bütün kitabları mənim üçün maraqlıdı, əzizdi və mən də o kitabların hər biri ilə təmasda olanda nəsə öyrənmirəm, nəsə görüb götürürəm. Bu dəfə də "Ömür ağacı" ilə həmsöhbət oldum. Şeirləri oxuduqca yaranan mənzərənin içərisində bir anlıq dayandım. Nəfəs dərmək üçün...Özümü toparlamaq üçün. Çünki söhbət ürəkdən gedirdi. Yəni Çingiz Əlioğlunun "Ürəyim" şeirindən. O şeirdə Çingiz müəllim yazır ki:**

***Sevdalı ürəyim, aşiq ürəyim,***
***Nə çağlayıb, nə coşursan yenə də?***
***A darda dayağım, bərkdə gərəyim,***
***Qanad açıb, pərvazlanma sinədə.***

**Yəqin ki, siz də bu məqamı, bu halı yaşamısız, ürəyinizlə söhbət etmisiz, onu dilə tutmağa, ondan sirr almağa, onu ovutmağa, onu yönəltməyə çalışmısınız. Xüsusilə ürəyin dəliqanlığı yerə-göyə sığmayan vaxtlarında siz də onu qapı ağzında dayanıb gözləmisiz... Mən bu sözləri, bu fikirləri həqiqi mənada yaşamış biri kimi bilgisayara diktə edirəm və bilirəm ki, ürəyin yaman şey olduğunu deyən nasirimiz də yanılmayıbdı. Ona görə də Çingiz müəllimin sevdalı, aşiq ürəyinə üz tutmasını məhz həmin o yaşamlarla əlaqələndirirəm. Bu məqamda da mən də ürəyimin pəncərəsini döyüb onun səsini sözə çevirmək istəyirəm və bu istəyimin təbii olduğunu da qəbul edəcəyinizə inanıram. Ürəyimə deyirəm ki:**

***Bu yol uzaq, həm yaxın***
***Qəm gəlir axın-axın.***
***Seyrəlir solun, sağın -***
***Təklənirsən, ürəyim.***

**Hə, qəmin axın-axın gəldiyi, solun-sağın boşaldığı bir zamanda ürəyin təklənməsi üzücüdü. Bunu hər kəs bilir. Elə mən də bildiyimə görə həmin o yaşadığımı misralara köçürmüşəm. Çalışmışam ki, qəmin axın-axın gəldiyi bir zamanda təklənmiş ürəyimə dayaq durum. Çünki Çingiz müəllim də ürəyi ilə danışanda vurğulayıb ki, "Darda dayağım, bərkdə gərəyim"sən! Belə olan halda təklənmək yəqin ki, dözüləndi. Lakin bunun nə qədər səmimi olduğunu deməyi bir kənara qoyub, həm də sadəlövhlük olduğunu da hiss edirəm. Həmin o hiss etmə məqamı da ustadım Çingiz Əlioğludan gəlir. Çünki ürəyi ilə danışan Çingiz müəllim şeirinin ardını belə davam etdirir:**

***Sadəlövh ürəyim, uşaq ürəyim,***
***Hər sevincə havalanıb ucalma.***
***Ünvan gəzir hələ neçə diləyim,***
***Sən indidən tez xərclənib qocalma.***

**Bəli, burda artıq sadəlövh, uşaq ürəyin necə şıltaq olduğunu hiss etmək mümkündü. Çünki o, öz sahibinə qəribə məqamlar yaşadır. Gah sevincdən coşur, ucalır, gah özünü oda-közə, sağa-sola çırpıb xərcləyir və deməli, həm də özünü tükəndirir, qocalığa yaxınlaşdırır. Bu da ürək sahibini rahatsız edir, onu dilə gətirir. Bax, bu da artıq Çingiz müəllimin yumşaq bir şəkildə ürəyinə həm xatırlatmasıdı, həm də onu özünə toparlamağa dəvət etməsidir. Mən də təklənən ürəyimin halını düşünə-düşünə içimin sızıltısını, iç dünyamın təlaşını sakitləşdirməyə, ona təsəlli verməyə cəhd edirəm. Bu cəhdin də təbii ki, şeirdə özünü ehtiva edir:**

**Qaşıq qanım sovrulur,**
**Yanır, canım qovrulur.**
**İçində dərd qıvrılır -**
**Səksənirsən, ürəyim.**



**Ağrıdan qıvrılan, gününü, anını, istəklərini bir qaşıq qan kim sovuran ürək həm də bir səksəkə yaşayır, bir təlaşa imza atır. Bu da həyatın ona zaman-zaman vurduğu zərbələrin qarşısında açılan yeni mənzərələrin təpkisidir. Çünki arzuladığı, uğrunda çarpışdığı gerçəkliklər ona ağrı-acı və səksəkə hesabına başa gəlir. O özünü nə qədər məşəl etsə də, işığı, daha doğrusu o məşəlin nuru bütün istəklərə qovuşmağa yetmir. Axı o təkdi. Deməli, bu məqamda da Çingiz Əlioğlunun sözünə, şeirə ehtiyac yaranır. Mən bir oxucu kimi onun ürəyi ilə etdiyi söhbətin sonuna şahid olmağa can atıram. Çingiz Əlioğlu da yazır ki:**

***A məşəl ürəyim, işıq ürəyim,***
***Demirəm ki, bir tonqal ol - qoru yox.***
***Deyirəm, gəl sakit yaşa, ürəyim,***
***Özümüzü qələbəyçün qoruyaq.***

**Hə, görün şair, dostum məşəl etdiyi ürək üçün sonda hansı diləyi kağıza köçürür, hansı istəyimi bəyan edir. Axı məşəl, işıq olan ürək özünü nə qədər yandırıb-yaxsa da, hər şeyə nail ola bilməyəcək. Ona görə də bir az təmkinli, bir az səbirli, bir az sakit tərzdə baş verənlərə dəyər verərsən, onda ən azından uğurunda mücadilə edilən qələbəni görə bilər, ona qovuşa bilər. Bunu da şeirin sonunda Çingiz Əlioğlu həm ürəyinə deyir, həm də oxucularına. Mən də zamanın yaşatdıqlarını, həyatın təpkilərini bir daha götür-qoy edib anlayıram ki, nə qədər bu həyat var, nə qədər ürək döyünürsə, deməli təklənmək də, səksəkə içərisində olmaq da ürəyimin alın yazısıdı və deməli bu naxışları olan ürəyin hərdən özünə də, ətrafa da şəklənməsi də təbiidir. Mən də bununla barışıb yazıram:**

**Bozarır üzü yazın...**
**Höküm etdin düzün yazım.**
**Dağa dirənir ağzım -**
**Şəklənirsən, ürəyim...**

**Gördüyünüz kimi, divara, dağa gedib dirənmək artıq son. Bu sona qədər də döyünən ürəyin yanında olmaq, onu qorumaq təkcə özümüz üçün yox, həm də çevrəmiz üçün gərəklidir. Xüsusilə millətə fayda verən, onu təmsil edən, onun üçün yazıb-yaradan, vurub ucaldan şərtlər üçün... Və Çingiz Əlioğlunun ürəyi ilə olan söhbətində mən bir daha inandım ki, ürəyi qələbə üçün qorumaq vacib şərtdi. Kaş ki, biz bunu bacara bilək.**

## Türkiyədə 700 min illik tarixi olan metal emalatxanası aşkar edildi

**Elazığın Harput Məhəlləsində arxeoloji qazıntılar nəticəsində 700 min illik tarixi olan beş metal emalatxanası aşkar edilib.**

Qazıntılar Fırat Universiteti Təhsil Fakültəsinin müəllimi Prof. Dr. İsmayıl Aytaçın rəhbərliyi ilə aparılıb.

"Burada göründüyü kimi, orta əsrlərdə beş metal istehsalı emalatxanası fəaliyyət göstərib. Bu, filizlərin qızdırılaraq məhsula çevrildiyi emalatxanadır. Bildiyim qədərilə, Türkiyədə metal emalatxanası yoxdur. Bu il emalatxanaları bərpa edib, divarlarını, üst örtüyünü bağlayıb turistlərin istifadəsinə verəcəyik. Bu, bir ilk olacaq", - deyə İ.Aytaç bildirib.

**Qeyd edək ki, sivilizasiyaların mərkəzi kimi mühüm tarixi və dini dəyəri olan Harput Məhəlləsinin YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilməsi üçün 10 il öncədən qazıntı işlərinə başlanılıb. Bu müddət ərzində Prof. Dr. Aytaçın koordinasiyası ilə həyata keçirilən işlərdə silahlar, ox ucları, katapult daşları, keramika və şüşə də daxil olmaqla 100 mindən çox tarixi əsər üzə çıxarılıb.**

# Vaqif Bəhmənlinin SÖZ PORTRETİ

## "Qarabağın qələmi AQİL ABBAS" işıq üzü gördü

**Azərbaycan oxucusunun, xüsusi ilə poeziya həvəskarlarının özünü və sözünü çox yaxşı tandığı şair - publisist Vaqif Bəhmənli nin bu günlərdə yeni kitabları işıq üzü görüb. Həmin yeni kitablar dedikdə , mən müəllifin dörd cilddən ibarət olan " Seçilmiş əsərləri ilə yanaşı**




**boyük oxucu marağına səbəb olmuş "Ədəbi portret" seriyasından olan " Qarabağın qələmi AQİL ABBAS" kitabını da nəzərdə tuturam.**

Redaktoru şair-publisist, AYB-nin katibi, " 525-c0 Qəzet"-in baş redaktoru Rəşad Məciddi. "Zərdabi Nəşr" MMC tərəfindən çap olunmuş 111 səhfəlik bu kitab yazıçı publisist , Əməkdar jurnalist, millət vəkili, "Ədalət" qəzetinin təsisçi və baş məsləhətçisi Aqil Abbas barəsindədir. Bir az da dəqiq ifadə etsəm bu kitabın müəllifi öz qələminin böyük imkanlarından bütünlüklə yararlanaraq Aqil Abbasın portretini sözlə, qələmlə çəkib.

Kitabı oxuduqca adamın gözü önündə Aqil Abbas bir neçə prizmadan obrazı , lap dəqiqi kimliyi canlanır.Oxucu öncə Aqil Abbası gənc bir Qarabağlı - Ağdamlı yurnalist kimi görür. Onun Ağdamdakı ata evinə qonaq gedir...Atasını, ailəsini tanıyır....onların xarakterik cizgiləri ilə tanış olur...

Daha sonra oxucu gənc yazıçı Aqil Abbası ilk uğurlarından xəbər tutur...Onun səmimi və təbii , yəni Qarabağ koloritli yaradıcılığı ilə yazıçı emalatxanasına baş çəkir.... Bax elə bu məqamın ardınca erməni işğalı, 30 illik Qarabağ həsrəti boy göstərir. Aqil Abbas bu mərhələdə təkcə yazıçı kimi deyil , həm də VƏTƏNDAŞ kimi oxucuya təqdim olunur! Vaqif Bəhmənli bu bölümdə böyük ustalıqla Aqil Abbasın QARABAĞ sevgisini filimləşdirir. Əsəri oxuduqca qəhrəmanın Qarabağa - Şuşaya mütləq QAYDIŞIN təsir dairəsindən şıxa bilmirsən! Bu QAYDIŞIN mütləqliyinə ƏMİN olursan! Aqil Abbasın inandırmaq gücü Vaqif Bəhmənli qələmində yenidən təsdiqlənir! Onun, yəni Aqil Abbasın "Dolu"-sunun sonluğunun qaçılmazlığı oxucuya həzm etdirilir!

Kitabda Aqil Abbasın millət vəkili, içtima-siyasi xadim obrazı da bütün parametirləri ilə təqdim olunub. Elə buradaca qeyd etmək yerinə düşər ki, müəllif, yəni Vaqif Bəhmənli öz qəhrəmanını çox yaxından və çox yaxşı tanıdığından əsərində heç nəyi gözdən qaçırmayıb. Ona görə də əsər dolğun və mükəmməl bir şəkildə oxucu dünyasına qədəm qoyub, təqdim edilib.

Mənə görə bu kitab Aqil Abbasın 70 yaşının SÖZ PORTİRETİDİ ! Bu portireti isə onun gənclik dostu, zamanında bərabər çalışdığı, həyat və yaradıcılığını, xarakteriq cizgilərini, ailəsini gözəl bilən, tanıyan və sevən şair-publisist Vaqif Bəhmənli həqiqətən SÖZLƏ ÇƏKİB!

**Bəli, Çəkiliş də, yazılış da alınıb! Zənnimcə bunun bir səbəbi də mövzunun Qarabağla bağlılığı, Qarabağın QƏLƏMİ olmasıdı!**

**Əbülfət MƏDƏTOĞLU**



*Aida Adıgözəl*

# Bir yarpaq xatirə...

**1976-cı ilin elə bu vaxtlarıydı, rəhmətlik Qaraca kişinin avtobusuyla 4-5 ailə yığışıb 15 günlüyə Qubanın Xaltan İstisu sanatoriya-kurort mərkəzinə dincəlməyə gedirdik. Yolboyu gördüyüm mənzərələr üstündən 46 il keçməsinə baxmayaraq bu günkü kimi təptəzədir yaddaşımda. Yorğun avtobus dağ yolunu qalxa bilmədiyindən Qaraca kişi bizi Gil-Gil çayının yatağı ilə aparıb birtəhər o sanatoriyaya çıxartdı. Hamı yerə tökülüşüb məkanlamaq üçün çadırlarını qurmağa başladı, biz çadırımızı bir az yüksəkdə qurduq. Dedilər belə hündür yerdə quranda sel gələndə çadırın içini su basmır, çadırın ətəklərini torpaqla basdırıb yanına dayaz arx da çəkdik. Və macəra dolu 15 gün başladı...**

Sanki qalaçaya düşmüşdük, dörd tərəfi uca qayalıqlı dağlar və bu dağların tən ortasında çökəkdə yerləşən sanatoriya.

(Sanatoriyanın yerləşdiyi əraziyə baxsaq biraz da Türkiyədə yeni tikilən dünyanın 4-cü ən böyük su barajı hesab olunan Yusifeli barajının yatağına bənzəyir. Orada həmişə sel təhlükəsi yaşandığından bizim ağıllı mütəxəssislər kiçik də olsa belə bir baraj tikmək fikrini niyə reallaşdırmağı düşünmürlər çox maraqlıdır. Yaxşı su ehtiyatı mənbəyi ola bilər). Gələn qonaqlara nəsə satmaq üçün bura hər kənddən axışan yerli camaat və hər çeşiddə taxtadan hazırlanmış məişət əşyaları... Çox gözəl xidmət və yaxşı həkim kadrosu... Evimizdən apardığımız ərzaqlar qurtarandan sonra onların gətirdiyi ləzgi çörəklərindən, balqaymaq, pendir-yumurtasından alıb yeyirdik. Heç vaxt qorxaq uşaq olmamışam, hər gün çadırımızdan çıxıb biraz uzağa gedib biz gələndə dalımızca ağlaya-ağlaya qalmış bacım Səidə üçün ciblərimi quşəppəyi ilə doldurub qayıdırdım. Bu yumru nazik quru taxtaya oxşayanı şeyi mənə quşəppəyi kimi tanıtmışdılar. Guya bacıma bundan boyunbağı hazırlayacaqdım. Gələndə o cibi quşəppəyi dolu qəhvəyi naxışlı qısaqol kremplin jaketimi orda unudub gəlmişdim təəssüf ki... Bundan başqa burda yenicə nişanlanmış bir cütlük var idi. Söz-söhbət olmasın deyə hər gün məni də yanlarına salıb baş-başa qalmaqçın dağın, qayanın gizlinliklərinə qaçırdılar. Hər dəfə onları "Sevgi məkan"larına aparıb qoyduqdan sonra əllərindən qaçıb qayalıqlara dırmaşırdım. Adımı dağ keçisi qoymuşdular, doğrudan da aralanmağımla dağın başına çıxmağım çox çəkmirdi.

Hər axşam yağış, sel, gündüzlər gözəl günəş, meşə... Əslində mamamın məni ora aparmasının səbəbi vardı, doğulmayım deyə çoxlu dərmanlar içdiyindən sudurqalı dünyaya gəlmişdim. Bir balaca hirslənən kimi göyərib ürəyim gedirdi və kimsə mamama Qubadakı şəfalı bulağın bu uşağın dərdinə çarə olacağını demişdi. Həkim əvvəlcə məni ümumi hovuza saldı, o andaca ürəyim getdi və sudan çıxarılandan sonra bədənim dırnaq boyda suluqlarla doldu. Daha məni həkimin göstərişi ilə ümumi temperaturu yüksək olan hovuza deyil, bulağın gözündə aparıb çimdirirdilər. Həqiqətən də o sudurğamı orada qoyub gəldim.

O qədər şəfalı bulaqlar var idi ki, bulağın başında yatan adam gələndə sakitcə çəkilib gedən yaşıl rəngdə ocaq ilanları bu günkü kimi xatirimdədir. Sonra qayalığın lap içinə qalxanda qəribə fırlandıqca xırıltılı səs çıxaran Daş Qapılı mağara kimi ocaq vardı, əgər əlindən yerə bir şey düşərdisə onu ordan götürməməliydin. Götürmək istədiyin anda Daş Qapı qayıdıb səni sıxırdı. Bir qaya döşü vardı bəlkə o sal divardan 15 bulaq gözü açılıb axırdı, hamsının ayrıca müalicəvi adı.

Bir gecə güclü çığırtıya oyandıq, yaxın çadırın içində çılpaq halda oturmuş bir neçə qadın vardı. Deyilənə görə sünni idilər, hansısa ayini keçirirlərdi. Əlbəttə, uşaq idim, mənimçün sünni anlayışı o vaxtlar biraz fərqli yerdə idi, quyruq filan...)

Qadınların görkəmi o qədər vahiməli idi ki, vız saçları üzlərinə tökülmüş gözlərindən cin çıxırdı... vəhşicəsinə bir-birinin çiyinlərinə ağız atırdılar. Bunu görən qonaqlar hərə öz uşağını alıb qəribə təəssüratda çadırına qaçdı. İndiyədək o ayin gözlərimin önündə şəkillənir lent kimi...

**Deyirlər yaddaş beş yaşdan sonra formalaşır, mən hətta dörd yaşımda olanları belə xatırlayıram. O beş yaşımda gördüklərim 52 illik ömrümün ən büllur çağlarıdı desəm və o cür kristallıqda da saxlamışam desəm inanın...**

*Sona Çərkəz,*
*Şair-publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü*



# Ailə ənənəli ocaqda ad günü

**Mən hər vaxt düşünmüşəm ki, səmimilik və sadəlik insanlığın tərifidir... Və bir də ona əminəm ki, xarakteri, əməlləri, zəhmətsevərliyi ilə çoxlarından seçilən insanlar ətrafındakılara hər zaman nümunə olaraq yaşayırlar. Onların arasında yaxşıları və yaxşılığı unutmayanları, elinə-obasına, qohum-qardaşına etibarlı olanları hər vaxt önəmsəmişəm, yaxın hesab etmişəm.**



**Bu günlərdə 2-3 günlüyə Naxçıvana getməli oldum və bu səfərim əsasən Əshabi-Kəhf ziyarətgahını ziyarət etmək məqsədi daşıyırdı. Ondan sonra Şərur rayonuna rəhmətlik atamın da sağlığında tez-tez getdiyi əmisi evində məni gözləyən ata qohumlarımgilə yollandım. Həyat sübut edir ki, hər görüş təsadüfdən deyil, zərurətdən yaranır alın yazımız kimi.**

**Görüşlər zamanı yadda qalan xoş tanışlıqlar, söhbətlər, böyüklərimizi tanıyanların yaddaşlarında vərəqlənən xatirələr qəlbimizə iz salır. Belə görüşlərin birində qohumumuz Sabir Nəsibov və ailəsiylə söhbətləşdik, evində qonaq olduq. Deyirlər bir evin qapısından girəndə uşaqları sevinirlərsə keç başa, yox çəkilib kənarda dururlarsa geri qayıtsan yaxşı olar...**

**Sabir və həyat yoldaşı Rəna xanım ilə söhbətimiz çox gözəl təəssüratlar yaratdı məndə. Oğlu, gəlini, həddən ziyadə mərifətli olmaları, xoş auraları bu ocağın nə qədər pak olmasına nümunə idi. Sabirin həyat yoldaşı Rəna xanımın gülərüzlülüyü və bizi evində ürəklə qarşılaması da göstərirdi ki, bu ailə əsl Azərbaycan ailəsinin aynasıdı! - desəm daha doğru olar.**

**Onu da qeyd edim ki, üç gün evlərində qonaq olduğum, dəvəti ilə getdiyim, Şərur rayonunun Dizə kəndində atamın əmisi nəvəsi Məmləkətin bir neçə tərəfdən qohumluq bağı olan Sabirgilin haqqında dedikləri həqiqətən həm özünü doğrultdu, həm də həmişəlik ağlımda qaldı. Azərbaycanlı ailəsinin adət-ənənələrini qonaqpərvərliyi, gözü-könlü toxluluğu, səmimiliyi ilə öz münasibətlərində sərgiləyən bu ailəni çox sevdim.**

**Evlərində qonaq olarkən, söhbət əsnasında öyrəndim ki, 15 avqust bu evin başbiləni, yol göstərəni, bir sözlə, dayağı olan Sabir Nəsibovun ad günüdür. Həmin günlər orada ola bilməyəcəyimdən Sabir müəllimi gec də olsa yeni yaş münasibəti ilə bu yazımla təbrik edirəm. Uzun ömürlər diləyirəm. Həyat yoldaşı Rəna xanımın, oğlu Pərvizin, onun övladlarının və xüsusən də öz adını verdiyi balaca Sabirin iştirakı ilə 100 yaşını qeyd etməyini Allahdan diləyirəm.**

*Reyhan Miqdadqızı*



## *KİMYƏVİ ELEMENT*

**Mənə toxunan barmaqlarında**
**Ruhunun fizikası gizlənirdi.**
**Necə kəşf etdin məni?**
**Niyə pozdun bu ətaləti?**
**mən ki saxlamışdım**
**öz sürətimi,**
**sükunətimi**
**Sən mənə toxunana qədər...**
**Sonra sən gəldin**
**Bu dəfə isə**
**Bütün hisslərimi qarışdırıb**
**yeni bir element kəşf etdin.**
**oksigen qədər vacib,**
**su qədər dəyərli,**
**bəzən alüminium qədər yumşaq,**
**bəzən hidragium qədər təhlükəli,**
**həssas bir element...**
**Məndən elə bir şey hazırladın ki,**
**Ətrafdakılara da təhlükə oldum.**
**Nə toxunmağa icazə verdim, nə toxundum.**
**Sən də toxunma...**
**Qorxuram, ruhunu incidə bilərəm,**
**Toxunsan, səni də əridə bilərəm.**

# Ögeyik quşları

**Quşlar bir parçası olduqları təbiəti çox sevirlər. Ağaca qonur, nəğmələr oxuyur, çəmənin qoynunda otla, çiçəklə təmasda olur, onları əhatə edən hər şeylə yaxından maraqlanırlar. Təbiətlə birbaşa təmasda olan quşlar başqa heyvanlar kimi, təbiəti sirlərini insanlara nisbətən daha yaxından və dərindən anlamaq qabiliyyətinə malikdirlər... Payızda uzaq ellərə, yerlərə köç edən qaranquşlar bahar gələn kimi, görürsən ki, adamlardan qorxub çəkinmir, evdə, zirzəmidə, ya da adamların məskunlaşdığı başqa bir ərazidə yuva qurur, bala çıxardırlar. Çox hissiyatlı olan qaranquşlar adamlara etibar edir, pənah gətirirlər. Onlar bilirlər ki, insanlar onlara toxunmayacaq, təhlükəsizliklərini təmin edəcəklər. Qaranquşlar insanların xeyirxahlıqlarına şübhə etmirlər...**

Ögeyik quşları (adətən göyərçinə bənzəyən bu quşlar) adamlardan uzaq gəzir, dolanırlar. Bəlkə elə buna görə də insanlar bu quşlara uzaq, yad mənasını daşıyan ögeyik (yəni ögey) adını vermişlər. Bu quşlar adətən adamlardan uzaq gəzirlər. Ara məsafəsinə ciddi şəkildə əməl edir, nisbətən aralıda yaşamağa üstünlük verirlər... Bir dəfə necə oldusa bu quşlardan ikisi (bir ailə) bizim aynabəndin içəridən yuxarı güncündə, tavanın altında, çıxıntılı yerdə yuva qurmağa başladılar. Bizlərə məhəl qoymur, sanki hər şey əvvəlcədən razılaşdırılıb, onlar da bu razılığa əsasən öz işləri ilə məşğul olurdular. Aynabəndin bir pəncərəsi həmişə açıq olardı, qapısı da pilləkən tərəfdən idi. Qapı hündür, tavana qədər deyildi. Buna görə də ögeyiklər istədikləri vaxt gəlir, öz işləri ilə həvəslə məşğul olurdular. Bizim yaxınlıqda olmağımız onları heç narahat etmir, sanki daha əzmlə, yorulmadan çalışmağa səsləyirdi. Ögeyiklər özlərini bizə göstərirmiş kimi, tez bir zamanda əməlli-başlı, səliqəli yuva tikib ərsəyə gətirdilər.



...Ögeyiklər mövsüm ərzində adətən iki dəfə bala çıxardırlar. Və hər dəfə də iki yumurta qoyurlar. Bu yumurtalardan nadir hallarda lax çıxanı olur. Yumurtalardan adətən bir xoruz, bir fərə bala çıxır. Balalar olduqca tez böyüyürlər. Ana ögeyik balalrı təzə çıxanda onların yanından əl çəkmir. Yemi erkək, ata ögeyik daşıyır. Ana balalarını hər cür nəvaziş və qayğı ilə əhatə edir. Hələ lap balaca ikən onların üstündə yatır, soyuqlamağa qoymur. Balalar bir az böyüyüb tüklənəndə ana onlara isti olmasın deyə üstlərində yatmır, yanlarında durub səhər-axşam sayıqlıqla keşiklərini çəkir. İşləri ancaq yeyib yatmaqdan ibarət olan balalar olduqca tez böyüyrlər. Onlar bir az da böyüyüb artıq böyüklərə bənzəyən zaman anaları yuvanı tez-tez tərk edib balalarına yem daşımaqla məşğul olur. Ana ögeyik balalarına yemi mədəsində yumşaldıb, həzm üçün tam hazır vəziyyətə gətirəndən sonra verir. O balalarını ağızlarına qusmaq yolu ilə qidalandırır. Balalarının dənlikləri sinədən irəli çıxır, az qala bədənləri boyda olur. Balalar günbəgün deyil, sanki anbaan böyüyürlər. Onlar tam tüklənib böyüdükdə ana ögeyik gələcək müstəqil həyata qədəm qoymaları üçün balaları çox zaman sərbəst buraxır. Atrıq gecələr də yanlarında qalmır, toran qovuşanda yuvanı tərk edib ağacda, başqa yerdə gecələyir.

...Ögeyikin ikinci dəfə çıxartdığı balaların quyruqları tam çıxmış, sinələri də bəyaz tüklə sıx örtülmüşdü. Bugün, sabah artıq uçub gedəcək, müstəqil həyata qədəm qoyacaqdılar...Səhər obaşdan duranda ana və ata ögeyiklərin həyacanla hay-həşir salıb, şivən qopardıqlarının şahidi olduq. Onlar təşviş içərisində vurnuxur, var-gəl edir, əcaib səs çıxarırdılar. Yuvalarında nə baş verdiyinə inana bilmirdilər. Sən demə, qonşunun acgöz pişiyi gecə dərə xəlvət, tülkü bəy deyib aynabəndin ortasındakı masanın üstünə çıxıb, ordan tavana tumbalaraq totuq ögeyik balalarını tutaraq yeyib.

Ögeyiklər 4-5 gün aynabənddən əl çəkmədilər. Pəncərəyə qonub məlul baxışlarla yuvalarını seyr edir, saatlarla lal-dinməz ətrafa baxırdılar. Nəhayət, nə qərara gəldilərsə yuvaya əl gəzdirib yır-yığış etdilər. Onu sahmana salıb, bəzi çöplərini təzələdilər. Və sanki, ikinci döl boşa gedib deyə, təbiətdəki boşluğu doldurmaq üçün ana ögeyik ikisini yumurtlayıb qırt düşdü. Hər il iki dəfə bala çıxaran ögeyik bu yay üçüncü dəfə bala çıxartdı. Balalarını əsl ana nəvazişi ilə böyüdüb, qayğılarını çəkdi. Onları tez-tez yedizdirir, dimdiyi ilə başlarını, qanadlarını darayır, sığal çəkirdi. Balalar xeyli böyüdükdən sonra axşam qaranlıq düşəndə ana ögeyik pəncərəyə qonub səksəkəli halda ağaclığı göstərir, sonra bizə baxıb öz dilində nəsə pıçıldayırdı. Və uçub gedirdi. Uçub gecələmək üçün gedən ana ögeyik sanki balacalardan muğayat olun, onları sizə tapşırıram deyirdi. Bizim balaca Eldin anasız, müdafiəsiz qalan balaları gecə pişik yeməsin deyə yuva ilə birlikdə süzgəcdə gətirib öz yataq otağına qoyurdu. Pişik ilk gecələri yenə gəldi, əli boşa çıxandan sonra artıq bu yerlərdə hərlənmədi. Səhərlər alatoranlıqda mədəsi yemlə dolu ana ögeyik gəlib pəncərənin üstünə qonur, Eldini səsləyirdi. O, elə bil Eldin, dostlarını gətir, yemləyim, acdırlar axı deyirdi. Eldin bir göz qırpımında otağındakı balaları gətirib yuva ilə birlikdə öz yerinə qoyurdu. Ana tez balalarını yedizdirib, yenidən pəncərəyə qonur və Eldinə nə isə pıçıldayaraq uçub gedirdi. Xeyli vaxt idi ki, belə davam edirdi, ana ögeyik balalar böyüyüb ərsəyə çatanda onları ustufca dimdikləyir, gürgüləyərək yuvadan uzaqlaşdırır, həyətə, həyata atılmağa sövq edirdi.

**Artıq dörd ildir ki, bizim aynabənddə həyat bu cür davam edir. Burada hər il ögeyiklər balalayır, nəsillərini artırırlar. Təbiəti ürəkdən sevən balaca Eldin də bu işdə onlara kömək əlini uzadır, əlindən gələni əsirgəmir. Axı hardasa bizə ehtiyacı olan quşlar da Ana təbiətin yaşamağa haqqı olan bir parçasıdırlar...**

**Adil Misirli**

# KREMLƏ SANCILMIŞ TÜRK BAYRAĞI

**Kremlə sancılmış türk bayrağı - Heydər Əlirza oğlu Əliyev sonradan bütün türkdilli dövlətlərin bayrağına çevrildi.**

Bilmirik, nədənsə hər dəfə Ümummilli Liderimiz Heydər Əliyevi xatırlayanda yadımıza Ramiz Rövşənin bu misraları düşür:

***Kimini tale səsləyir,***
***Kimi bəxtə-bəxt doğulur.***

Dünyaya hərə bir cür gəlir. Elələri var ki, dünyaya gəlişləri ilə yalnız valideynlərinə sevinc bəxş etməkdən başqa bütün ömürləri boyu əllərindən bir iş gəlmir. Nəinki bir elin, obanın, heç bir ailənin qayğı yükünə belə çiyin verə bilmirlər. Amma elə insanlar da var ki, onları tale səsləyir. Ulu Tanrı tərəfindən mənsub olduqları xalqa, bütövlükdə bəşəriyyətə bir xilaskar kimi göndərilir.

Azərbaycanın siyasi tarixində böyük xidmətləri olan, xalqımızın qan yaddaşında əbədi yaşayan şəxsiyyətlər çoxdur. İyirminci əsrin ikinci yarısında bir qərinədən çox Azərbaycana rəhbərlik edən, ölkənin iqtisadi inkişafına nail olan və xalqın özünüdərkində əvəzsiz xidmətlər göstərən, bütün mənalı ömrünün hər anı xalqına, Vətəninə bağlı olan Heydər Əliyev isə bu mənada əvəzsiz şəxsiyyətdir. Özü də onun siyasətdə əvəzolunmazlığı təkcə öz xalqı tərəfindən deyil, həm də dünyanın ən nüfuzlu siyasi xadimləri tərəfindən də etiraf edilib. Xalqımızın üzləşdiyi bütün taleyüklü problemlərin həlli istiqamətində göstərdiyi dönməzlik, həyata keçirdiyi ardıcıl və səmərəli siyasət onun fəaliyyətinin əsas qayəsi olub. Bütün bunlar da onu deməyə əsas verir ki, onun ömrü də xalqımızın ömrü kimi əbədidir.

Dünya şöhrətli ictimai-siyasi xadim, müdrik dövlət başçısı Heydər Əliyev bütün şüurlu həyatını canından artıq sevdiyi xalqının xoşbəxt yaşamasına, Azərbaycanın tərəqqisinə həsr edib. Möhtərəm Heydər Əliyev tarixi yaradan dahi şəxsiyyətlərdəndir. Müasir tariximizin bütöv bir epoxası - 34 il bu müdrik insanın adı və fəaliyyəti ilə bağlıdır. Müstəqil Azərbaycan dövlətinin yaradıcısı və memarı kimi o, quruculuq salnaməmizin şanlı səhifələrini yaratmağa müvəffəq olub. Respublikada minlərlə insan var ki, Heydər Əliyevin hakimiyyətdə olduğu birinci dövrdə (1969-1982-ci illərdə) ölkənin qazandığı uğurlar onların gözlərinin qarşısında baş verib. Bu dahi şəxsiyyətin gərgin əməyi sayəsində respublikada elə bir sahə olmayıb ki, orada Heydər Əliyev zəkasından irəli gələn müvəffəqiyyətlər hiss olunmasın.



İqtisadiyyatın inkişafı, milli kadrların yetişdirilməsi Heydər Əliyev tərəfindən ön plana çəkilmişdi. Bunun nəticəsidir ki, o vaxt inşa edilmiş böyük sənaye müəssisələri indi müstəqil Azərbaycanın iqtisadiyyatının əsasını təşkil edir. Böyük Öndər Heydər Əliyev uzaqgörən siyasəti nəticəsində gələcəkdə də Azərbaycanın müstəqil yaşaya bilməsi üçün zəmin yarada bildi. İqtisadi çətinliklər bir növ aradan qaldırıldı.

Heydər Əliyev Siyasi Büroya üzv gedəndə nəinki azərbaycanlıların, bəlkə də Sovet İttifaqına üzv olan bütün türkdilli dövlətlərin xalqlarının sevincinin həddi-hüdudu yox idi. Biz bir neçə faktı qeyd etmək istəyirik. Ulu Öndərimiz Heydər Əliyevlə bağlı yazı yazılanda çox vaxt bir məsələ unudulur. Totalitar sovet rejiminin tüğyan etdiyi bir dövrdə Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması Heydər Əliyev tərəfindən atılmış çox cəsarətli addım idi. Heydər Əliyev birinci dəfə hakimiyyətə gələn kimi ilk növbədə qayğılandığı məsələlərdən biri məhz bu problem oldu. Ulu Öndərin prinsipiallığı, qətiyyəti sayəsində isə 1978- ci ildə "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir" maddəsi Konstitusiyaya salındı. Bundan başqa, Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərilməsi, milli dildə nəşr edilən kitabların tirajlarının çoxaldılması və digər tədbirlər ana dilimizin daha da inkişaf etdirilməsi məqsədini daşıyırdı. Dilçi alimlərə dövlət mükafatlarının verilməsi də o dövr üçün Heydər Əliyevin qəbul etdiyi qətiyyətli qərarlardan idi.

Bəlkə də o vaxt hələ müttəfiq respublikaların heç birində bu təcrübə yox idi ki, birinci katib dilçi alimləri bunca rəğbətləndirmiş olsun. Bu hadisə çox böyük sensasiyaya səbəb olmuşdu, alimlərimizə qol-qanad vermiş, ruhlandırmış, yaradıcılıqlarına stimul vermişdi. Bu gün müstəqil Azərbaycan dövlətinin yaşaması üçün biz hamımız Heydər Əliyevə borcluyuq. Heydər Əliyev xalqın təkidi ilə respublikamıza yenidən rəhbərliyə tariximizin olduqca mürəkkəb məqamında qayıdıb. Yalnız siyasi müdrikliyi, polad iradəsi və dövləti idarə etmək istedadı sayəsində o, qarşıya çıxan bütün maneələri dəf etdi, xalqı düşdüyü bəlalardan qoruya bildi.



Bir faktı qeyd edək: Heydər Əliyev Moskvadan Azərbaycana dönüşündə məşhur gürcü jurnalistlərindən biri onunla apardığı müsahibəyə belə bir sərlövhə qoymuşdu: "Odlar Yurdu pələnginin bilәkləri hələ bükülməmişdir". Çox uğurlu başlıq idi. Bütün sonrakı hadisələr, Ulu Öndərin fəaliyyəti, ölkəmizin inkişafı naminə gördüyü işlər sübut etdi ki, Heydər Əlirza oğlu Əliyev bükülməz biləkli çox böyük şəxsiyyətdir. Elə bir adam yoxdur ki, bu həqiqəti birmənalı qəbul etməsin. Bir dəfə professor Qulu Xəlilov televiziya çıxışlarından birində belə bir müdrik kəlamı xatırlatdı ki, mən böyük ağıl qarşısında baş əyirəm, böyük ürək qarşısında isə diz çökürəm. Heydər Əliyev böyük ağıl və böyük ürək sahibi idi. Həmin dövrdə Azərbaycan xalqı öz taleyindən narahat idi. Hər bir Azərbaycan vətəndaşı sabit, təhlükəsiz bir cəmiyyətdə yaşamaq istəyirdi və bunun üçün xalqın iradəsinə güvənən qətiyyətli bir siyasi komandanın hakimiyyətə gəlməsi vacib idi. Heydər Əliyevin hakimiyyətə gəlişi də məhz bu tarixi zərurətin məntiqi nəticəsi kimi xarakterizə edilməlidir. 1993-cü ilin yayında Azərbaycan real vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldı. Surət Hüseynovla hakimiyyət strukturları arasında yaranmış münaqişə bütövlükdə dövlətçiliyin taleyini sual altında qoymuşdu. Bütün bunlara son qoymaq və ölkədə ictimai-siyasi sabitlik yaratmaq, cəmiyyətin ümumi təhlükəsizliyini təmin etmək üçün xalqın böyük əksəriyyətinin təkidli tələbindən sonra Heydər Əliyev Bakıya dəvət olundu. Ölkəni gözləyən real vətəndaş müharibəsi təhlükəsinin aradan qaldırılmasına nail olan Heydər Əliyev ictimai-siyasi sabitliyin yaradılmasını da təmin etdi. Məhz onun müdrik fəaliyyəti nəticəsində Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. Elə buna görə də 1993-cü ilin 15 iyunu müstəqil Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş günü kimi daxil oldu.

**Heydər Əliyev müasir dünyanın ziddiyyətli və ədalətsiz reallıqlarına dərindən bələd olan bir siyasi xadim kimi, ilk növbədə beynəlxalq müstəvidə təbliğatın düzgün qurulmasına və beləliklə də, dünya dövlətlərinin diqqətini işğal faktının əsl səbəblərinə yönəltməyə nail ola bildi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanda yeni bir tarixi mərhələnin əsasını qoydu. Ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı. Bu dövrdən ictimai münasibətlər sistemi təkmil bir strategiya əsasında inkişaf etməyə başladı, iqtisadi tənəzzülə son qoyuldu. Bütün bunlar müstəqil Azərbaycan dövlətinin sosial və siyasi dayaqlarını möhkəmləndirdi və respublikanın ümumi inkişafını təmin etdi.**

**(ardı var)**

**Səməndər MƏMMƏDOV**
**Faiq QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN
MALİYYƏ YARDIMI İLƏ



*Dilaram Əbdurəhmanqızı*

## AZƏRBAYCAN TORPAĞI

**(silsilə)**

*Dağlıq Qarabağ - Azərbaycanın qədim torpağıdır*

*Heydər Əliyev*

**I**

**Bir yer var ki, dunyaya yayılmışdır sədası,**
**Behiştdən, cənnətdən alınmışdır havası**
**İmana, inama açılıbdır qapısı,**
**Sənsən canım-cahanım gözəlim, Qarabağım**
**Qururum, iftixarım əzəlim, Qarabağım**

**Övliyalar nəfəsi yayılmış dağlarında**
**Hurilər üzün yuyar sərçeşmə bulağında,**
**Mələklər gəzir necə çiçəkli bağlarında**
**Sənsən canım-cahanım gözəlim, Qarabağım**
**Qururum, iftixarım əzəlim, Qarabağım**

**Atamın saçı kimi dağlarında durur qar,**
**Gəlin həyası kimi bağına qonar bahar,**
**Balam kimi əzizdir yox qəlbimdə heç qübar,**
**Sənsən canım-cahanım gözəlim, Qarabağım**
**Qururum, iftixarım əzəlim, Qarabağım**

**Hər kəs sənə bağlıdır, səni can tək sevirlər,**
**Küçələrə su səpib, nərgiz, reyhan əkirlər**
**Qucağın Cənnət bağı, ətirlidir çiçəklər**
**Sənsən canım-cahanım gözəlim, Qarabağım**
**Qururum, iftixarım əzəlim, Qarabağım**

**Şuşa, Laçın, Xocalı gözlərimin bəbəyi**
**Kəlbəcər, Zəngilanım bu dağların dirəyi**
**Hər tərəfin nəfəs tək bihuş edir ürəyi**
**Sənsən canım-cahanım gözəlim, Qarabağım**
**Qururum, iftixarım əzəlim, Qarabağım**

**Özgə yurdun çiçəyi bir çöpünə də dəyməz**
**Min il yağış yağsa da damla şehinə dəyməz**
**Nə ayrılıq,nə hicran, qəddimi əyə bilməz**
**Sənsən canım-cahanım gözəlim, Qarabağım**
**Qururum, iftixarım əzəlim, Qarabağım**

**Hicranım sona çatır, sənə çatır güzarım**
**Babam tikdiyi komam, ocağımsan qübarım,**
**Tələsirəm, bağrına qısılsın mənim canım,**
**Sənsən canım-cahanım gözəlim, Qarabağım**
**Qururum, iftixarım əzəlim, Qarabağım**

**II**

**Bir sazəndə məni rahat buraxmır,**
**Sazının sədası göyə ucalır**
**Rəbbim, bu nə sirr, ürəkdə qalır .**
**Şuşam, əzizimsən, qızıl tacımsan,**
**Könlümün məlhəmi, dərd əlacımsan**

**Sən şirin musiqi, ilahi nəfəs,**
**Qanımı, canımı oyadan bir səs,**
**İlhamın, ahəngin, dərdin müqiddəs,**
**Şuşam, əzizimsən, qızıl tacımsan,**
**Könlümün məlhəmi, dərd əlacımsan**

**Qarabağ bülbülü çəksə ahu-zar,**
**Səs verər çəkilən naləyə dağlar,**
**Yarpaqlar, qönçələr, daşlar, bulaqlar...**
**Şuşam, əzizimsən, qızıl tacımsan,**
**Könlümün məlhəmi, dərd əlacımsan**

**Bülbülə qarğalar qoşula bilməz,**
**Ötəri ahənglər yaxına gəlməz,**
**Özgə sədasıyla muğam oxunmaz,**
**Şuşam, əzizimsən, qızıl tacımsan,**
**Könlümün məlhəmi, dərd əlacımsan**

**Neçə ürəklərdə səslənir muğam,**
**Səslənir, oxunur nəğmələr, nə qəm,**
**Ruhuma su çilər çeşməsi zəm-zəm,**
**Şuşam, əzizimsən, qızıl tacımsan,**
**Könlümün məlhəmi, dərd əlacımsan**

**Ömür necə şirin, vardır məhəbbət,**
**Ölümdən güclüdür sevgi, sədaqət,**
**Mənim taleyimə gələn səadət**
**Şuşam, əzizimsən, qızıl tacımsan,**
**Könlümün məlhəmi, dərd əlacımsan**

**Hər mahnı, hər muğam, aşıq nəğməsi,**
**Azəri yurdunun sirli töhfəsi,**
**Eşq gülüstanının qızıl qapısı,**
**Şuşam, əzizimsən, qızıl tacımsan,**
**Könlümün məlhəmi, dərd əlacımsan**

**Diqqətlə nəzər sal bəbəklərimə,**
**Nəğmə tək axaram ürəklərinə**
**Sevincim, ələmim, heyranam sənə**
**Şuşam, əzizimsən, qızıl tacımsan,**
**Könlümün məlhəmi, dərd əlacımsan**

**III**

**Qəlbdə sönməz alovsan, qədimsən, ucalıqsan**
**Hər İki dunyamızda səadətsən, varlıqsan,**
**Səndən ayrılmaq olmaz, ruhumdakı ağrısan,**
**Əziz Dağlıq Qarabağ, canım fədadır sənə,**
**Əcdadlardan mirassan, şanssan, şərəfsən mənə.**

**Sənsən babamın yurdu, ata evim qapısı,**
**Boynumda həmayilim, munis ana laylası,**
**Azərbaycan yurdunun alınmaz bir qalası,**
**Əziz Dağlıq Qarabağ, canım fədadır sənə,**
**Əcdadlardan mirassan, şanssan, şərəfsən mənə.**

**Başqa yurdu el bilməz, vətəndən ayrı insan**
**Özgə bağda oxumaz, çəkər ah-zarı insan,**
**Gözündən nəmi bitməz, qəlbində ağrı insan**
**Əziz Dağlıq Qarabağ, canım fədadır sənə,**
**Əcdadlardan mirassan, şanssan, şərəfsən mənə**

**Babaların yurdusan, sənsiz canı neylərəm,**
**Səndən ayrı tapılan şöhrət-şanı neylərəm**
**Sənsiz günüm gün deyil, bu cahanı neylərəm,**
**Əziz Dağlıq Qarabağ, canım fədadır sənə,**
**Əcdadlardan mirassan, şanssan, şərəfsən mənə**

**IV**
**Xocalı, 1992 il, 25 - 26 fevral**

**Qətliam alovunda sərgərdan olan Xocalım,**
**Bir gecədə yer ilə yeksan olan Xocalım,**
**Neçə şəhid, qurbanla viran olan Xocalım,**
**Bəşəriyyət, aç gözünü, nə faciə, nə qəm bu**
**İnsanlığın adına damğa olan sitəm bu.**

**Yurd qırğına uğradı, yer, asiman titrədi,**
**Xatını od bürüdü, cumlə cahan titrədi,**
**Xirosima, Naqasaki - küllü yapon titrədi,**
**Bəşəriyyət, aç gözünü, nə faciə, nə qəm bu**
**İnsanlığın adına damğa olan sitəm bu**

**Ana yurdun bağrı qan, sinəsi odda yandı,**
**Gunahsız insanların ahı dunyanı tutdu**
**Neçə şəhidin qanı göyə - fələyə çatdı,**
**Bəşəriyyət, aç gözünü, nə faciə, nə qəm bu**
**İnsanlığın adına damğa olan sitəm bu**

**Eşitmədin sən gəncin, qocanın naləsini,**
**Qətl elədi oğlunu- gözünün giləsini,**
**Gəlin basdı bağrına ölərkən oldu körpəsini,**
**Bəşəriyyət, aç gözünü, nə faciə, nə qəm bu**
**İnsanlığın adına damğa olan sitəm bu .**

**Xalqım quş tək çırpınıb, qanad çaldı hər yana,**
**Evi-eşiyi yandı, dünya qaldı bigana,**
**Viran oldu, dağıldı ziyarətgahlar yan-yana,**
**Bəşəriyyət, aç gözünü, nə faciə, nə qəm bu**
**İnsanlığın adına damğa olan sitəm bu**

**Məgər bu insanlığın bir belə dəyəri yox?**
**Azyaşlı kğrpələrə, qocalara dəydi ox**
**Qəlbdə yaram bitişməz, alovlanan əzab çox**
**Bəşəriyyət, aç gözünü, nə faciə, nə qəm bu**
**İnsanlığın adına damğa olan sitəm bu**

**Dünyamızda yaşanıb müharibə, qan qada**
**Ətrqaf nalə içində hər yan batıbdır qana**
**Nəfsinə qul olanlar, heç bənzəməz insana**
**Bəşəriyyət, aç gözünü, nə faciə, nə qəm bu**
**İnsanlığın adına damğa olan sitəm bu**

**Şəhidlərin xatirəsi əbədidir və sönməz**
**Vaxtsız gedən ömürlər, qəlbldəki güldür, solmaz.**
**Millət hər kəlməsində Vətən deyər, yorulmaz**
**Bəşəriyyət, aç gözünü, nə faciə, nə qəm bu**
**İnsanlığın adına damğa olan sitəm bu .**

**Bircə anlıq sükutla qurbanları yad edək**
**Ata, ana, qız, gəlin, oğlanları yad edək**
**Qəlbimdəki bir haray, durmadan fəryad edək**
**Bəşəriyyət, aç gözünü, nə faciə, nə qəm bu**
**İnsanlığın adına damğa olan sitəm bu.**

**V**

**Ey, Dağlıq Qarabağ, müqəddəs torpaq,**
**Mənə cənnətv-behişt, əziz səcdəgah,**
**Varlığım, imanım, dinimsən, vallah -**
**Vətəndən imtina? -**
**Heç zaman olmaz!**

**Dünyada yalana köklənib sazlar,**
**Muəmma söyləyir hər cür avazlar,**
**Pərdə dalındakı ay, oyunbazlar**
**Vətəndən imtina? -**
**Heç zaman olmaz!**

**Xain ürəklərdə məkr və qəzəb**
**Ədavət, həqarət, qılınc və əzab**
**Hər kəsin qəlbində haqlı bir cavab -**
**Vətəndən imtina? -**
**Heç zaman olmaz!**

**Bitməyən təzyiqlər, müdhiş vuruşlar,**
**Haqqın gəmisinə nahaq duruşlar**
**Ay xırda adamlar, qəpik-quruşlar,**
**Vətəndən imtina? -**
**Heç zaman olmaz!**

**Acı qismətindən zar-zar ağlayan,**
**Evindən yurdundan tamam qovulan,**
**Xalqıma can fəda, can olsun qurban -**
**Vətəndən imtina? -**
**Heç zaman olmaz!**

**Minalar sancılan əziz köksünə,**
**Sancılıb əslində onlar sinəmə,**
**Ana can,ağlama, balam, incimə**
**Vətəndən imtina? -**
**Heç zaman olmaz!**

**Ulu keçmişimin ruhu hürr, oyaq**
**Qəddini şax tut, mərdsən, ol dayaq**
**Qelbimdə inləyən şəhidimdir haqq**
**Vətəndən imtina? -**
**Heç zaman olmaz!**

**Ey, ulu Qarabağ, səadətmisən**
**Qəlbimsən, gözümsən, şücaətimsən**
**Allah əmanətim, itaətmisən-**
**Vətəndən imtina? -**
**Heç zaman olmaz!**

## *Nəvai Həzrətlərinə*

**Sən əzəldən bu eşqin sirlərini bilənsən**
**Şeir kitablarında bu eşqi göstərənsən**
**Sənət qələmin ilə sevgi qəsrini tikib**
**Heyrət dolu tarixdə bizə aşikar edənsən.**

**Sən sözündə gövhərsən, dür təki bərq vuranım**
**Sən cənnət adlı bağda ahular ovlayanım**
**Nəva dolu gülüşlə günəş kimi nur saçıb**
**Nuş edib eşq şərabın canına bağlayanım.**

**Zərrədə bütün varlıq, damlada dərya könül**
**İzlərinin naxışı qəlblərə tutya könül**
**Hikmət içrə üzənim hər nəfəsi ibadət**
**Söz mülkünün sultanı, piri, sarayı könül.**

**Söz aləminə bəzək, qüdrəti deyən Pirim**
**Sözü əqil-kamaldan ucada görən Pirim**
**İnsanı ucalara yuksəldən sözdür, deyib,**
**Sözü həm şərəf bilib, həm gövhər bilən Pirim.**

**Mürəkkəbə su damsa, almaz kimi daşırdı,**
**Mənası yüzcahanı göy tağındam aşırdı,**
**Eşq Tanrıdan gəlirsə, səsində ahəng-nəva,**
**Bir Leylanın qanından min bir mələk şaşırdi.**

**Sən fələyin özünə söz gövhərin saçanım,**
**Gövhər dükanın tikib, durlə inci açanım.**
**Köhnə dunya bağrını hikmət ilə doldurub,**
**Mənalar dənizindən qəvvas olub keçənim.**

**Sən hikmət bürclərində nur dolyu gulustanım,**
**Bütün dunyanı tutan söz xəzinəm, cahanım**
**Qiyamətdə bərq vuran özün cövhərfəşanım,**
**Nəvai fəzlilətli, mənim türküm Turanım.**

**Özbək dilindən tərcümə etdi:**
**Faiq Balabəyli**

## *Bakının bitməyən tıxac problemi: Səbəb nədir?*

**İsti yay günlərində saatlarla tıxaclarda qalmaq həm sürücülərin, həm ictimai nəqliyyatdan istifadə edənlərin əsəblərini tarama çəkir. Əvvəllər yay fəslində tıxaclar az olsa da, son illər isə bunu demək olmur.**

Məsələ ilə bağlı nəqliyyat eksperti Rauf Ağamirzəyev Trend-ə bildirib ki, Bakı 2004-cü ilə qədər çeşidli nəqliyyat növləri olan şəhər idi. "Paytaxt tamam fərqli küçə şəbəkəsinə sahib idi. Amma son illər görülmüş işlər fərdi nəqliyyatın sayını artırıb. Xüsusilə də pandemiyada bu daha kəskin forma aldı. İctimai nəqliyyatın istənilən səviyyədə olmaması da bugünki tıxacların əsas səbəblərindəndir. Taksiylə, parklanma ilə bağlı və sürətə görə verilən qərarlar yaxşıdır. Lakin çatışmayan elementi də var. Belə ki, ictimai nəqliyyatın üstünlüyünü təşkil edən birinci zolaq şəbəkəsinin olması və ona sərt nəzarət həmin cərimələrdə ictimai nəqliyyatın zolağına girənlərin də cərimələnməsi 40 manatdan çox olmalıdır. Həmçinin səki infrsatrukturlarımız, yəni bir kilometr məsafədə piyada da hərəkət etmək olar. Lakin bariyerlər var. Səkilərin bariyerləri aradan qaldırılmalıdır. Mövcud küçə, yol sahəsində səmərəli istifadə etməklə mikromobillik vasitələri üçün şərait yaradılmalıdır. Bu da qısa məsafədə hərəkət etmək üçün şərait yaratmış olacaq. Və ümumi şəhərimizdə yaşıllıqların artırılmasına ehtiyac var. Çünki Bakıda asfalt səhralarının təsiri olaraq ümumi temperaturun artmasını da müşahidə edirik. Bu da yekunda yaşayış keyfiyyətinin düşməsinə səbəb olur. Mobilliyin təmin olunması üçün ictimai nəqliyyatın çeşidli növlərinin inkişafı, üstünlüyü mütləqdir. Vahid biletin və daşıyıcılarnan bağlanmış müqavilələrin uzunmüddətli olması və brutto xərc müqaviləsinə keçilməsi mütləqdir. Bunlar hamısı yekunda ictimai nəqliyyatla hərəkət edənlərin sayına ciddi təsir edəcək və insanların daha rahat hərəkət etməsiylə nəticələnəcək."



Ekspert qeyd edib ki, meqapolislərdə tıxac olur. Əsas məsələ odur ki, daha çox sərnişin daşıyan növlər nə səviyyədədir.

"Hərəkət edənlər üçün çeşidli növlər olmalıdır. Hamı bir növ nəqliyyat vasitəsinə yüklənməməli, digərinə keçid rahat olmalıdır. Bu həm iqtisadi cəhətdən sərf eləsin, həm də sürət cəhətdən alternativ tanımasın. Biz ictimai nəqliyyata ciddi investisiya etməsək, mövcud olanların ilkin mərhələdə üstünlüyünü təmin etməsək dəyişən heç nə olmayacaq və tıxaclar artacaq. Tələb təklifi üstələdiyindən insanlar qeyri-qanuni daşımalar yönəlir. Bunu metro yanlarında şahidi oluruq. Pandemiya zamanında da aqreqator şirkətlərin çoxalması ictimai nəqliyyatın qənaətbəxş olmamasıdır", - deyə o, qeyd edib.

## Həmkarları Rasim Balayevin müdafiəsinə qalxdı



**Xalq artisti Rasim Balayevə "BBC News Azərbaycanca"a müsahibəsi zamanı ona deyilən "Xalqın şikayətlərini prezidentə çatdırmağa fürsətiniz var idi" sözləri tənqid edilib.**

Adalet.az xəbər verir ki, sənət dostları Rasim Balayevlə bağlı paylaşım edərək, aktyora dəstək olublar.



**Xalq artisti Mehriban Zəki** həmkarına dəstəyini belə bildirib:

"Başa düşə bilmirəm, millətin problemlərini vəzifəsi dövlət rəhbərinə çatdırmalı olan millət vəkillərindən niyə soruşulmur? Bir sənət adamı, incə sənət sakini olan bir şəxsiyyət təhqirlə, istintaq olunur? Bu kobud, zəkasız, peşədən, etikadan uzaq, münasibətə niyə yol verilir?"



**Tanınmış aktyor Rəşat Kəsəmənli** də xalq artistinin müdafiəsinə qalxıb:

"Rasim Balayevi müzakirə etmək üçün ən azı onun sənət səviyyəsinin 1%-nə sahib olmaq lazımdır! Yaşayan dahi sənətkarları qorumaq və dəstək olmaq hər birimizin borcudur! Onun bütün sözləri reallıqdır! Alqışlayıram və dəstəkləyirəm!"



**Aktyor Kamran Ağabalayev** isə xalq artistini qınayanları daha kəskin şəkildə tənqid edib:

"Rasim Balayevə verilən sualları,bir yeriniz çatmır deputatlara yönləndirməyə?!"

**Aktyor Tural Əhməd** də R. Balayevin müdafiəsinə qalxanlar sırasındadır:

"Sizi çox istəyirəm... Kaş ki,elə sizin kimi həqiqətləri deyə biləcək adamlar çox olaydı... Sizin üstünüzə düşməyə nə var ki? Gücləri çatmır axı üstünə düşməli olacaq adamların! Nə demisinizsə əcəb eləmisiniz,hələ az demisiniz. Yaxşı ki, varsınız."



Qeyd edək ki, xalq artisti Rasim Balayev jurnalistin məlum sualına ""Bəlkə də mən ziyalı deyiləm. Və xalq 9 il mənimlə maraqlanmadı, mən niyə özümü həsr etməliyəm bu kütləyə?!" deyə cavab verib.

Onun xalqı kütlə adlandırması şəbəkələrdə qınağa səbəb olub.

**Əntiqə Kərimzadə**

## Afaq Bəşirqızı: "Ölkə başçısının incəsənət xadimlərinə göstərdiyi qayğılar misilsizdir..."



**Xəbər verdiyimiz kimi Xalq artisti Afaq Bəşirqızının doğum gündür.**

Adalet.az-ın əməkdaşı bu münasibətlə aktrisa ilə əlaqə saxlayıb və təəssüratlarını öyrənib. A.Bəşirqızı doğum gününü ailəsiylə birlikdə qeyd etdiyini deyib:

"Təbrikiniz üçün çox sağ olun. Doğum günümü adi günlərdən biri kimi qeyd edirəm. Ailə üzvlərimlə oturmuşuq, yeriniz məlum".

A.Bəşirqızı Xalq artisti Rasim Balayevin və müğənni Akif İslamzadənin təltif olunmasına da münasibət bildirib və buna görə ölkə başçısına təşəkkür edib:

"Rasim Balayevi də, Akif İslamzadəni də təbrik edirəm. Cənab Prezident çox sağ olsun. İncəsənət xadimlərinə ölkə başçısının göstərdiyi qayğılar misilsizdir. Onların da içində son günlər Rasim Balayevin "İstiqlal", Akif İslamzadənin isə "Şöhrət" ordeniylə təltif olunması içi mən qarışıq hamını çox sevindirdi. Cənab Prezidentə öz minnətdarlığımı bildirirəm".

Qeyd edək ki, Afaq Bəşirqızı 1955-ci ildə Bakı şəhərində böyük Azərbaycan aktyoru Bəşir Səfəroğlunun ailəsində anadan olub. O, bir çox filmlərdə rol alıb. Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, Azərbaycan Dövlət Musiqili Teatrının aparıcı aktrisasıdır.

**Vasif Əlihüseyn**

## Elza Seyidcahan: "Qadın ərinin corabını yumalıdır..."



**Əməkdar artist Elza Seyidcahan telekanalların birində qadın- kişi münasibətlərindən danışarkən qeyd edib ki, xəyanətin qarşısın yalnız qadınlar ala bilərlər.**

Adalet.az xəbər verir ki, sənətçi kişilərin uşaqdan da betər çətin xarakterə malik olduqlarını bildirib:

"Xəyanətin qarşısını yalnız qadınlar özləri ala bilərlər. Qadın kişiyə öz uşağı kimi baxmalıdır. Çünki kişi uşaqdan da betərdi. Baxmayın ki, bığları-saqqalları var...

Kişilərdə beyinin bir tərəfi işləyir, qadında isə hər iki tərəf işləyir. O beyin dolandan sonra kişiyə söz deyəndə kişi əsəbiləşir. Qadınların bir çoxu karyera xəstəliyindədirlər. Amma anlamırlar ki, ailə ən böyük karyeradı. Əlbəttə ki, bu, çox pis haldır. Uşağı doğub verirlər dayəyə. Əgər sən bu uşağı dayəyə verəcəkdinsə, niyə doğurdun?! Qadın ərinin paltarını yumur. Dayə gəlir ərin paltarın yuyur, corabın yuyur... Sonra da dayə əri alır arvadın əlindən."

**Əntiqə**

# Baba Vəziroğlu: "O, Azərbaycan muğamının dünyada vizit kartıdır..."

**"Alim Qasımov Azərbaycan muğamının, ümumiyyətlə mədəniyyətinin dünyada vizit kartıdır. İndiyə kimi bizim muğam məşhur bir frazada deyildiyi kimi Biləcəridən o yana addamırdı. Təbii ki, muğam bizim mədəni sərvətimizdir, amma onu dünyada layiqincə təmsil edə bilmirdik. Lakin Alim müəllim muğamın o ağır yükünü çiyninə alıb Amerikaya, Atlantik okeana, Çinə, Yaponiyaya qədər apara bildi".**

Bunu Adalet.az-a açıqlamasında Əməkdar incəsənət xadimi, şair Baba Vəziroğlu yaxın dostu, Xalq artisti Alim Qasımov haqda danışarkən deyib. Baba Vəziroğlu doğum günü münasibətilə Alim Qasımovu təbrik edib:

"Mən bir videoda görmüşəm ki, yaponlar ayaq üstdə durub Alim müəllimin ifasında muğama qulaq asırlar. Çox qəribədir. Onda mən bir daha dərk elədim ki, musiqinin dili yoxdur, söz anlayışı olmur, bilinmir nə deyilir, amma Alim müəllim onu musiqidə elə təqdim edir ki, sanki yaponlar Azərbaycan dilini bizdən yaxşı bilirlər. O vaxt da böyük sənətkarlar, ustadlar var idi, amma Heydər Əliyev Fondu yox idi. Heydər Əliyev Fondu bizim mənəvi, milli sərvətimizin dünyaya təqdim olunması üçün misilsiz işlər gördü. Bunun üçün da yaxşı Alim Qasımov, Əzizə Mustafazadə, Fərhad Bədəlbəyli, Eyvaz Yusifov, Müslüm Moqamayev kimi daşıyıcılar var. Mən dünya çapına çıxan sənətkarları sadaladım. İndi gördünüz ki, təbliğat və təqdimat olmasa, kim nə oxusa, çəksə, yerində qalar və bundan heç kimin xəbəri olmaz.



Sadəcə odur ki, olanı təqdim etmək lazımdır.

Ermənilərdən hərdən dərs götürmək lazımdır ki, onlar olmayanların təqdim edirlər. Ordan-burdan çırpışdırıb, qarşısına bir erməni sözü əlavə edib təbliğatın aparırlar. Amma biz onlar kimi olmayanımızı yox, olanımızı təqdim edirik. Şükür Allaha ki, Alim Qasımov olanımızın dünya çapında təqdimatı üçün bəlkə də birinci şəxsdir.

Mən ona Alim yox, həmişə ustad deyirəm. Ona görə ustadın doğum günün təbrik edirəm. Ustada eşq olsun. Maraqlı bir əhvalat da yadıma düşdü. Alim müəllim efirdə söhbəti zamanı deyir ki, "əlli ildir boğazımı yırtıram, yerə-göyə sığmıram ki, bütün muğamları oxumuşam, dəsgahları yazdırmışam. Amma İrana, Türkiyəyə gedəndə deyirlər ki, Alim bəy "Xatirə"ni oxu. Mən bir mahnı kimi oxumuşdum bunu, amma sən demə bu mənim bütün dünyada visit kartım oldu". Bir daha ustadımızı və oxucularımızı da təbrik edirəm. Çünki o xalqa, bizə məxsusdur. Ona görə özümüzü təbrik edirəm".

**Vasif Əlihüseyn**

# Şeyx Əbdül: «Rasim Balayev Azərbaycanın birnömrəli aktyorudur...»

**"İndi bir yazı işləyirəm və onu mətbuata təqdim edəcəm. Bu yazıda bütün bu deyilən məsələlərə nöqtə qoymaq istəyirəm. Bilirsiniz ki, Balayevlə (Rasim Balayev) münasibətlərimiz təmiz korlanıb. Amma bu o demək deyil ki, o, Rasim Balayev deyil. Əgər bu insan 75 yaşında kino sahəsindəki xidmətlərinə görə Prezident səviyyəsində təltif olunursa, onu ancaq dəstəkləmək lazımdır"**

Bunu Adalet.az-a açıqlamasında Şeyx Əbdül Mahmudbəyov deyib. Şeyx Əbdül Rasim Balayevi tənqid edənlərə cavab verib: "Adam-adama bir konfet verəndə yüz dəfə sağ ol deyir. İndi Prezident bu adamı "İs-



tiqlal" ordeniylə təltif edirsə, bəs təşəkkür etməməliydi?! Prezident son bir ayda kino üçün çox işlər gördü. Nəhayət milli kinomuzun bərpası üçün Cənab Prezident göstəriş verib. Bu sahəyə maliyyə vəsaiti ayrılacaq, işlər gedəcək. Altmış beş ildir ki, mən bu kinoya xidmət edirəm, Prezident də kinoya diqqət göstərir, xarici və daxili xidmətləri göz önündədir. İndi bəs mən təşəkkür etməyib neyləməliyəm ki? Niyə bu adamlar başından böyük danışırlar. Onların müxalifətini də gördük.

Əbülfəz Elçibəy mənim kirvəm idi, dedim niyə vəzifəni qoyub qaçdın? Dedi ki, "belə məsləhət idi?". İndi o haqq, mən isə nahaq dünyadayam. Amma bunu dəfələrlə müsahibələrimdə demişəm. Bütün bunlar oldu, qurtardı getdi. İndi qırt toyuqlar kimi köhnə samanı çəkməyin nə mənası var?

Bu məsələləri qurdalayanlar "Əli aşından da, Vəli aşından olub, ortada quyruq bullayanlardılar".

Gedib oturub xaricdə əxlaqsız söyüşlər söyürlər. Sizin ananız, bacınız yoxdur? Belə siyasi mübarizə olmur axı. Rasim Balayev Azərbaycanın birnömrəli aktyorudur, həyatını kinoya həsr edib, 75 yaşı var, xəstədi, çətinliklə yeriyir. Rasim bu gün haqqını alıb və ona da bu Prezident tərəfindən verilib. Əgər Rasim Balayev təltif olunmasaydı, onda da deyəcəkdilər ki, niyə Balayevi təltif etmədilər. O zaman bunun əksini deyəcəkdilər. Belə olmaz axı, bir cəza olmalıdır, tədbir görülməlidir".

**Vasif Əlihüseyn**

# Nazlı Çələbi: "...əsərlərim asılılıq yaradır"

*Həyatda nə qədər insan varsa, o qədər də fərqli düşüncə, fərqli fikir və fərqli anlayışlar var. Dünya müxtəlifliklərdən ibarətdir. Yəni kimisə və ya nəyisə təkrarlamaq təbiilikdən uzaq olmaq deməkdir. Müsahibim Nazlı Çələbi də fikirləri, düşüncəsi və yazdıqları ilə özü olmağın tərəfdarıdır.*

**-Oxucularınız sizi Nazlı Çələbi olaraq tanıyır. Bir az da Dilbər Çələbini tanıyaq...**

-İnsan özü haqqında yarımçıq danışmaz. Ya hər şeyi danışmalıdır, ya da heç nəyi. Burda da "hər şey" və "heç nə" nisbidir. Baxır, söhbətə hansı cığırdan, hansı səmtdən daxil olursan. Kimdir Dilbər? Höte demiş, "bir dünya vətəndaşı". Valideynlərindən həmişə "heç kimlə işin olmasın" eşidərək böyüyən bir insan. Amma böyüdükcə anlayan ki, işin olmadıqların belə, səninlə uğraşacaqlar, səni hədəfə götürəcəklər, sənin olana göz dikib, olmayanına sevinəcəklər. Və bu sevinc belə, Dilbərin tanıdığı, bildiyi sevinc deyil. Bilirsiniz, Əntiqə xanım, mən hər şeyi "uzaqdan seyr etməklə" böyümüşəm. Amma bir gün qəfildən tale qolumdan yapışıb, itələyib salıb seyr etdiyim həyatın içinə, deyib: "Yaşa!" Çalışmışam yaşamağa. Və də çalışıram...

**-Sənətiniz həkim, hobbiniz isə yazmaqdır. Hansı daha çox insanlara məlhəmdir?**

- Yazmaq tamamilə başqa bir şeydir. İllah da, "hobbi" sözünü işlədəcəyiksə, belə deyim: yazı insanın deyil, insan yazının hobbisidir. Yazı nədir? Səsin əksi. O səs ki, kainatda əbədidir. İnsan bu səsin ötürücü vasitələrindən yalnızca biridir. Qaldı səsi əks etdirməyə, bunu da insan özü seçmir. Səs özü gəlib tapır insanı, onu verir əksinin -yazının əlinə. Yazı da başlayır insanı yenidən yaratmağa. Nəticədə nə alınacaq? Bunu insan heç vaxt bilmir. Şedevr də yarana bilər, əyri-üyrü bir nəsnə də. İnsanın "gözəllik" və "çirkinlik" anlayışı məhz burdan qaynaqlanr. Və bu anlayışlar da mütləq deyil. Və bu anlayışların ikisi də insana məlhəmdir. Anladığı-anlamadığı səbəblərə görə, cəmiyyət tərəfindən yaralanan insan ya çirkinliyə bulayır özünü, ya da gözəlliyə. İkisi bir arada-balanslı şəkildə yalnız kainatın mizanındadır. İnsan isə öz seçimiylə bu balansı pozur: "yaxşı insan", "pis insan" olur. Ki, burda da hər kəsin baxış bucağından yaxşı və ya pis olmaq fərqli görünür.

**-Fikrinizcə, əsərləriniz insanlara "qurtuluş" olur, yoxsa daha çox "asılılıq" yaradır?...**

-Asılılıq yaradır. "Qurtuluş" böyük anlamdır və heç kim iddia edə bilməz ki, "filan şeydən, filan adamdan qurtuldum". Bir iz qalır hardasa, bir xatirə ilişir şüuraltının qarmağına. Bu zaman asılılıq yaranır. İnsan "unutdum" dediyi insanı unutmur. Çünki unutduğu haqqında danışa bilməz. Oxuculardan dəfələrlə eşitmişəm ki, hansısa əsərim onlara səmt ağacı olub, öyrəniblər, anlayıblar, düşünüblər. Əsərlərim düşdüyü vəziyyətdən çıxış yolu axtaranlar üçün çox gözəl çıxış yollarını göstərir. İnsanı artıq çoxdandı gəldiyi yoldan qaytarmaq olar, ona "səhv istiqamətə gedirsən" demək olar, amma o yolun artıq keçildiyini, insanın bu yolçuluğunda nəyinsə şahidi, nəyinsə iştirakçısı olduğunu da danmaq olmaz. Bu mənada əminəm və təkrar edirəm: əsərlərim asılılıq yaradır: "YAŞAMA ASILILIĞI".

**-Bizim cəmiyyət sevgini çərçivədə görür. Yəni cavan oğlan yaşlı xanımı sevə bilməz. Subay oğlan boşanmış qadınla evlənə bilməz. Övladı olan boşanmış qadın ailə qurursa, cəmiyyət onu qınayır və s. Bütün bunları düşünəndə "888"i yazmaq sizə çətin olmadı ?**

-Yox. Mən də bu cəmiyyətin üzvüyəm, cəmiyyətin tabularının "Domokl qılıncı" olduğunu bilirəm. Fərqliliyim qətiliyimdir. Bir şey baş verəcəksə belə, istəyirəm ki, o, baş versin. Nitşe deyirdi ki, "ümid ən böyük işgəncədir". Mən özümə işgəncə verməkdənsə, o ümidin gerçəyə dönmək şansını ölçməyi seçirəm. İçində yaşadığımız, parçası olduğumuz cəmiyyət, Nitşenin təbirincə, işgəncədən zövq alır. Burda "ümid" elə özüdür, "səbir" ilə qarışdırılmamalıdır. Mən bütün əsərlərimdə tabuların mahiyyətini açmağa çalışıram. Obrazlarımın əksəriyyəti realdır və mən nadirən onların qərarlarını "dəyişirəm". Çünki "ədəbiyyat gözəllik təlqin etməlidir" prinsipi var ortada. Amma bu, o demək deyil ki, biz qeyri-gözəl olana gözümüzü yummalı, həqiqətin üstünü malalamalıyıq. Bütün mənfilikləri görməli, olduğu kimi qəbul etməli, onun qarşısında sağ qalmağı düşünməliyik. Məhv etmək isə, sadəcə, mümkünsüzdür.



**-Cəmiyyətdəki neqativlərin kökündə sevgisizlik dayanır, sonra diqqətsizlik?**

-Sevgisizlik. Sevgi insanı diqqətli olmağa vadar edirsə, "diqqətsizlik" sözünə ehtiyac qalmır. Sevgi insanın mahiyyətidir. Yerdə qalan bütün hisslər sevginin deformasiyasından, növündən asılı olaraq peyda olub. Məsələn; ağrı. İnsan o zaman mənən ağrıyır ki, daxilindəki sevgini yox sayır. Öz sevgisizliyinə -sevmədiyinə və sevilmədiyinə inananda mənən ağrıyır insan. Adını da qoyur "kədər". Əgər insan sevginin özü ilə olan eyniliyini dərk etsəydi, neqativlik olmazdı.

**-Nazlı xanım, cəmiyyət düşünməkdə əziyyət çəkir, yoxsa anlamaqda?..**

-Düşünməkdə. Anlayışda, şükür, cəmiyyət olaraq problemimiz yoxdur. Ən son texnoloji yenilikləri bu qədər sürətlə həyatımızın bir parçasına çevirə biliriksə, "anlayışımız qıtdır" demək absurddur. Düşünmək problemdir.

Çünki tarix boyu zövqlə eyniləşdirilən düşüncə modern dünyada əzab olaraq qəbul edilir. Beləcə, biz ənamımız, ərməğanımız olan həyatı da əzab olaraq qəbul edir, əzab çəkə-çəkə yaşayırıq.

**- "Cəza otağı"ndan salamat qurtulanlarla heç rastlaşmısınız?**

-"Cəza otağı"ndan heç kim salamat qurtulmur. Elə onun qapısından atılan ilk addımdaca insan yara alır; istər fiziki, istər psixoloji. Uşaqlara insanlığın sabahı kimi deyil, "nəyinsə xətri" kimi yanaşılanda "sağlam cəmiyyət" arzulamaq absurddur. İnsan uşaqlığında nə yaşayırsa, bütün həyatı boyunca onu özüylə gəzdirir. İndi oturub sevgisizliyindən şikayət etdiyimiz insanlar var ha, onlar bu sevgisizliyi miras alıblar-onunla doğulublar, onunla böyüyüblər, onu da öz uşaqlarına ötürməkdə israrlıdırlar. Sevgisizlik isə xəstəlikdir. Bu mənada mən əsərlərimlə də müalicə edirəm-kitablarımı oxuyanlar sevgini tanıyır...

**-Əsərlərinizdə mistika, məcazilik, demək olar ki, çoxdur. Bunları birbaşa insan psixologiyası ilə əlaqələndirmək olar?**

-Bəli. Yazdıqlarımın hamısı insan haqqındadır. Mistika insanın var oluşundadır. Məcazilik isə insanın "missiya axtarışları"nın nəticəsidir. Nə qədər ki, insan var, o qədər də mistika var, məcazilik var. Mən kitablarımda insan-kainat, insan-təbiət, insan-insan problemlərini ayrı-ayrı təqdim edirəm, mahiyyətini açıram və həll yolları haqqında ipucuları verirəm.

**-Yəqin ki, "Həzz"i oxuculara təqdim etməyinizin səbəbi dünyamızın narkomaniya adlı bəladan qurtulmağını arzulamaqdır**

-Arzulamaqdan daha çox, bu bəladan qurtulmaqçün nəsə etməkdir. Sərçənin dimdiyində yanğına su daşıması kimi görünə bilər, amma unutmayın ki, ortada "vicdan" var. "Həzz"də narkomaniya, insan alveri kimi məsələlər qabardılıb. Bu 2 bəşəri bəlanın mövcud olduğunu hamı bilir. Hamı da deyir: "Yaxşı ki məndən uzaqdı." "Uzaq" dediyimiz hansı məsafə ölçüsüdür ki? Hə?

Evimizin divarlarından kənardadırsa, "uzaq" deməyimiz nə dərəcədə doğrudur ki? Bu cür düşünəndən sonra başlamışam "Həzz"i yazmağa. Əgər atılan daşın qarşısına əlimi uzatmaq imkanım varsa, uzadıram həmişə.

Gözləmirəm, gedib dəysin məndən sonrakına, mən də vicdanımın başını tumarlayım ki: "Məndən ötdü, qardaşıma dəydi." Bu bəla bəşəridirsə, hamımızındı. Hamımız nəsə etməliyik...

**Əntiqə KƏRİMZADƏ**

## "Leytenant Məcidov"




**Bu günlərdə yazıçı İradə Aytelin "Leytenant Məcidov" adlı sənədli romanı işıq üzü görüb. Kitabda 44 günlük zəfər tariximizin Şəhidi Aqil Məcidovun şərəfli döyüş yollarından söz açılır.**

"Elm və Təhsil" nəşriyyatında çap olunan kitabın redaktoru Bəyanət Qasımov, ön söz müəllifi və maddi dəstəkçisi Çingiz Abbasovdur.

Xatırladaq ki, "Leytenant Məcidov" müəllifin sayca 11-ci kitabıdır. Yazıçının bundan əvvəl "Sevgidən doğulan işıq" (şeirlər), "Bir cüt qızılgül" (sənədli roman), "Çiçək açan dərdlərim" (şeirlər), "İkimizin bir evimiz varıydı" (şeirlər), "Partizanın acı həqiqətləri" (sənədli roman), "Sədnik Paşa Pirsultanlının nəsri" (elmi-monoqrafiya), "Eynək taxan Günəş" (uşaqlar üçün hekayələr), "Qanlı öpüşlər" (hekayələr), "Bağışla" (şeirlər), "Seyfəli şəhidləri" (oçerklər) kitabları işıq üzü görmüşdür.

## Saqqallı qadın olar?




**Ölkəmizdə kişilərin saqqal saxlamağı dəbdə olduğu və eləcə də bir çoxları tərəfindən bəyənilmədiyi zamanda Amerikanın Miçiqan ştatında yaşayan 38 yaşlı Erin Qanikat 30 sm saqqal uzatmaqla qadınlar arasında dünya rekorduna imza atıb.**

Amma o bu saqqalı kefindən saxlamayıb. Ona hormonal balanssızlığa səbəb olan polikistik yumurtalıq sindromu diaqnozu qoyulub.

Menstruasiya dövrünün dəyişməsinə, çəki artımına, sonsuzluğa və həddindən artıq tüklənməyə səbəb ola bilən bu sindrom çox rast gəlinməsə də, dünyada Erin kimi qadınlar var.

## Müğənni millət vəkilidir? Səs verib seçmisiniz? - Nura Suridən qəzəbli paylaşım



**"Bu qədər şadlıq sarayları, restoranlar və sair müğənnilərindir? Hansısa məmur sizin haqqınızı yeyir susursuz, amma məşhurlar - hansı ki öz əziyyəti, zəhməti ilə sizin şənliklərdə sizə xoş əhval-ruhiyyə bəxş edir, söyüb batırırsınız".**

Adalet.az xəbər verir ki, bu fikirləri müğənni Nura Suri öz sosial şəbəkə hesabında paylaşıb. O, müğənniləri söyənlərə qəzəblənib.

"Bir aydınlıq gətirim bəzi dərrakəsiz, qanacaqsızlara. Məşhurlara ələxsus da müğənnilərə qarşı aqrresiyanın kökü paxıllıq və qorxudur. Evdə ərinə, işdə müdirinə, hakimiyyətə deyə bilmədiyini məşhurlara deyir. Arzu edib əldə etmədiyini məşhurlarda görəndə elə bil onun arzusunu biz əlindən almışıq kimi zənn edir. Müğənni sənə nə pislik edib, ay zavallı?

Müğənni bir mahnını almaq üçün nə qədər pul ödəyir, aranjiman etdirir, klip çəkdirir, geyinib-keçinir. Hansı biriniz gəlib qapısın döyüb mahnılarını sevdiyiniz bir müğənniyə maddi dəstək olmusuz ki, indi də sizi xalq bu səviyyəyə gətirib deyirsiz? Müğənni millət vəkilidir? Səs verib seçmisiniz? Bu qədər şadlıq sarayları, restoranlar və sair müğənnilərindir? Hansısa məmur sizin haqqınızı yeyir susursuz, amma məşhurlar - hansı ki öz əziyyəti, zəhməti ilə sizin şənliklərdə sizə xoş əhval-ruhiyyə bəxş edir, söyüb batırırsınız.

Kimə maddi köməklik lazım olur müğənnilər, blogerlər yardım edir ilk növbədə (bütün sosial verlişlərdə baxın). Hələ görmədim ki, o verilişlərin birində (göz önündədir deyə misal çəkirəm, görünməyən yardımları demirəm heç) hansısa məmur kiməsə yardım etsin. Tək-tük iş adamları və məşhurlar. Çox bədbəxt görünürsüz belə düşüncəsiz olduğunuz üçün".

## "Yaxşı insan olmağın başqa yolu yoxdur"



**"Gül fikirləşən gül baxçalarında, tikan fikirləşən isə tikanlıqda olar. Allah hamımızın dadına çatsın".**

Adalet.az xəbər verir ki, bu sözləri müğənni İradə İbrahimova instaqram hesabında yazıb. Sənətçi sözlərinə belə davam edib

"Bəzən bir çox neqativi bir arada yaşayıb, "hər şey nə qədər pisdir" dediyim vaxtlarda özüm-özümə pıçıldadığım sözləri sizlərlə də paylaşmaq istəyirəm: İradə, hər şey pis belə olsa, sən yaxşı olanlardan ol. Yaxşı qal, gözələ yönlən, gözəl düşün. Bağlanan qapıya deyil, açılan pəncərəyə bax. Əhvalı yüksək tutmağın çox çətin olduğunu bilirəm.Amma yaxşı insan olmağın da başqa yolu yoxdur".

**Emin**

## AFFA İntizam Komitəsinin qərarları



**Dünən AFFA-nın İntizam Komitəsinin iclası keçirilib. Qol.az xəbər verir ki, iclasda Misli Premyer Liqasının 2-ci turundakı qayda pozuntuları ilə bağlı qərarlar qəbul edilib.**

"Araz-Naxçıvan" - "Qəbələ" qarşılaşmasında "Qəbələ"nin futbolçusu Ülvi İsgəndərov təcavüzkar davranışa görə birbaşa qırmızı vərəqə aldığı üçün 2 oyunluq cəzalandırılıb, klub 2000 manat cərimə edilib. "Neftçi" - "Səbail" oyununda "Səbail" 2-ci hissəyə gec çıxdığına görə 1500 manat cərimə edilib. "Səbail"in 5 futbolçusu sarı vərəqə ilə cəzalandığına görə klubu 700 manat ödəyəcək. Həmçinin "Səbail"in baş məşqçisinin köməkçisi Elmir Xankişiyev meydana kənar əşya atdığına görə 2 oyun şərti olmaqla 4 oyun cəzalandırılıb, klub 3500 manat cərimə edilir. Sınaq müddəti 3 ay təyin olunub. "Neftçi"nin baş məşqçisi Adrian Mutu "A buraxılışı" vəsiqəsindən istifadə etmədiyinə görə "Neftçi" 500 manat cərimənib.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 142
Çapa imzalanmışdır:
17.08.2023